دیوان

میرزا جهانشاه حقیقی

تورکــجه شعرلر

دیوان ترکی

غزلیات / غزللر

بیر نئچه سؤز

آذربایجان کلاسیک شعرینین أن گؤزل نومونه لرینی یارادان میرزا جهانشاه حقیقی أدبیات تاریخیمیزده اونودولموش شخصیتلریمیزدن بیری سایبلیر. قاضی برهان الدین، محمد أمانی ، شاه اسماعیل خطایی و بیر چوخلاری کیمی حقیقی ده سرکرده- شاعیر شخصِتلریمیزین سیراسینا داخیل اولور.

حقیقینین دیوانی اورتا عصر آذربایجان دیلینین اینکیشاف تاریخینین یؤنونو گؤستریر . شعرلرینین مضمون جهتدن چتین اولماسینا باخمیاراق ، دیلی آخیجیدیر، و دؤورون دانیشیق سیماسینی گؤسترن دیلدیر. جهانشاهین شعرلری دیل و مضمون باخیمیندان عمادالدین نسِیمینین یارادیجیلیغینا اوخشارلیغی چوخدور. ائله بونا گؤره ده اونون بیر نئچه شعرینی نسیمینینکی بیلیب اونون دیوانینا سالیبلار. بئله شعرلری کیتابین أتک یازیسیندا گؤسترمیشیک.

حقیقینین دیوانیندا اولان شعرلر گؤستریر کی، او عرب دیلینی ده یاخشی بلد ایمیش.

شبهه‌دن آرین ز اهل ساجد اول ایمانه گل

لیس مقبول الصلوه القلب إلا بالحضور

إنما الاعمال بالنیات قول مصطفاست

هر که قدر این سخن نشناخت از مردودهاست

باشقا طرفدن شطرنج اصطلاحلارین و حرکتلرین شرحی اونون شطرنج ایله تانیش اولماسینا دلالت ائدیر.

فرس کنارهٔ فیلدن گچر رخه قارشو

پیاده سورمگی فرزینه شاه ایدر تعلیم

حقیقی محبتدن دانیـشارکن آذربایجـان موسیقیـسینین موقامتلارینـا ایشاره ائدیر و گؤستریر کی ، بو موسـیقی فورمـالاری او زامانـدا دبـده اولان موسیقی نؤوعلریندن سایيلیردیلار.

قلمشم شهناز ایلن عشاق شرحن در عراق

بو مقامتدن من اول ادواره مشتاقم ینه

حقیقینین دیلینده ائله سؤزلره راستلاشیریق کـی، دیلیمیـزین اورتـا عصر لکسیک دایره سینده ایشلکدیرلر، آنجاق بو گون أسکیلشمیش سایيلیرلار؛ مـثلن: یاخـدی ، أسـرودی، ایریـشمک ، دوزاغ ، بولمـاق ، آرینماق و سایر.

او عصرین یازی اؤزللیکلرینه گؤره بیر نئچـه حالـدا اونـون دیوانینـدا سؤزلر ایکی واریانتدا قئید اولونوبلار مثلن آیروغ//آیرو ؛ نیـشه//نیجـه ؛ هچان//خجن ؛ کبی//کمـی؛ دوتـدی// دوطـدی ؛ داخـی//دخـی. بئلـه موازیلیک دیل قرامئر کاتئگوریاسی کیمی ده گؤزه چارپیر. مثلن مـاز// مز و اونون أسکی شکلی بیلمنم//بیلمزم.

آلتی یوز ایل بوندان قابـاق یـازیلمیش بـو شـعرلری راحـات اوخومـاق اوچـون اونـون لاتینجـا اوخونوشـو دا اوخوجـولارا دیـوانین موعاصـیر دیلیمیز باخیمیندان باخماغا ایمکان یارادیر.

حقیقی بیزیم أدبیاتیمیزدا ایکینجـی مولانـادیر. اونـون شـعرلرینینین دیل و باشقا جهتلرینی آراشـدیرماق اوچـوق گلجکـده چـوخ ایـشلری گؤزلمه لییک.

بورادا بیز تئهـران نوسـخه سـیندن عـلاوه باشـقا نوسـخه لـرده اولان تـرکجه شعرلری ده داخیـل ائتمیـشیک کـی، حقیقینـین هلـه لیـک بوتون شعرلرینی احاطه ائتسین. دئمک حاضیرکی نـشرده حقیقینـین آذریجه ۹۴ غزلی و ۳۵ دؤردلوگو قئید اولونوبدور.

حقیقینین حیاتی حاققینـدا مؤوجـود اولان بیلیکلـر تـضادلیدیر؛ اونـو عدالتلی بیر سولطان دئییب یازانلارین یانیندا چوخ ظولم ائدن بیریسی

اولـدوغونو یـازانلار دا وار. تـورک عـالیم مکـرمین ییـنـانچ حقیقینـین شخصیتیندن تاریخچیلردن نقل ائدرک یـازیر : « تبریزدکـی مدرسـه سینده مشهور عالیملر درس اوخوتموشلاردیر. تبریزده محتشم و مزین بیر جامی (مسجید) یاپتیران و مملکتینین موختلیف یئرلرینـی آبیـده لـر ایلـه سوسـلیین بـو حؤکومـدار عـرب شـعرینین بوتـون – بوتـون چؤکـدویو و ایـران شـعرینین ده اینحیطاطـا باشـلادیغی بـو عـصیرده شاعیرلری حمایه ائتمیش و کندیسی ده حقیقی مخلصی ایله فارسـی و تورکجه شعرلر یازمیش و بیر دیوان ووجودا گتیرمیشدی. ۱۶-نجـی عصیر سونوندا أثرلرینی یازمیش اولان فاضی نورالله المرعشی (مجالس المومنین ، پاریس ملی کیتابخانه سی ، نومره ۱۹۰) ، بـو سـلاله نـین بوتون حوکمدارلارینی شیعه بیلمکده و جهانشاهی دا اونـلار آراسـیندا سایماقدادیر»[۱۳].

اوغلو پیربوداغ شیرازدا حاکیم اولدوغو زامـان شـهر أهالیـسینه ظـولم ائدیر. حقیقی اونا قارشی گئدیر و اوغلو شهردن بغدادا قـاچیر « ۸۶۷-نجـی سـنه سـی سـون باهـارینین اورتالارینـا دوغـرو شـیرازا گیـرن جهانشاها بو شهرین أکابری "رسم قدوم" یاپاراق هدیه اولمـاق اوزره ، اوغلـو پیربـوداغین زامانینـدا ائـدینمیش اولـدوقلاری أدبیـات و شـعر کیتابلاری تقدیم ائتمیشلردی. جهانشاه، او زامان حقیقتن بیـر علـم و أدبیات مرکزی اولان شـیرازین عـالیم و شـاعیرلرینه چـوخ ائلتفـات و حؤرمت ائتمیش»[۱۴]

ألیازمـانین ایملاسـی اولـدوغو کیمـی وئریلیـر و هـئچ بیـر سـؤز دییشیلمیبدیر. بـو دا دیلیمیـزین تـاریخی باخیمـدان آراشدیرماسـینا زمین یارادیر.

---

[۱۳] . Mükrimin H. Yinanç , Cihan-Şah. İslam Ansiklopedisi, ۳-ci cilt, İstanbul,۱۹۶۳ , s. ۱۸۸

[۱۴] . Mükrimin H. Yinanç , İslam Ansiklopedisi, ۳-ci cilt, İstanbul,۱۹۶۳ , s. ۱۸۲

Ey səri zülfi to kəməndi bəla,
Pişe qədət sərvü senübər duta.
Sureyi vəşşəms yüzün ayəti,
Hərfi hidayətdə xətin vəzuha.
Xızri ləbin çeşmeyi abi həyat,
Aşiqi dilxəstəyə ləlin şəfa.
Kim ki, səri kuyuna xak olmadı,
İrmədi məqsuduna ol bivəfa.
Ahilə yandurdı məni fərqətin,
Gəl mənə vəslindən irişdi dəva.
Ayəti vəlleyl saçın şəninə,
Xalü xətin fateheyi rəbəna.
Kim ki, səni gördü bu vəchilə şah,
Oldu sənin xaki rəhində fəda.
Sidreyi boyun sərvinə qıldı sucud,
Arizi ruxsarına bədri duca.
Husnu litafətdə yüzündür qəmər,
Küfrü zəlalətdən saçın dər bəla.
Vəslinə yar oldu Həqiqi bu gün,
Həqdən irişdi ona fəzlü əta.

ای سر زلف تـو کـمند بـلا[1]

پیش قـدت سرو صنوبـر دو تا

سـوره و الشمس یوزنـک آیتـی

حـرف هـدایـتده خطنـک والضحـی

خضـر لبونک چشمهٔ آب حیـات

عـاشق دلـخستیه لعلنـک شفا

کیم که سر کوینکا خاک اولمدی

ایرمدی مقصودینه اول بی وفا

آهیله یاندوردی منی فرقتنک

گل منکا وصلنکدن ایرشدور دوا

آیت واللیل ساچنک شانـنه

خال و خطنک فاتحه ربنا

کیم که سنی گوردی بو وجهله شاه

اولدی سننک خاک رهنکده فدا

سیدره بوینک سروینه قلدی سجود

عارض رخسارنکا بدر دجا

حسن و لطافتده یوزنک در قمر

کفر و ضلالتدن ساچنک در بلا

وصلنکا یار اولدی حقیقی بو گون

حقدن ایرشدی انکا فضل و عطا

---

[1] . بو شعر دیواندا ایکینجي سیرادا گلیر و بیز صحیفه‌ني ساهمانلاماق اوچون اونو بیرینجي یئرینه قویدوق.

یارنک غمنده بولمدی هر بی صفا صفا
یارنک وفاسنی نه بیلور چکمین جفا
هرکیم که یاره عهد* وفا قیلمز ای حکیم
ادراک ایلن اولئک در عهده بیوفا
جانم نجات ایستمز از دام زلف دوست
اول حلقهٔ سلاسله تا اولدی مبتلا
عقلم ایتوردی لیلی و مجنون حکایتن
شیرین یولنده اولدی چو فرهاد جان فدا
عینمده نور لم یزل اولدی غم رخنک
ای خاک آستان تو کحل بصیر ما
هر کیم کی یاری غیرایله بیگانه بیلمدی
یارنک وصالی اولمدی اول غیره آشنا
قلدی حقیقی کعبهٔ وصلنک طوافنی
حقدن میسر اولدی انکا مروه و صفا
آیینه جهان که جمالنک در ای صنم
هر بی بصر حجن گورر اول نوردن ضیا

Yarın ğəmində bulmadı hər bisəfa səfa,
Yarın vəfasını nə bilir çəkməyən cəfa.
Hər kim ki,yarə əhdü vəfa qılmaz ey həkim,*
İdrak ilən ülaikədir əhdə bivəfa.
Canım nicat istəməz əz dami zülfi dust,
Ol həlqeyi səlasilə ta oldu mübtəla.
Əqlim itirdi Leylivü Məcnüm hekayətin,
Şirin yolunda oldu çü Fərhad canfəda.
Eynimdə nuri ləmyəzəl oldu ğəmi rüxun,
Ey xaki asitani to kəhli bəsiri ma.
Hər kim ki, yarı ğeyr ilə biganə bilmədi,
Yarın vüsalı olmadı ol ğeyrə aşina.
Qıldı Həqiqi kəbeyi vəslin təvafını,
Həqdən müyəssər oldu ona Mərvəvü Səfa.
Ayineyi cahan ki, cəmalındır, ey sənəm,
Hər bibəsər haçan görər ol nurdən ziya?

---

* لندن نوسخه سینده « عهده » London nüsxəsində əhdə

تا سنبلن گوتوردی جمالندن آفتاب
دوطدی جهانی فتنه‌لو آلندن آفتاب
دور قمرده دوشدی سحابه فراقلن
تابنده حسن نقش هلالندن آفتاب
چکدی ساچی کمندنه خال رخی منی
اوکرندی فتنه فتنه‌لو خالندن آفتاب
محو اولدو گلستان وصالنده تا ابد
تا رنگ و بو برد رخ آلندن آفتاب
جام لبن میندن ایچوردی حقیقییه
آب حیاتی لعل زلالندن آفتاب

Ta sünbülün götürdü cəmalından aftab,
Tutdu cahanı fitnəli alından aftab.
Dövri qəmərdə düşdü səhabə fəraqilən,
Tabində hüsni nəqşi hilalından aftab.
Çəkdi saçı kəmədinə xali rüxi məni.
Öyrəndi fitnə fitnəli xalından aftab.
Məhv oldu gülüstan vüsalında ta əbəd,
Ta rəngü bu bərəd rüxi alından aftab.
Cami ləbin meyindən içirdi Həqiqiyə,
Abi həyatı ləli zülalından aftab.

Ey xətü xalın kamalullah♣, həm ümmül kitab♦,
Həsrətindən dideyi üşşaq olubdur ğərqi ab.
Ğəmzeyi çeşmin işarət qıldı əhli vədəyə,
Məsti eşqin şol cəhətdən qalmadı eynində xab.
Leylətül-əsravü vəlleyl endi zülfün şəninə,
Ayəti Vəşşəmsə vəchindən göründü aftab.
Ey mənim eynimdə rüxsarın çü nuri ləmyəzəl,
Vey saçın hər tarəsindən aləm üzrə mişki nab.
Aləmi qıldı münvvər nuri vəchin ta əbəd,
Lövhi məhfuzində rövşən oldu həm yövmül hesab.
Zarü bimarəm əgər təşrif qılsan bir nəzər,
Xaki rahi məqdəmində səpmişem gözdən gülab.
Ol xətü xalü rüxü zülfün hesabın qılmağa,
Hasebi eşqə müyəssər oldu həqdən ehtisab.
Surətin ayineyi eşq oldu əhli aləmə,
Lövhi məhfuzində Quran♠ oldu hikmətdən kitab.
Ey Həqiqi, başını qoy ol cənabi həzrətə,
Qoymagil əldən vüsali damənin əz hiç bab

♣ London nüsxəsində kəlamullah.
♦ Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.
♠ London nüsxəsində furqan.

ای خط و خالنک کمال♣ الله هم امّ الکتاب♦
حسرتنکدن دیدهٔ عشّاق اولپدر غرق آب
غمزهٔ چشمنک اشارت قلدی اهل وعدیه
مست عشقنک شول جهتدن قالمدی عیننده خواب
لیله الاسری و واللیل اندی زلفنک شاننه
آیه والشمسه وجهینکدن گورندی آفتاب
ای منم عینمده رخسارنک چو نور لم یزل
وی ساچنک هر تاره‌سندن عالم ازره مشک ناب
عالمی قلدی منوّر نور وجهنک تا ابد
لوح محفوظنکده روشن اولدی هم یوم الحساب
زار و بیمارم اگر تشریف قلسنک بیر نظر
خاک راه مقدمنکده سپمِشم گوزدن گلاب
اول خط و خال و رخ و زلفنک حسابین قلمغه
حاسب عشقه میّسر اولدی حقدن احتساب
صورتنک آیینهٔ عشق اولدی اهل عالمه
لوح محفوظنکده قرآن♠ اولدی حکمتدن کتاب
ای حقیقی باشنکی قوی اول جناب حضرته
قویمکل الدن وصال دامنن از هیچ باب

♣ لندن نوسخه سینده «کلام».
♦ بو شعر نسیمي دیوانیندا (۱-نجي جیلد ، ص.٦٥) اونا منسوب اولونوبدور.
♠ لندن نوسخه سینده «فرقان»

گل گل♣ که دوشدی سوز فراقنکده جانه تاب
خلوت سرای کونکلمی هجر ایلدی خراب
یارب نه درد ایمش غم عشقنک که عاشقه
نه فکری دینی♠ قویدی و نه فکر دِین و خواب
بی پرتو جمال تو ای نور چشم دل
مانند ذرّه اولمشم از عشق آفتاب
یارب وجود ذاتنکه وصل اولمسون گزند
اولسون نصیب دوشمنکا تاب و اضطراب
تا شانه قلدی طرّهٔ عنبرفشان ساچنک
افلاکیان عشق از آن توتدی مشک ناب
اولدی اسیر دانهٔ خالنکده جان قوشی
دایم♦ بلایه صالدی منی زلف پیچ و تاب
گل گل که سندن ایرو حقیقی بسوز دل
چکدی فراق آتش هجرنکده بس عذاب

Gəl gəl ki, düşdü suzi fəraqında cana tab,
Xəlvətsərayi könlümü hicr eylədi xərab.
Yarəb, nə dərd imiş ğemi eşqin ki, aşiqə,
Nə fikri dünya qoyduvü nə fikri deynü xab.
Bipərtovi cəmalı to, ey nuri çişmü dil,
Manəndi zərrə olmuşam əz eşqi aftab.
Yarəb, vücudi zatına vəsl olmasın gəzənd,
Olsun nəsib düşmənə tabü iztirab.
Ta şanə qıldı türreyi ənbər fəşan saçın,
Əflakiyani eşq əz an tudu mişki nab.
Oldu əsir daneyi xalında can quşu,
Dayim bəlaya saldı məni zülfi piçü tab.
Gəl-gəl ki, səndən ayrı Həqiqi be suzi dil,
Çəkdi fəraqi atəşi hicrində bəs əzab.

♣ لندن نوسخه سینده «کلکیل» اوخونوب — London nəşrində gəlgil oxunulubdur
♠ لندن نوسخه سینده «دینی» — London nüsxəsində dini
♦ لندن نوسخه سینده «دامی» — London nüsxəsində dami

حقیقت اهلنه محراب اولنده اول مسجود
عجب نباشد اگر قلسه اهل عشق سجود
جنابنه یوزنی صالدی بو شکسته کونکل
ایرشدی سایهٔ اقباله طالع مسعود
نی شکسته فغان ایلدی ز غمزهٔ عشق
رباب و چنگ و دفه شاهد اولدی نغمهٔ عود
وصال جنتینه واصل اولمدی زاهد
ز کوی دولت و اقبال اولدی چون مردود
او دم که لیله الاسرایه واصل اولدی رسول
عروج منزل افلاکه قلدی اهل صعود♠
حقیقت اهلینه چون قبله‌در وصال رخی
تراب خلقنه قلدیلر ازلده سجود♣
حقیقی سجدهٔ رویت قلور ز روز ازل
از انک ساجدم اول وجه من تویی مسجود

Həqiqət əhlinə mehrab olanda ol məscud,
Əcəb nəbaşəd əgər qılsa əhli eşq sucud.
Cənabına yüzü saldı bu şikəstə könül,
İrişdi sayeyi iqbalə taleyi məsud.
Neyi şikəstə fəğan eylədi ze ğəmzeyi eşq,
Rübabü çəngü dəfə şahid oldu nəğmeyi ud.
Vüsali cənnətinə vasil olmadı zahid,
Ze kuyi dövlətü iqbal oldu çün mərdud.
O dəm ki, Leylətül əsrayə vasil oldu Rəsul,
Üruci mənzili əflakə qıldı əhli suud.
Həqiqət əhlinə çün qiblədir vüsali rüxü,
Turabi xülqünə qıldılar əzəldə sucud.
Həqiqi səcdeyi ruyət qılır ze ruzi əzəl,
Əz an ke sacidəm ol vəchə mən toyi məscud.

♠ لندن نوسخه سینده «سجود دور» — London nüsxəsində sucuddur

♣ بو بیت لندن نوسخه سینده یوخدور — London nüsxəsində bu beyt yoxdur

جانمی یاندوردی شوقنک ای دلارامم مدد♣
قالمدی صبرم توکندی گتدی آرامم مدد
خیلی ایام اُلدی کیم دوشدم وصالنکدن ایراغ
ای وصالی روضهٔ رضوان ایامم مدد
اسرودی جانم لبنک سرچشمه‌سندن لایزال
گل کاننک♠ خمرنده‌در سرچشمهٔ جامم مدد
گرچه بد نام اولمشم عشقنکدن ای دلبر سننک
موندان آیروغ اولمسون عالمده بد نامم مدد
قامتندن قوپدی حشری عابد سجاده‌ننک
رحمته آندن ایرشدی اهل اسلامم مدد
یخدی جان ملکن حقیقی ز آرزوی دام زلف
ای ساچی دامندا خالی دانهٔ دامم مدد

Canımı yandırdı şövqün , ey dilaramım, mədəd,
Qalmadı səbrim, tükəndi , getdi aramım, mədəd.
Xeyli əyyam oldu kim,düşdüm vüsalından irağ,
Ey vüsalı rövzeyi rizvani əyyamım, mədəd.
Əsrüdi canım ləbim sərceşməsindən layəzal,
Gəl kanın xəmrindədir sərçeşmeyi camım, mədəd.
Gərçi bədnam olmuşam eşqindən, ey dilbər sənin,
Mundan ayruğ olmasın aləmdə bədnamım, mədəd.
Qamətindən qopdu həşri abidi səccadənin,
Rəhmətə andan irişdi əhli islamım, mədəd.
Yaxdı can mülkün Həqiqi zarizuyi dami zülf,
Ey saçı damında xalı daneyi damım, mədəd.

♣ بو شعر تهران نوسخه سینده یوخدور Bu şer Tehran nüsxəsində yoxdur
♠ کي اونون دئمکدیر Ki onun deməkdir

لعلنکده جام خمر مصفا دگلمی در؟
خالنک سیاهی حبه السودا دگلمی در؟
مهر رخنک که دور قمردن خبر ویرور
عرش سماده نور معلا دگلمی در؟
چون شاهد حقیقی سن اولدنک بو عرصه‌ده
روح القدس بو حکمته گویا دگلمی در؟
حاجت دگل مشاطه کمال جمالنکه
شول صورت خجسته مهیا دگلمی در؟
خضر دلم که کوثر جام لبنکده‌در
از چشمهٔ حیات تو احیا دگلمی در؟
هر بیخبر که بیلمدی قدر وصالنکی
حیوان دَن اول اولئک ادنا دگلمی در؟
پیوسته توکدی قانمی مستانه گوزلرنک
شول کافر از ایمان مبرّا دگلمی در؟
مرآت لامکان که رخنک آفتابی در
عارف قاتندا منظر اعلی دگلمی در؟
جان ویردی چون حقیقی بهای وصالنکه
وصلنکدن اول فقیره تمنا دگلمی در؟

Ləlində cam xəmri müsəfa deyilmidir?
Xalın siyahi hübbəti sevda deyilmidir?
Mehri rüxun ki, dövri qəmərdən xəbər verir,
Ərşi səmadə nuri müəlla deyilmidir?
Çün şahidi həqiqi sən oldun bu ərsədə,
Rühülqüdüs bu hikmətə guya deyilmidir?
Hacət deyil məşatə kəmali cəmalına,
Şol surəti xocəstə mühəyya deyilmidir?
Xızri diləm ki, kövsəri camı ləbindədir,
Əz çeşmeyi həyati to əhya deyilmidir?
Hər bixəbər ki, bilmədi qədri vüsalını,
Heyvandan ol ülaik ədna deyilmidir?
Peyvəstə tökdü qanımı məstanə gözlərin,
Şol kafər əz iman mübərra deyilmidir?
Merati laməkan ki, rüxün afitabidir,
Arif qatında mənzəri əla deyilmidir?
Can verdi çün Həqiqi bəhayi vüsalına,
Vəslindən ol fəqirə təmənna deyilmidir?

Həşrin hesabını nə bilir cəhli bixəbər,
Gəl, həşrə qaıl ol ki, bu hikmətdədir nəzər.
Ey tacü taxtə, mülki cahana həris olan,
Arif qatında tapmadı miqdar simü zər.
Zahid eşitdi nəfxeyi surun sədasını,
Yovmül qiyamət♣oldu, nə yatırsan, ey bəşər?
Düşdü cahana fitnəvü aşubü ğülğülə,
Ta sünbülün götürdü cəmalından ol qəmər.
Aşüftə zülfü xalü rüxi, çeşmü ğəmzəsi,
Qıldı məni itab ilə az xiş bixəbər.
İdrakü fəhm irişmədi ovsafı zatına,
Qıldım hədisi ləlin onun şərhi müxtəsər.
Əndişənin gümanını tərk eylə, fariğ ol,
Peymanə dolmayınca tökülməz xun az cigər.
Ey cənnətin şərabi ləbi yardir deyən,
Canım həyati ləmyəzəl ol yardən dilər.
Fəzli ilahidən iki aləmdə şah imiş,
Ol əhli dil ki, yar ilə ömrünü sərf edər.
Verdi Həqiqi canını yarın vüsalına,
Tərki əlayiq etdivü kuyində qoydu sər

♣ Sayir nüsxələrdə yovmül qiyamədir.

حشرنک حسابنی نه بیلور جهل بی خبر
گل حشره قایل اول که بو حکمتده‌در نظر
ای تاج و تخته ملک جهانه حریص اولن
عارف قاتندا طاپمدی مقدار سیم و زر
زاهد ایشتدی نفخهٔ صورنک صداسینی
یوم القیامت* اولدی نه یاتورسن ای بشر
دوشدو جهانه فتنه و آشوب و غلغله
تا سنبلن گتوردی جمالندن اول قمر
آشفته زلف و خال و رخی چشم و غمزه‌سی
قلدی منی عتاب ایله از خویش بیخبر
ادراک و فهم ایرشمدی اوصاف ذاتینه
قلدم حدیث لعلن اننک شرح مختصر
اندیشه‌ننک گماننی ترک ایله فارغ اول
پیمانه طولمینجه توکلمز خون ازجگر
ای جنتنک شرابی لب یاردُر دِیَن
جانم حیات لم‌یزل اول یاردن دیلر
فضل الهیدن ایکی عالمده شاه‌یمش
اول اهل دل که یار ایله عمرینی صرف ایدر
ویردی حقیقی جاننی یارنک وصالنه
ترک علائق ایتدی و کوینده قویدی سر

---

* لندن نوسخه سینده «یوم القیامه»- دیر.

زلف و رخنک که شام و سحردن خبر ویرور
آننک مشامی روح بشردن خبر ویرور
شیرین لبنک حدیثی که جانبخش عالم است
شکر ایلرم که شهد و شکردن خبر ویرور
موسی چو بیلدی رمز انا اللهی عارفه
آنَست و ناری طور و شجردن خبر ویرور
هر کیم که گوردی شوق رخنک آفتابنی
اهل بصیره نور بصردن خبر ویرور
پیوسته توکدی قانمی مستانه چشم ایله
اول غمزه‌لر که خون جگردن خبر ویرور
میدان ایچنده اولمدی اسفندیار عشق
هر بی‌هنر که عیب و هنردن خبر ویرور
کشف ایلدی حقیقی حدیثنک بیاننی
اول در فشانی گور که گهردن خبر ویرور
هر کیم که گوردی وجهنکی ای خسرو خوبان♣
اهل جهانه دور قمردن خبر ویرور

Zülfü rüxun ki, şamü səhər xəbər verür,
Anın məşami ruhi bəşərdən xəbər verür.
Şirin ləbin hədisi ki, canbəxşi aləməst,
Şükr eylərəm ki, şəhdü şəkərdən xəbər verür.
Musa çü bildi rəmzi ənəllahi arifə,
Anəstu narı Turü şəcərdən xəbər verür.
Hər kim ki, gördü şövqi rüxün aftabını,
Əhli bəsirə nurı bəsərdən xəbər verür.
Peyvəstə tökdü qanımı məstanə çeşmilə,
Ol ğəmzələr ki , xuni cigərdən xəbər verür.
Meydan içində olmadı İsfəndiyari eşq,
Hər bihünər ki, eybü hünərdən xəbər verür.
Kəşf eylədi Həqiqi hədisin bəyanını,
Ol dür fəşani gör ki, gühərdən xəbər verür.
Hər kim ki, gördü vəchini ey xosrovi xuban♣ ,
Əhli cəhanə dövri qəmərdən xəbər verür.

♣ لندن نوسخه سینده «زمان»- دیر London nüsxəsində zəmandir

نفخهٔ لعلنک ای صنم روح و روانه طعن ایدر
خوبلغ ایچنده صورتنک حور جنانه طعن ایدر
وصل رخنک بهاسننک بیعنه جان ویرور♣ کونکل
جنت وصلنک ایستین کون و مکانه طعن ایدر
خاک درنکده باشنی کیم که صالور ایاغنکا
تاج ایله تخت خسروه ملک جهانه طعن ایدر
حسن رخنک ملاحتی شرح و بیانه صیغمدی
گل کیم آننک ملاحتی شرح و بیانه طعن ایدر
غمزه‌لرنک خدنگنی چکدی کمانه قاشلرنک
باغرمی غمزه یاره لو قلدی کمانه طعن ایدر
فرده وجود مطلق اول گوهر لامکانی بیل
کیم که یقین بیلور آنی ظن و گمانه طعن ایدر
سود و زیان و کثرته دوشمه مقید اولمه کیم
وحدته محو اولن کونکل سود و زیانه طعن ایدر
زلف و رخنک حقیقیه کفر و ایمانمش یقین
کفری ایمان بیلن کونکل پیر مغانه طعن ایدر

Nəfxeyi ləlin ey sənəm ruh u rəvanə tən edər,
Xubliq içində surətin huri cinanə tən edər.
Vəsli rüxün bəhasının beyinə can verür♣ gönül,
Cənnəti vəslin istəyən kövnü məkanə tən edər.
Xakı dərində başını kim ki, salır ayağına,
Tac ilə təxti xosrovə, mülki cahanə tən edər.
Hüsnü rüxün məlahəti şerhü bəyanə sığmadı,
Gəl kim,anın məlahəti şerhü bəyanə tən edər.
Ğəmzələrin xədəngini çəkdi kəmanə qaşların,
Bağrımı ğəmzə yarlu qıldı, kəmanə tən edər.
Fərdə vücudi mütleq ol, kövhəri laməkanı bil,
Kim ki, yəqin bilir onu zənnü gümanə tən edər.
Sudü ziyanü kəsrətə düşmə, müqəyyəd olma kim,
Vəhdətə məhv olan könül sudü ziyanə tən edər.
Zülfü rüxün Həqiqiyə küfrü iman imiş yəqin,
Kürfri iman bilən könül, piri Muğanə tən edər.

♣ لندن نوسخه سینده« ویرر»

London nüsxəsində verərdir

ای رخنک گلزار جنّت ساچلرنک ریحانی در•
وی دوداغنک آب حیوان جان آننک حیرانی در
صورتنک لوحنده حق چکمش کمال قدرتن
احسن صورت کمالی قدرت رحمانی در
گل که یاندردی منی حسرتده عشقینک آتشی
شربت وصلنک بو درد خسته‌ننک درمانی در♣
مومنک قلبنده‌در اهل یقیننک روزنی♠
عارف اسرار حق شول روضه‌ننک رضوانی در
ای که حسنک در کمال قدرت رحمانمز
قدرت رحمانه حیران اولمین شیطانی در
دلبرنک یولنده گر اهلیسن اولگل جانفدا
ترک جان ایتمک بو یولده عمر جاودانی در
ای حقیقی حق سنکا فضلدن اولدی♦ مستعان
شکر ایّام وصال و رحمت ربّانی در

Ey rüxün gülzari cənnət, saçların reyhanidir •,
Vey dodağın abi heyvan, can onun heyranidir.
Surətin lövhində həq çəkmış kəmali qüdrətin,
Əhsəni surət kəmali qüdrəti rəhmanidir.
Gəl ki, yandırdı məni həsrətdə eşqin atəsi,
Şərbəti vəslin bu dərdi xəstənin dərmanidir ♣.
Möminin qəlbindədir əhli yəqinin rövzəni ♠ ,
Arifi əsrari həq şol rövzənin rizvanidir.
Ey ki, hüsnündür kəmali qüdrəti rəhmanimiz,
Qüdrəti rəhmanə heyran olmayan şeytanidir.
Dilbərin yolunda gər əhlisən olgil canfəda,
Tərki can etmək bu yolda ömri cavidanidir.
Ey Həqiqi, həq sənə fəzldən oldu ♦ müstəan,
Şükri əyyami vüsalü rəhməti rəbbanidir.

• بو شعر نسیمي دیوانیندا (۳-نجو جیلد، ص.٤٧) اونا منسوب اولونوبدور.
Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

♣ تهران نوسخه سینده بو بیت یوخدور — Tehran nüsxəsində bu beyt yoxdur

♠ لندن نوسخه سینده « روضه سي» — London nüsxəsində rövzəsidir

♦ لندن نوسخه سینده « اولدي ز فضلش» — London nüsxəsində oldu ze fəzləş dir

ای ملک سیما نه جان سن وجه رحمان سنده‌در♣
مصحف حق در جمالنک شرح برهان سنده‌در
نافذ الجاوید از آنست امر تو در عالمی
جملهٔ عالم سننک راینجه فرمان سنده‌در
کنت کنزنک پرده‌سی رفع اولدی حقدن وجهنکا
چون بو رازنک محرمیسن گنج پنهان سنده‌در
درد بی درمانمه وصلنکدن آیرو چاره یوخ
ای طبیب دردمندان گل که درمان سنده‌در
کوثرنک خاصیتی لعلنکده‌در من خضروار
زندهٔ جاوید از آنم کاب حیوان سنده‌در
دنیی و عقبی سننک کامنجه سن در کام دل
ای سلیمان دو عالم گل که دوران سنده‌در
گل کرم بیرله نظر قلگل حقیقی حالنه
صاحب خلق و کرم سن لطف و احسان سنده‌در

Ey mələk sima,nə cansan, vəchi rəhman səndədir♣,
Müshəfi həqdir cəmalın, şərhi bürhan səndədir.
Nafizül cavid əz anəst əmri to dər aləmi,
Cümleyi aləm sənin rəyincə, fərman səndədir.
Künti kənzin pərdəsi rəf oldu həqdən vəchinə,
Çün bu razın məhrəmisən, gənci pünhan səndədir.
Dərdi bidərmanıma vəslindən ayrı çarə yox,
Ey təbibi dərdiməndan, gəl ki, dərman səndədir.
Kövsərin xasiyyəti ləlindədir, mən Xızrvar,
Zindeyi cavid əz anəm kabe heyvan səndədir.
Dünyavü üqba sənin kamınca, sən dər kami dil,
Ey Süleymani do aləm gəl ki, dövran səndədir.
Gəl kərəm birlə nəzər qılgil Həqiqi halına,
Sahibi xülqü kərəmsən, lütfü ehsan səndədir.

♣ بو شعر نسیمي دیوانیندا (۳-نجو جیلد، ص.۲۲۹) اونا منسوب اولونوبدور.
Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

عشق جانان هر کیمنک جاننده که تاثیر ایدر
جاننی جانانه قربان قلمسه تقصیر ایدر
هر مفسر کیم آننک وجهنده گوردی آیتن
هم سجود ایلر انکا هم عالمه تفسیر ایدر
جاویدانی دولت منصور بولمز یاردن
عشق میداننده هرکیم یاریلن تزویر ایدر
آیهٔ رخسارنی معشوقه‌ننک حرفا بحرف
کاتب قدرت به لوح جان و دل تحریر ایدر
خواب ایچنده گورمیشم بیر ماه♣ گل رخساری کیم
یوسف مصری اونی یوز وجهلن تعبیر ایدر
چون حقیقیننک ایکی عالمده سنسن دلبری
جاننی یولنکده قربان قلمسه تقصیر ایدر

Eşq canan hər kimin canında ki, təsir edər,
Canını canana qurban qılmasa təqsir edər.
Hə müfəsir kim onun vəchində gördü ayətin,
Həm sucud eylər ona həm aləmə təfsir edər.
Cavıdanı dövləti mənsur bulmaz yardan,
Eşq meydanında hər kim yarılən təzvir edər.
Ayəti ruxsarını məşüqənin hərfən be hərf,
Katıbı qudrət be lövhi can u dil təhrir edər.
Xab içində görmüşəm bir mah ♣ gülruxsarı kim,
Yusufu Misri onu yüz vəchilən təbir edər.
Çün Həqiqinin iki aləmdə sənsən dilbəri,
Canını yolunda qurban qılmasa təqsir edər.

♣ لندن نوسخه سینده «یار»

London nüsxəsində yar

تا که حُسننک صورتی معنی ده دعوی گورسدر
عارضنک نوری جلالنکدن♣ تجلی گورسدر
سجده و ایمان گتورمز قاشلرنک محرابنه
هر بصیرتسز کیم آنی طاق کسری گورسدر
سورۀ سبع المثانی خطّ رخسارنکده در
شول جهتدن صورتنک هر شی ده معنی گورسدر
ای مسیحا دم سننک انفاس لعلنک عاشقه
نفخۀ روح القدس دن نطق عیسی گورسدر
کیم که عاشق♠ اولمز اول معشوقه ننک رخسارنه
اهل دل اول مشرکی معنیده اعمی گورسدر
زهدا گل سجده قل شول صورت رحمانه سن
سجدۀ حقی سنکا چون اهل تقوی گورسدر
چون حقیقی هر که منصور اولدی در میدان عشق
بر سر دار محبّت شرط دعوی گورسدر

Ta ki, hüsnün surəti mənidə dəva görsədir,
Arizin nurı cəlalından ♣ təcəlla görsedir.
Səcdəvü iman gətirməz qaşların mihrabına,
Hər bəsirətsiz kim anı Taqı Kəsra görsədir.
Sureyi səbül məsani xətti rüxsarındadır,
Şol cəhətdən surətin hər şeydə məna görsədir.
Ey Məsihadəm, sənin ənfasi ləlin, aşiqə,
Nəfxeyi rühülqüdüsdən nitqi İsa görsedir.
Kim ki, aşiq ♠ olmaz ol məsuqənin ruxsarına,
Əhli dil ol müşriki mənidə əma görsədir.
Zahida,gəl səcdə qil şol surəti rəhmanə sən,
Səcdeyi həqqi sənə çün əhli təqva görsədir.
Çün Həqiqi hər ki, Mənsur oldu dər meydani eşq,
Bər səri dari məhəbbət şerti dəva görsedir.

♣ لندن نوسخه سینده « جمالنکدان » London nüsxəsində cəmalından
♠ لندن نوسخه سینده « حیران » London nüsxəsində heyran

Nəfxeyi ruhülqüdüs ləli şəkərbarındadır,
Nükteyi elmi lədunna şərhi göftarındadır.
Qibləvü imandir ol peyvəstə əbrun aləmə,
Fitneyi axır zaman şol eyni məkkarındadır.
Xilqətin şənində münzəldir hürufi kayinat,
Ayəti səbülməsani xətti rüxsarındadır.
Kövsərin cami meyi ləlində rövşəndir sənin,
Məsti eşqin rövnəqi şol xəmri xummarındadır.
Damunun narında izhar oldu hicrin illəti,
Cənnətin zövqü hüzuri vəsli gülzarındadır♣.
Huriyi rizvanə tən eylər cəmalın hüsnilə,
Sidrətül məva sucudı qədrü rəftarındadır.
Aləmı ğəddarı çün darül fəna bildi könül,
Dəviyi Mənsur ənəlhəqdən səridarındadır.
Ey xətü xalın kəlamüllah, ləlin səlsəbil,
Lövhi məhfüzin hürufi nəqşi didarındadır.
Ey Həqiqi, həq sənə fəzlindən oldu müstəan,
Elmü tövhidin bəyani kəşfi əsrarındadır.

♣ Bu beyt Tehran nüsxəsində yoxdur.

نفخهٔ روح القدس لعل شکربارنکده در
نکتهٔ علم لدنّی شرح گفتارنکده در
قبله و ایمان در اول پیوسته ابرونک عالمه
فتنهٔ آخر زمان شول عین مکارنکده در
خلقتنک شاننده منزل در حروف کاینات
آیهٔ سبع المثانی خط رخسارنکده در
کوثرنک جام می لعلنکده روشن در سننک
مست عشقنک رونقی شول خمر خمّارنکده در
دامونک نارنده اظهار اولدی هجرین علتی
جنتنک ذوق و حضوری وصل گلزارنکده در*
حوری رضوانه طعن ایلر جمالنک حسنله
سدرالماوی سجودی قدر و رفتارنکده در
عالم غدّاری چون دارالفنا بیلدی کونکل
دعوی منصور انا لحقدن سر دارنکده در
ای خط و خالنک کلام الله لعلنک سلسبیل
لوح محفوظنک حروفی نقش دیدارنکده در
ای حقیقی حق سنکا فضلندن اولدی مستعان
علم و توحیدنک بیانی کشف اسرارنکده در

---

* بو بیت تهران نوسخه سینده یوخدور.

علم توحید اول لبنک نطق در افشاننده در
وحدتنک جام می لعل درخشاننده در
لوح محفوظنده در یوم الحسابی عاشقنک
حلقهٔ دام بلا زلف پریشاننده در
صورتی انا فتحنادر خطی ام الکتاب
آیت فتحا مبین اول صورتنک شاننده در
لایزالی مست عشق اولدم من اول معنیده کیم
کوثرنک♣ خمری دوداغی آب حیواننده در
صورتی والشمس واللیل عنبرافشان زلفی در
عاشقنک دینی مگر کیم کفر و ایماننده در
لبلری جامنده در عینا تسمی سلسبیل
قاب قوسین اول جمالنک عرش رحماننده در
چون حقیقی اول لب و دندانی شرح ایلر بو گون
گوهرنک خاصیتی نطق در فشاننده در

Elmi tovhid ol ləbin nitqi dürəfşanındadır,
Vəhdətin cami meyi ləli dirəxşanındadır.
Lövhi məhfüzindədır yomül hesabı aşiqin,
Həlqeyi dami bəla zülfi pərişanındadır,
Sürəti inna fətəhnadır, xəti ümmül kitab,
Ayəti fəthən mübin ol surətin şanındadır.
Layəzali məsti eşq oldum mən ol mənidə kim,
Kövsərin ♣ xəmri dudağı abi heyvanındadır.
Surərti vəşşəms, vəlleyl ənbərəfşan zülfüdür,
Aşiqin dini məgər kim, küfrü imanındadır.
Ləbləri camındadır eyni təsəmma səlsəbil,
Qabi qövseyn ol cəmalın ərşi rəhmanındadır.
Çün Həqiqi ol ləbü dəndanı şərh eylər bu gün,
Gövhərin xasiyyəti nitqi dürəfşanındadır.

♣ لندن نوسخه سینده « نگارینک »

London nüsxəsində nigarın

ای خطنک سبع المثانی وی لبنک مآء طهُور•
وی جمالنک پرتوندن سربسر عالمده نور
وعدۀ یوم القیامت♣ ایندی حقدن عارفه
روز حشر اولدی چالندی وحدتنک کوینده صور
خلقتک شاننده منزل اولدی امر اسجدوا
بیلمدی شیطان بو امرنک شکرنی اولدی غیور
شبهه‌دن آرین ز♠اهل ساجد اول ایمانه گل
لیس مقبول الصلوه القلب الا بالحضور
خاطر جمعیت اول زلف پریشانکده در
شول جهتدن اولمدی خال خیالنک از خطور
عینمه گلمز جهاننک ظلمتی بیر شمجه♦
چون ایکی عالمده سن سن مردم عینمده نور
حمدلله کیم حقیقی بولدی یارنک وصلنی
فارغ البال از غم دینی و من یوم النشور

Ey xətin səbül məsani, vey ləbin mai təhur,
Vey cəmalın pərtövündən sərbəsər aləmdə nur.
Vədeyi yomül qiyamət ♣ endi həqdən arifə,
Ruzi həşr oldu, çalındı vəhdətin kuyində sur.
Xilqətin şənində münzəl oldu əmri üscüdu.
Bilmədi şeytan bu əmrin şükrini, oldu ğəyur.
Şübhədən arın ze ♠ əhli sacid ol, imanə gəl,
Leysə məqbuləl səlatül qəlb illa bilhüzur.
Xatiri cəmiyyət ol zülfi pərişanindadır,
Şol cəhətdən olmadı xali xəyalın əz xütur.
Eynimə gəlməz cahanın zülməti bir şəmcə ♦,
Çün iki aləmdə sənsən mərdümi eynimdə nur.
Həmdi lillah kim, Həqiqi buldu yarın vəslini,
Fariğül bal əz ğəmi dünyavü min yomin nüşur

• بو شعر نسیمي دیوانیندا (۳-نجو جیلد، ص.۲۲) اونا منسوب اولونوبدور.
Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

♣ لندن نوسخه سینده « القیامه » London nüsxəsində yomül qiyamə

♠ لندن نوسخه سینده « و » London nüsxəsində arınü

♦ لندن نوسخه سینده « شمعجه » London nüsxəsində şəm'cə

Kövsərin eyni ləbin camı şərabindanmidir?
Sureyi rəhman rüxün hərfi kitabindanmidir?
Türreyi ənbərfəşan zülfün nəsimi aləmə,
Sərbəsər qıldı müəttər,mişki nabindanmidir?
Cənnətin bağında sidrə şol qəd u balamidir?
Aftabi ləmyəzəl ol hüsni tabindanmidir?
Hübbətüsevdamidir, ya daneyi xali rüxün?
Fitnəli eyninmidir, ya fitnə xabindanmidir?
Abi heyvan çeşmi ləlindən istər Xızri can,
Məsti eşqin badəsi ol eynin abindanmidir?
Lalənin qəlbində dağ əz ahi dil şeydamidır?
Kövsərin camında mey vəslin şərabindanmidir?
Könlümün deycuri ol ənbərfəşan zülfünmidir?
Eynimin nuri cəmalin afitabindanmidir?
Tökdü bağrım qanın ol nazü itabü ğəmzələr♣,
Həşrü nəşr ol ğəmzənin♠ nazü itabinanmidir?
Vacib olmuşdur Həqiqi, səcdə qılmaq vəchinə,
Vəbədu allah vəchə vəcheyin xitabındanmıdır?

♣ London nüsxəsində işvə birlə bağrımı yandırdı vəslin firqəti
♠ London nüsxəsində işvənin

کوثرنک عینی لبنک جام شرابندن میدر؟
سورۀ رحمن رخنک حرف کتابندن میدر؟
طرۀ عنبرفشان زلفنک نسیمی عالمه
سر بسر قلدی معطر مشک نابندن میدر؟
جنتنک باغنده سدره شول قد و بالا میدر؟
آفتاب لم یزل اول حسن تابندن میدر؟
حبه السودامی در یا دانۀ خال رخنک ؟
فتنه‌لو عیننک میدر یا فتنه خوابندن میدر؟
آب حیوان چشمۀ لعلنکدن ایستر خضر جان
مست عشقنک باده‌سی اول عیننک آبندن میدر؟
لاله‌ننک قلبنده داغ از آه دل شیدا میدر؟
کوثرنک جامنده می وصلنک شرابندن میدر؟
کونکلمنک دیجوری اول عنبر فشان زلفنک میدر؟
عینمنک نوری جمالنک آفتابندن میدر؟
توکدی باغرم قانین اول ناز و عتاب و غمزه‌لر♣
حشر و نشر اول غمزه‌ننک♠ ناز و عتابندن میدر؟
واجب اولمشدر حقیقی سجده قلمغ وجهنکا
واعبدو الله وجه وجهنک خطابندن میدر؟

♣ لندن نوسخه سینده «عشوه بیرله باغرمي یاندوردي وصلنک فرغتي»
♠ لندن نوسخه سینده «عشوه ننک»

قدنک کبی♣ ستوده صنوبر نه یرده وار؟
عنبرفشان ساچنک کمی عنبر نه یرده وار؟
خط رخنک که آیه♠ سبع المثانمش
بو حسن ایله خطوط معنبر نه یرده وار؟
شیرین لبنک حدیثی که جانبخش عالمست
بیر♦ ذوق ایچنده قند مکرر نه یرده وار؟
اول قلم که قدرتی چکمش جمالنکا
نقاش خبره بیله مصور نه یرده وار؟
حسننک بیاضنه دوشلی دانهٔ سیاه
بو طور ایچنده خال مدوّر نه یرده وار؟
باده صباده نکهت و زلف و رخنک کمی
رضوان ایچنده بوی معطر نه یرده وار؟
ایچدی حقیقی جام لبنک خمرنی دیدی
بو طور ایچنده ماء مطهر نه یرده وار؟

Qəddin kibi ♣ situdə sənubər nə yerdə var?
Ənbər fəşan saçın kimi ənbər nə yerdə var?
Xətti rüxün ki, ayəti ♠ səbül məsan imiş,
Bu hüsn ilə xütuti müənbər nə yerdə var?
Şirin ləbin hədisi ki, canbəxşi aləməst,
Bir ♦ zövq içində qəndi mükərrər nə yerdə var?
Əvvəl qələm ki, qüdrəti çəkmiş cəmalına,
Nəqqaşi Çində beylə müssəvər nə yerdə var?
Hüsnün bəyazina düşəli daneyi siyah,
Bu tövr içində xali müdəvvər nə yerdə var?
Badi səbadə nikhəti zülfü rüxün kimi,
Rizvan içində buyi müəttər nə yerdə var?
İçdi Həqiqi cami ləbin xəmrini, dedi:
Bu tövr içində mai müəttər nə yerdə var?

♣ لندن نوسخه سینده «کیمي» — London nüsxəsində kimi
♠ لندن نوسخه سینده «آیه ي» — London nüsxəsində ayeyi
♦ لندن نوسخه سینده «بو» — London nüsxəsində bu

بو نه حسن جانفزادر کیم انکا نظیر یوخدر♠
کیم آننک کمی جهانده داخی دلپذیر یوخدر
بو جمال و خط و خاله نیجه باخسون اول نظرسیز
کیم اننک بصیرتنده نظر بصیر یوخدر
بو کمان و قوسه قارشو هدف ایلرم بو جانی
نیشه کیم خدنگ غمزنک کمی خانه♣ تیر یوخدر
سنی بو جهان ایچنده کیمه ایلیم تشبّه
که سننک کمی جهانده داخی بی نظیر یوخدر
بو صراط مستقیمدن گوزنی فقیه باغلر
چون آننک مشیتنده بجز از ضریر یوخدر
سننک اول کمند زلفندکی دام و خاله قارشو
منی دردمند خسته کمی بیر اسیر یوخدر
حقیقی کلام حقدن نه بیان که قلسه حق دیر
کیمه شرح ایدیم بو حالی کیم انکا خبیر یوخدر

Bu nə hüsnı canfəzadır kim, ana nəzir yoxdur♠,
Kim anın kimi cahanda dəxi dilpəzir yoxdur.
Bu cəmalü xətü xalə necə baxsın ol nəzərsiz,
Kim anın bəsirətində nəzəri bəsir yoxdur.
Bu kəmanü qövsə qarşı hədəf eylərəm bu canı,
Nişə kim, xədəngi ğəmzən kimi xanə ♣ tir yoxdur.
Səni bu cahan içində kimə eyləyim təşbih,
Ki, sənin kimi cahanda dəxi binəzir yoxdur.
Bu sirati müstəqimdən gözünü fəqih bağlar,
Çün anın məşiyyətində becüz əz zərir yoxdur.
Sənin ol kəməndi zülfündəki, dam u xalə qarşı,
Məni dərdiməndi xəstə kimi bir əsir yoxdur.
Həqiqi kəlami həqdən nə bəyan ki, qılsa həqdir,
Kimə şərh edim bu halı kim, ana xəbir yoxdur.

♠ بوشعر نسیمي دیوانیندا (۳-نجو جیلد ، ص.٤٦) اونا منسوب اولونوبدور
Nəsimi divanın Bakı nəşrində ona aid olunubdur .

♣ لندن نوسخه سینده «جانه» London nüsxəsində canə

بو جوری کیم منکا اول قلب سنگ خاره قلور
تیغ جفایله باغرمنی پاره‌پاره قلور
فلکده بیر گجه اول ماهتابی گورمک ایچون
شرر بو آهم اودیندن چخر ستاره قلور
خوناب چشممی یارنک غمی روان ایدلی
فقیه مدرسه از اشک ما کناره قلور
کمانه قاشلری آشفته زلف و غمزه‌لری
نیجه بو محنت و جور و جفایی♣ یاره قلور
جمال آینه اول دلبرنک نظر قلمغ
درون آینه قلبی بی غباره قلور
عجب دگلمی کیم اول صورت جمیل الله
سحاب سنبلی♠ آفتابه تاره قلور
حقیقی جور و جفادن کیمه شکایت ایده
جفا و جورنی چون یاری بی شماره قلور

Bu cövri kim mənə ol qəlbi səngi xarə qılır,
Tiği cəfa ilə bağrımnı parə-parə qılır.
Fələkdə bir gecə ol mahitabi görmək üçün,
Şərər bu ahım odundan çıxar, sitarə qılır.
Xunabi çeşmimi yarın ğəmi rəvan edəli,
Fəqihi mədrəsə əz əşki ma kənarə qılır.
Kəmanə qaşları, aşüftə zülfü ğəmzələri,
Necə bu mehnəti cövrü cəfayi ♣ yarə qılır.
Cəmali ayinə ol dilbərin nəzə qılmaq,
Dəruni ayineyi qəlbi biğubarə qılır.
Əcəb deyilmi kim, ol surəti cəmilüllah,
Səhabi sünbülü ♠ afitabi tarə qılır.
Həqiqi cövrü cəfadən kimə şikayət edə,
Cəfavü cövrünü çün yar bişumarə qılır.

♣ لندن نوسخه سینده «جفاي» — London nüsxəsində cəfanı
♠ لندن نوسخه سینده «سنبلنکي» — London nüsxəsində sünbülünü

یوزنک♣ در سدره و طوبی دوداغنک آب حیوان در♠
اننک ماهیت ذوقن نه بیلسون اول که حیوان در
یوزنک انا فتحنادر تبارک شاننه منزل
بو وجهی احسن صورت دینلر اهل عرفان در
رخنک گلزارنه قارشو قزردی مغربک رنگی
طلوع مشرقه زلفنک نسیمی عنبر افشان در
جمالنک پرتو نوری منّور قلدی آفاقی
دوداغنک آب حیوانی ساچنک ظلمتده پنهان در
حدیث گوهر افشاننک هدایت در نهایت سز
عقولی اهل عرفاننک اننک شرحنده حیران در
وصالنک حسرت ناری منی یاختی فراغنکده
نه ماهیت سن ای جان کیم جمالنک حور و رضوان در
حقیقی چون سنی گوردی منزه اولدی عالمدن
گوزینده صورت رحمن دیلنده ذکر سبحان در

Yüzündür ♣ sidrəvü tuba, dodağın abi heyvandır♠,
Onun mahiyyəti zövqün nə bilsin ol ki, heyvandır.
Yüzün inna fətəhnadır təbarək şəninə münzəl,
Bu vəchi əhsəni surət deyənlər əhli ürfandır.
Rüxün gülzarına qarşı qızardı məğribin rəgi,
Tülui məşriqə zülfün nəsimi ənbərəfşandır.
Cəmalın pərtövvi nuri münəvvər qıldı afaqı,
Dodağın abi heyvanı, saçın zülmətdə pünhandır.
Hədisi gövhərəfşanın hidayətdir nəhayətsiz,
Üquli əhli ürfanın onun şərhində heyrandır.
Vüsalın həsrəti nari məni yaxdı fərağında,
Nə mahiyyətsən, ey can kim, cəmalın huri rizvandır.
Həqiqi çün səni gördü münəzzəh oldu aləmdən,
Gözündə sureti rəhman , dilində zikri sübhandır.

♣ لندن نوسخه سینده «بوینکدر» London nüsxəsində boyundur

♠ بو شعر نسیمي دیوانیندا (۳-نجي جیلد، ص.٤٩٨) اونا منسوب اولوبدور.
Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

لبلرنک در آب حیوان ساچلرنک♣ میخانه‌لر
مرغ جانی صید عشق ایتی شو دام و دانه‌لر
جنت وصلنکدن آیرو ای دلارامم منم
آشنا حالن نه بیلسون غافل و بیگانه‌لر
چون بو ویران گونکلمنک بیمار♠ عشقنک در شها
زان سبب معمور عشق اولدی دل ویرانه‌لر
دانهٔ خالنک گرفتار ابد قلدی منی
شمع رخسارنکده یاندی تا ابد پروانه‌لر
صوصادی لعلنک شرابندن بو جان تشنه دل
تا لبنک دورنده جوش ایتی شها پیمانه‌لر
عشقنکز یولنده جان قربان قلن در پایدار
هر دل اگریده یوخدر دعوی مردانه‌لر
ای حقیقی جاننکی جانانه قربان قلمغه
قلمکل تقصیر و قلکل عذر درویشانه‌لر
واعظا افسانه ترک ایت که یوخدر حاصلی
درد جانان چکمین جاهلده در افسانه‌لر

Ləblərindir abi heyvan, saçların ♣ meyxanələr,
Morği canı seydi eşq etdi şu damü danələr.
Cənnəti vəslindən ayrı, ey dilaramım mənim,
Aşina halın nə bilsin ğafilü biganələr.
Çün bu viran könlümün bimar ♠ eşqindir şəha,
Zan səbəb məmuri eşq oldu dili viranələr.
Daneyi xalın giriftari əbəd qıldı məni,
Şəmi rüxsarında yandı ta əbəd pərvanələr.
Susadı ləlin şərabından bu canı təşnə dil,
Ta ləbin dövründə cuş etdi şeha, peymanələr.
Eşqiniz yolunda can qurban qılandır paydar,
Hər dili əyridə yoxdur dəviyi mərdanələr.
Ey Həqiqi, canını canana qurban qılmağa,
Qılmaqıl təqsirə vü qılqı üzri dərvişanələr.
Vaiza, əfsanəyi tərk et ki, yoxdur hasili,
Dərdi canan çəkməyən cahıldədir əfsanələr.

♣ لندن نوسخه سینده «گوزلرنکدر» — London nüsxəsində gözlərindir
♠ لندن نوسخه سینده «معمار» — London nüsxəsində memar

او دم که اول بت عیاره دلستان دیدیلر
قیام قامتنه سیدرهٔ جنان دیدیلر
حکایت سر زلفینی اول پری زادنک
بر آفتاب رخش ظلمت جهان دیدیلر
خواص لعلنی هر نجه صورمیشم خلقه
ازلده خضر ایچن آب حیاتی جان دیدیلر
صفات شرح رخی چون بیانه صغمز اننک
آننک صفاتنی بیحد و بیکران دیدیلر
کمال حسننی بدر آیه قلدیلر تشبیه
زمانه خوبلرین اول یاره جان فشان دیدیلر
هزار محنت و داغ و بلا که در جگر است
ز آتش غم سودای دلبران دیدیلر
یگانه‌در چون ایکی عالم ازره اول دلبر
آننک صفاتنی خلقه یگان یگان دیدیلر
حقیقی جان و جهان ترک ایتمگی سندن
غمنده اول بت جان پرورنک آسان دیدیلر

O dəm ki, ol büti əyyarə dilsitan dedilər,
Qiyami qamətinə sidreyi cinan dedilər.
Hekayəti səri zülfünü ol pərizadın,
Bər aftabe rüxəş, zülməti cahan dedilər.
Xəvası ləlini hər necə sormuşam xalqa,
Əzəldə Xızr için abı həyatı can dedilər.
Sifati şərhi rüxi çün bəyanə sığmaz onun,
Onun sifatını bihəddü bikəran dedilər.
Kəmali hüsnünü bədr aya qıldılar təşbih,
Zəmanə xubların ol yarə canfəşan dedilər.
Hizar möhnətü dağü bəla ki, dər cıgərəst,
Zə atəşi ğəmi sedayı dilbəran dedilər.
Yeganədir çün iki aləm üzrə ol dilbər,
Onun sifatını xəlqə yegan yegan dedilər.
Həqiqi,canü cahan tərk etməyi səndən,
Ğəmində ol büti can pərvərin asan dedilər.

اهل عشقنک آهینی گل عاشق جانانه صور
خسرو حسننک مقامین روضهٔ رضوانه صور
ذکر و تسبیحنک نیازین ایسته شیخ و شابدن
وحدتنک جام شرابن مست جاویدانه صور
سالکنک اسرارنی زاهدن ایله منتشر
سن بو رازنک حالنی وار عارف ربانه صور
بلبل آشفته‌ننک پیوسته آه و ناله‌سین
اول خطی سبزه رخی گل سدرهٔ رضوانه صور
داغ حسرت چونکه اول یارنک غمی در عاشقه
گل بو حسرت داغنی بو جان سرگردانه صور
اولمگل شیطان نفسنک علتندن بیخبر
گر ز عرفانسن بو رازی ساجد رحمانه صور
ای دین که تشنه‌یم من اول نگارنک لعلنه
خضر عشقنک باده‌سین اول چشمهٔ حیوانه صور
چون حقیقی سوز در شمع رخش پروانه‌وار
آتش عشقنک غمین گل بو دل گریانه صور

Əhli eşqin ahını,gəl,aşiqi canana sor,
Xosrovi hüsnün məqamın rövzeyi rizvana sor.
Zikrü təsbihin niyazın istə şeyxü şabdan,
Vəhdətin cami şərabın məsti cavidana sor.
Salikin əsrarını zahiddən eylə müntəşir,
Sən bu razın halını var arifi rəbbana sor.
Bülbüli aşüftənin peyvəstə ahü naləsın,
Ol xəti səbzə, rüxı gül sidreyi rizvana sor.
Dağı həsrət çünki ol yarın ğəmidir aşıqə,
Gəl bu həsrət dağını bu canı sərgərdana sor.
Olmagil şeytani nəfsin illətindən bixəbər,
Gər ze ürfansan bu razı sacıdı rəhmana sor.
Ey deyən ki, teşnəyəm mən ol nigarın ləlinə,
Xızri eşqin badəsin ol çeşməyi heyvana sor.
Çün Həqiqi suz, dər şəmi ruxəş pərvanəvar,
Atəşi eşqin ğəmin, gəl bu dili giryana sor.

اول که در راه حقیقت اهل عشقه پیر ایدر♣
دعوی جانبازلغنکده عشق ایله تقصیر ایدر
فارغ البال است از دنیی و عقبی تا ابد
شول دلارامنک خیالی هر کیمه تاثیر ایدر
آیه السبع المثاننک معنی اسرارنی
کاتب قدرت به لوح جان و دل تحریر ایدر
کنت کنزین شرحنی اول جان بیلور کیم تا ابد
عالم الغیبنک کمالن عالمه تفسیر ایدر
عالم السرین بیانندن خبر ویرمز فقیه
زاهد زراقه قارشو نالهٔ تزویر ایدر
تا منی آشفته و دیوانه قلدی غمزه‌سی
زلف مشک افشاننی برحلق جان زنجیر ایدر
ای حقیقی گورمیشم در خواب من بیر وجه♠ کیم
یوسف مصری آننک♦ یوز وجهیلن تعبیر ایدر

Ol ki, dər rahi həqiqət əhli eşqə pir edər ♣,
Dəviyi canbazlığında eşq ilə təqsir edər.
Fariğül bal əst əz dünyavü üqba ta əbəd,
Şol dilaramın xəyalı hər kimə təsir edər.
Ayətül səbül məsanın məniyi əsrarını,
Katibi qüdrət be lövhi canü dil təhrir edər.
Künti kənzin şərhini ol can bilir kim ta əbəd,
Aləmül ğeybin kəmalın aləmə təfsir edər.
Aləmül sirrin bəyanından xəbər verməz fəqih,
Zahidi zərraqə qarşu naleyi təzvir edər.
Ta məni aşüftəvü divanə qıldı ğəmzəsi,
Zülfi mişk əfşanını bər həlqi can zəncir edər.
Ey Həqiqi, görmüşəm dər xab mən bir vəch ♠ kim,
Yusifi Misri anın ♦ yüz vəchilən təbir edər.

♣ بو شعر تهران نوسخه سینده یوخدور — Bu şer Tehran nüsxəsində yoxdur
♠ لندن نوسخه سینده «وجهي» — London nüsxəsində vəchi
♦ لندن نوسخه سینده «آنکي» — London nüsxəsində anı

یارنک جفای غمزه‌سی جانمده یاره‌در♣
آه و فراق النده جگر پاره پاره‌در
یارنک غمنکده آغریمه ای دل جفاسنه
قلگل وفا که جوری اننک بی‌شماره‌در
محشر گوننکده مسکنی دارالخلود ایمش
اول عابدنک که قبله‌سی رخسار یاره‌در
قانمدن اسرودی چون اننک فتنه گوزلری
جاننک همیشه میلی او چشم خماره‌در
یارب ندر که کونکلم ایرشمز وصالنه
پیوسته داغ حسرتی باغرمده یاره‌در
کیم که بو یولده عشقه مرید اولدی ای رفیق
سمعنکده عارفنک نفسی گوشواره‌در
چون ذره‌در حقیقی اننک حسنی آفتاب
مهتاب چورسنده نه چوک کیم ستاره‌در

Yarın cəfayi ğəmzəsi canımda yarədir ♣,
Ahu fəraq əlində cigər parə-paredir.
Yarın ğəmində ağrıma, ey dil, cəfasına,
Qılgil vəfa ki, cövri onun bişümarədir.
Məhşər günündə məskəni darülxülud imiş,
Ol abidin ki, qibləsi ruxsari yarədir.
Qanımdan əsrüdi çün onun fitnə gözləri,
Canın həmişə meyli o çeşmi xumarədir.
Yarəb, nədir ki, könlüm irişməz vüsalına,
Peyvəstə dağı həsrəti bağrımda yarədir.
Kim ki, bu yolda eşqə mürid oldu, ey rəfiq,
Səmində arifin nəfəsi güşvarədir.
Çün zərrədir Həqiqi , onun hüsnü aftab,
Məhtab çevrəsində nəçük kim sitarədir.

♣ بو شعر تهران نوسخه سینده یوخدور Bu şer Tehran nüsxəsində yoxdur

حجاب وحدتی رفع ایتمدی یگانه هنوز
محب عشقه وفا قلمدی زمانه هنوز
یولنده من نیجه کیم جانمی نثار ایدرم
گمان ایچنده قالبدر دوشر گمانه هنوز
اگرچه غمزه‌سی پیکان ایلن دَلر جگری
اننک خدنگینه جان قلمشم نشانه هنوز
بو قلبی هر نیجه پاک ایلرم من درویش
سیمرغ عشق گلب قونمز آشیانه هنوز
وصال جنته وصل اولدی عاشق صادق
قالور تعجبه زاهد قلور فسانه هنوز
حقیقی رقص محبت قلور به چنبر عشق
سرود نغمهٔ وحدته‌در ترانه هنوز

Hicabi vəhdəti rəf etmədi yeganə hənuz,
Mühibbi eşqə vəfa qılmadı zəmanə hənuz.
Yolunda mən necə kim canımı nisar edərəm,
Güman içində qalıbdır, düşər gümanə hənuz.
Əgərçi ğəmzəsi peykan ilən dələr cigəri,
Onun xədənginə can qılmışam nişanə hənuz.
Bu qəlbi hər necə pak eylərəm məni dərviş,
Simürği eşq gəlib qonmaz aşiyanə hənuz.
Vüsali cənnətə vəsl oldu aşiqi sadiq,
Qalır təəccübə zahid, qılır fəsanə hənuz.
Həqiqi rəqsi mühəbbət qılır be çənbəri eşq,
Sürudi nəğmeyi vəhdətədir təranə hənuz.

Xızri can cüz cami lələt abi heyvan istəməz,
Cənnəti vəslindən ayrı əhli dil can istəməz.
Küfrü imandır rüxü zülfün çü bilməz müttəqi,
Sünbülün sərhəlqəsində küfrü iman istəməz.
Ey vusalın dərdə dərman ,ey yüzün darülxülud,
Dərdi dərmansız könül vəslində dərman istəməz.
Gərçi tökdü qanımı eşqində eynin ğəmzəsi,
Qarətü qəsdi dilü can eylər ol qan istəməz.
Failin mahiyyətin bilməz fəqihi bixəbər,
Zati bimislin sifatın qəlb viran istəməz.
Məqdəmi vəslində can şukranə vacibdir bu gün,
Çün könül təxtində səndən özgə sultan istəməz.
Ey boyun sidrə, ləbin eynən təsəmma səlsəbil,
Saliki rəhro bu şərhə nəqli Quran istəməz.
Cənnətabadi səri kuyində ayruğ ♣ ta əbəd,
Rövzənin bağında zahid hurü rizvan istəməz.
Çün Həqiqi cami ləlindən içər yek cürə mey,
Xızri eşqin çeşməsindən abi heyvan istəməz

♣ London nüsxəsində ayrux

خضرجان جز جام لعلت آب حیوان ایستمز
جنّت وصلنکدن آیرو اهل دل جان ایستمز
کفر و ایماندر رخ و زلفنک چو بیلمز متقی
سنبلنک سرحلقه‌سنده کفر و ایمان ایستمز
ای وصالنک درده درمان ای یوزنک دارالخلود
دردی درمان‌سیز کونکل وصلنکده درمان ایستمز
گرچه توکدی قانمی عشقنکده عیننک غمزه‌سی
غارت و قصد دل و جان ایلر اول قان ایستمز
فاعلنک ماهیتین بیلمز فقیه بی خبر
ذات بی مثلنک صفاتن قلب ویران ایستمز
مقدم وصلنکده جان شکرانه واجبدر بو گون
چون کونکل تختنده سندن اوزگه سلطان ایستمز
ای بوینک سدره لبنک عینا تسمی سلسبیل
سالک ره‌رو بو شرحه نقل قرآن ایستمز
جنت‌آباد سر کوینده ایروغ* تا ابد
روضه‌ننک باغنده زاهد حور و رضوان ایستمز
چون حقیقی جام لعلنکدن ایچر یک جرعه می
خضر عشقنک چشمه‌سندن آب حیوان ایستمز

---

* لندن نوسخه‌سینده «آیروخ»

یولنکده جاننی ترک ایتمن وفا بلمز♣
فراق النده بلا چکمین جفا بلمز
ساچنک سوادنی والیله قلمین تشبیه
یوزنکده آیه والشمس والضحی بلمز
جهانی دوتدی نیاز ایله زاهد تقوی
آننک حقیقتنی سالک ریا بلمز
طواف کعبه کوینکدن ایستین عابد
به جز وصال رخت مروه و صفا بلمز
رقیبی سور منکا قلمه اننک حکایتنی
بیگانه حالتی هر اهل آشنا بلمز
آله اولمسون اول دل کی از سر اخلاص
بو جانه دانه و دامنکده مبتلا بلمز
حجاب ظلمت ایلن باغلدی بصیرتنی
غبار پاینکی هرکیم که توتیا بلمز
نوایه یتدی حقیقی مراد وصلنکدن
آننک مرادنی هر اهل بی نوا بلمز

Yolunda canını tərk etməyən vəfa bilməz ♣,
Fəraq əlində bəla çəkməyən cəfa bilməz.
Saçın səvadını vəlleylə qılmayan təşbih,
Yüzündə ayəti vəşşəmsü vəzzüha bilməz.
Cahanı tutdu niyaz ilə zahidi təqva,
Onun həqiqətini saliki riya bilməz.
Təvafi kəbeyi kuyindən istəyən abid,
Becüz vüsali rüxət Mərvəvü Səfa bilməz.
Rəqibi sor mənə, qılma onun hekayətini,
Biganə haləti hə əhli aşina bilməz.
İlahi olmasın ol dil ki, əz səri ixlas,
Bu canə danəvü damında mübtəla bilməz.
Hicabi zulmət ilən bağladı bəsirətini,
Ğübari payını hər kim ki, tutiya bilməz.
Nəvayə yetdi Həqiqi muradı vəslindən,
Onun muradını hər əhli binəva bilməz.

♣ بو شعر تهران نوسخه سینده یوخدور — Bu şer Tehran nüsxəsində yoxdur

گل گل که باغ وصل تو خلد برین ایمش
خمر لبت ز کوثر جان آفرین ایمش
دام بلای عشقه گرفتار ایدن منی
شول زلفمش کی تارەسی حبل المتین ایمش
کون و مکانی وصلنکه شکرانه ویرمشم
بو رسم ایچنده رسم محبت همین ایمش
روز ازلده چشمهٔ حیوان نمش لبنک
زلفنک نسیم و مشک رخنک یاسمن ایمش
دارالخلود ایمش سر زلفنک♣ حقیقتی
هرگوشه وحدت اهلنه ملک♠ دین ایمش
چون هادی زمانه سن اولدونک بو عرصەده
شکر ایلرم کی واسطه روح‌الامین ایمش
چکدی حقیقنی سر زلفنک کمندینه
شول قاشلرونک کمانسی کاندر کمین ایمش

Gəl gəl ki, bağı vəsli to xüldi bərin imiş,
Xəmri ləbət ze kövsəri can afərin imiş.
Dami bəlayi eşqə giriftar edən məni,
Şul zülf imiş ki, tarəsi həblül mətin imiş.
Kovni məkanı vəslinə şükranə vermişəm,
Bu rəsm içində rəsmi məhəbbət həmin imiş.
Ruzi əzəldə çeşmeyi heyvan imiş ləbin,
Zülfün nəsimü mişki rüxün yasəmin imiş,
Darülxülud imiş səri zülfün♣ həqiqəti,
Hər guşə vəhdət əhlinə mülki♠ din imiş.
Çün hadiyi zəmanə sən oldun bu ərsədə,
Şükr eylərəm ki, vasitə rühül əmin imiş.
Çəkdi Həqiqini səri zülfün kəməndinə,
Şol qaşların kəmanəsi kəndər kəmin imiş.

♣ لندن نوسخه سینده «کوینک» — London nüsxəsində kuyin
♠ لندن نوسخه سینده «بیر ملک» — London nüsxəsində bir mülki

ای آفتاب عشق رخنک آفتاب ایمش
وجهنک حروف آیه ام الکتاب ایمش
یارب نه حسن ایمش بو ملاحتده کیم اننک
تعریف وجه شاننه حقدن خطاب ایمش
کفر و ایمانمش♣ رخ و زلفنک حقیقتی
کالنور فی‌السّواد عجب ماهتاب ایمش
یاخدی فراق اودیله منی حسرت و غمنک
گل گل که حسرتنک غمی یوم العذاب ایمش
اسرار کنت کنزی بیان ایلدی لبنک
نظارۀ جهانه رخنک آفتاب ایمش
یارنک غمینده قلمه شکایت حقیقیا
یارونک غم و فراقی چو ناز و عتاب ایمش

Ey aftabi eşq, rüxün aftab imiş,
Vəchin hürufi ayəti ümmül kitab imiş.
Yarəb, nə hüsn imiş bu məlahətdə kim,onun,
Tərifi vəchi şəninə həqdən xitab imiş.
Küfr u iman imiş♣, rüxü zülfün həqiqəti,
Kelnuri fis səvad əcəb mahtab imiş.
Yaxdı fəraq oduyla məni həsrətü ğəmin,
Gəl,gəl ki, həsrətin gəmi yomül əzab imiş.
Əsrari künti kənzi bəyan eylədi ləbin,
Nəzzareyi cahana rüxün afitab imiş.
Yarin ğəmində qılma şikayət, Həqiqiya,
Yarin ğəmü fəraqi çü nazü itab imiş.

♣ لندن نوسخه سینده « ایمان و کفرمش » London nüsxəsində imanü küfrimiş

طلوع مهر رخنک آفتاب طلعت♣ ایمش
جمالنک آیت ام الکتاب وحدت ایمش
حیات چشمهٔ حیوان ایمش لبنک خضره
مشام زلف و خطنک مشک ناب وحدت ایمش
ایاغنکا باشنی کیم‌که صالدی از سر صدق
فراغت ازغم یوم الحساب وحدت ایمش
گتوردی پرده رخنکدن جمال لم یزل♠
هنوز اهل ظلامه♦ حجاب وحدت ایمش
کناره قلمدی عشقنک محیطنه دوشلی
کونکل که بحر غمنکده حباب وحدت ایمش
ساچنک که سایه‌سی ظل‌آله ایمش ابدی
آننک شبنده یوزونک ماهتاب وحدت ایمش
حقیقی‌کعبهٔ حق بیلمدی• وجهن اول یارنک
چو امر اسجدو حقدن خطاب وحدت ایمش

Tülui mehri rüxün aftabi tələt♣ imiş,
Cəmalın ayəti ümmül kitabi vəhdət imiş.
Həyati çeşmeyi heyvan imiş ləbin Xızra,
Məşami zülfü xətin mişki nabi vəhdət imiş.
Ayağına başını kim ki, saldı əz səri sidq,
Fərağət əz ğəmi yomül hesabi vəhdət imiş.
Götürdü pərdə rüxündən cəmali ləmyəzl♠,
Hənuz əhli zulamə♦ hicabi vəhdət imiş.
Kənarə qılmadı eşqin mühitinə düşəli,
Könül ki, bəhri ğəmində hübabi vəhdət imiş.
Saçın ki, sayəsi zilli ilah imiş əbədi,
Onun şəbində yüzün mahtabi vəhdət imiş.
Həqiqi Kəbeyi həq bilmədi• vəchin ol yarin,
Çü əmri üscudu həqdən xitabi vəhdət imiş.

♣ لندن نوسخه سینده «وحدت» — London nüsxəsində vəhdət dir
♠ لندن نوسخه سینده «لم یزلي» — London nüsxəsində ləmyəzəli
♦ لندن نوسخه سینده «طلایه» — London nüsxəsində tulayə
• لندن نوسخه سینده «بیلدي» — London nüsxəsində bildi

Ağzını gönçeyi xəndan dedilər, gerçək imiş,
Xəti rüxsarını reyhan dedilər, gerçək imiş.
Lövhi məhfüzini ta gördü kəlam əhli sənin,
Ayəti hüsnünə♣ Quran dedilər, gerçək imiş.
Zövqi eşqin ki, ğəmi dünyəvü üqbayə dəyər,
Bu könül təxtinə sultan dedilər, gerçək imiş.
Tərki can qılmağı eşqin ğəmi vəslində sənin,
Məni aşüftəyə böhtan dedilər, gerçək imiş♠.
Ləlini çeşmeyi heyvana təşbih qılıban♦,
Dürci yaqutuna mərcan dedilər, gerçək imiş.
Əhli təqva ki, sücud eylədi vəchində sənin,
Sacidi surəti rəhman dedilər, gerçək imiş.
Ənbər əfşan saçını küfrə münasib qılıban,
Şəmi rüxsarını iman dedilər, gerçək imiş.•
Ey Həqiqi, çü sənə nəqli kəlam oldu müin,
Nəfsinin şərhini bürhan dedilər, gerçək imiş.

♣ London nüsxəsində vəchinə
♠ Başqa nüsxələrdə bu beyt yoxdur
♦ Bu misra London nüsxəsində belədir:Ənbər əfşan saçını küfrə münasib qılıban
• Tehran nüsxəsində bu beyt yoxdur.

آغزنکی غنچهٔ خندان دیدیلر گرچکمش
خط رخسارنکی ریحان دیدیلر گرچکمش
لوح محفوظنکی تا گوردی کلام اهل سننک
آیه حسنکا♣ قران دیدیلر گرچکمش
ذوق عشقونک که غمی دنیی و عقبیه دگر
بو کونکل تختنه سلطان دیدیلر گرچکمش
ترک جان قلمغی عشقنک غم وصلنکده سننک
من آشفتیه بهتان دیدیلر گرچکمش♠
لعلنکی چشمهٔ حیوانا تشبّه قلوبن♦
دُرج یاقوتنکا مرجان دیدیلر گرچکمش
اهل تقوا که سجود ایلدی وجهنکده سننک
ساجد صورت رحمان دیدیلر گرچکمش
عنبر افشان ساچنکی کفره مناسب قلوبن
شمع رخسارنکی ایمان دیدیلر گرچکمش•
ای حقیقی چو سنکا نقل کلام اولدی معین
نفسننک شرحنی برهان دیدیلر گرچکمش

♣ لندن نوسخه سینده «وجهنکا»
♠ بو بیت باشقا نوسخه لرده یوخدور
♦ بو مصراع لندن نوسخه سینده بئله دیر: عنبر افشان ساچنکي کفره مناسب قلوبن
• بو بیت تهران نوسخه سینده یوخدور

ازلده شوقه گتوردی منی هدایت عشق
سعادتی منکا کشف ایلدی سرایت عشق
ایاغنه باشنی♣ صالدی اول پری زادنک
یتوردی دامن وصله منی هدایت عشق
هر انک بیلمدی یارنک غمینی عین صفا
میسر اولمدی اول جاهله کفایت عشق
محبه نکتهٔ توحیدی کشف ایدر فاعل
گتوردی پردهٔ اسراری چون روایت عشق
بیان شرحنه مستغرق اولدی جان و کونکل
محیطه صالدی منی گُنج بی نهایت عشق
منوّر ایلدی ویرانه کونکلمی عشقنک
همین بودر نظر ای شاه من رعایت♠ عشق
جفا و جوری وفادر حقیقیه یارنک
بیر اولدی مشرب توحید ایلن حکایت عشق

Əzəldə şövqə gətirdi məni hidayəti eşq,
Səadəti mənə kəşf eylədi sirayəti eşq.
Ayağına başını♣ saldı ol pərizadın,(başımı)b
Yetirdi daməni vəslə məni hedayəti eşq.
Hər anki, bilmədi yarin ğəmini eyni səfa,
Müyəssər olmadı ol cahilə kifayəti eşq.
Mühebbə nükteyi tovhidi kəşf edər fail,
Götürdü pərdeyi əsrari çün revayəti eşq.
Bəyani şərhinə müstəğrəq oldu canü könül,
Mühitə saldı məni künci binəhayəti eşq.
Münəvvər eylədi viranə könlümü eşqin,
Həmin budur nəzər, ey şahi mən, riayəti ♠ eşq.
Cəfavü cövri vəfadır Həqiqiyə yarin,
Bir oldu məşrəbi tovhid ilən hekayəti eşq.

♣ لندن نوسخه سینده «باشمي» — London nüsxəsində başımı
♠ لندن نوسخه سینده «روایت» — London nüsxəsində rəvayəti

ای ساچنک ظلمت رخنک مهر ایله ماهی کونکلمنک
خاک درگاهنکده در اقبال و جاهی کونکلمنک
واجب اولمشدر منکا قلمغ مسخر عالمی
چون ایکی عالمده سنسن پادشاهی کونکلمنک
ای خطنک شاننده منزل آیت ام الکتاب
لوح محفوظنکده‌در حقدن گواهی کونکلمنک
حسرتنک دردی منی یاخدی فراقنک نارنه
جنت وصلنکدن اولدی عذرخواهی کونکلمنک
تاج خسرودر سننک فضلنکدن ای سلطان حسن
فرق اقبال و سعادتدن کلاهی کونکلمنک
آفتاب صورتنک زلف پریشاننکده در
شول جهتدن روشن المشدر سیاهی کونکلمنک
غمزهٔ خونریز ایلن قلدنک مسخر عالمی
چون خط و خالنکده در لشکر سپاهی کونکلمنک
وحدتنک کوینده محو اولدی حقیقی تا ابد
طور عشقنک در ازلدن تکیه گاهی کونکلمنک

Ey saçın zülmət, rüxün mehr ilə mahı könlümün,
Xaki dərgahındadır iqbalü cahı könlümün.
Vacib olmuşdur mənə qılmaq müsəxxər aləmi,
Çün iki aləmdə sənsən padşahı könlümün.
Ey xətin şənində münzəl ayəti ümmül kitab,
Lövhi məhfuzindədir həqdən gəvahı könlümün.
Həsrətin dərdi məni yaxdı fəraqın narına,
Cənnəti vəslindən oldu üzrxahı könlümün.
Tacı xosrovdur sənin fəzlindən, ey sultani hüsn,
Fərqi iqbalü səadətdən külahı könlümün.
Aftabı surətin zülfi pərişanındadır,
Şol cəhətdən rövşən olmuşdur siyahı könlümün.
Qəmzeyi xunriz ilən qıldın müsəxxər aləmi,
Çün xətü xalındadır ləşkər sipahı könlümün.
Vəhdətin kuyində məhv oldu Həqiqi ta əbəd,
Turi eşqindir əzəldən tekyegahi könlümün.

Təbarək allah, hüsnü cəmal beylə gərək♦,
Bu hüsnü sürətə həm xəttü xal beylə gərək.
Əgərçi vəchinə təşbih qılmışam ayı,
Vəli məlahət ilən♣ bu kəmal beylə gərək.
Bəhayi♠ vəslinə can vermişəm zi rüzi əzəl,
Səadəti əbədə mülkü mal beylə gərək.
Ləbin mizacını sormaqda istərəm Xızrı,
Deyəm ki, çeşmeyi abi zülal beylə gərək.
Ayağına başımı salmışam məni dərviş,
Cənabi həzrətinə ittisal beylə gərək.
Ümidi vəslinə şad olmuşam fəraqında,
Həqiqət əhlinə dəfi məlal beylə gərək.
Vüsalını dilərəm kam ilən ze fəzli ilah,
Məni şikəstəyə kamı vüsal beylə gərək.
Bəsirət əhli görəndə qiyami qamətini,
Dedi ki, sərvi səhi dər misal beylə gərək.
Həqiqi şərhi dəhanın qılanda ruzi əzəl,
Anın bəyanına şirin məqal beylə gərək.

♦ Nəsimi divanının Baki nəşrində ona aid olunubdur.
♣ London nüsxəsində ilə
♠ London nüsxəsində baharı

تبارک الله حسن و جمال بیله گرگ♦
بو حسن و صورته هم خط و خال بیله گرگ
اگرچه وجهنکا تشبیه قلمشم آیی
ولی ملاحت ایلن♣ بو کمال بیله گرگ
بهای♠ وصلنکا جان ویرمشم ز روز ازل
سعادت ابده ملک و مال بیله گرگ
لبنک مزاجنی صورمغده ایسترم خضری
دیم که چشمهٔ آب زلال بیله گرگ
ایاغنکا باشمی صالمشم من درویش
جناب حضرتنکا اتصال بیله گرگ
امید وصلنکا شاد اولمشم فراقنکده
حقیقت اهلنه دفع ملال بیله گرگ
وصالنکی دیلرم کام ایلن ز فضل‌آله
من شکستیه کام وصال بیله گرگ
بصیرت اهل گورنده قیام قامتنکی
دیدی که سرو سهی در مثال بیله گرگ
حقیقی شرح دهاننک قلنده روز ازل
آننک بیاننه شیرین مقال بیله گرگ

♦ بو شعر نسميي ديوانيندا (۳-نجوجيلد، ص.٦٦) اونا منسوب اولونوبدور.
♣ لندن نوسخه سينده «ايله»
♠ لندن نوسخه سينده «بهاري»

ای جمالنک پرتوی چون آفتابی کونکلمنک
صورتنک مصحف خطنک ام‌الکتابی کونکلمنک
دونیی و عقبی ده سندن اوزگه دلدار ایستمن
چون ایکی عالمده سنسن انتخابی کونکلمنک
خضر عشق اولدم من آشفته بر یاد لبت
آب حیواننده رقص ایلر حبابی کونکلمنک
زلف مشک افشاننکی چون شانه قلدنک♣ در صباح
سر بسر دوتدی جهانی مشک نابی کونکلمنک
لبلرنک پیمانه‌سندن در حیاتی عمرنک♠
سلسبیلنک ساغرندن‌در شرابی کونکلمنک
خاک درگاهنده در کحل بصیری عینمنک
زلف و رخسارنکده در نور و حجابی کونکلمنک
چون حقیقی فارغم مِن یوم حشر و احتساب
رحمتنک دورنده در یوم الحسابی کونکلمنک

Ey cəmalın pərtövi çün aftabı könlümün,
Surətin müshəf, xətün ümmül kitabı könlümün.
Dünyəvü üqbadə səndən özgə dildar istəmən,
Çün iki aləmdə sənsən intixabı könlümün.
Xızri eşq oldum məni aşüftə bər yadi ləbət,
Abi heyvanında rəqs eylər hübabı könlümün.
Zülfi mişkəfşanını çün şanə qıldın ♣ dər səbah,
Sərbəsər tutdu cahanı mişki nabı könlümün.
Ləblərin peymanəsindəndir həyatı ömrünün♠,
Səlsəbilin sağərindəndir şərabı könlümün.
Xaki dərgahındadır kəhli bəsiri eynimin,
Zülfü rüxsarındadır nurü hecabı könlümün.
Çün Həqiqi, fariğəm men yomi həşrü ehtisab,
Rəhmətin dövründədir yomül hesabı könlümün.

♣ لندن نوسخه سینده «قلدي» — London nüsxəsində qıldı
♠ لندن نوسخه سینده «عمرمنک» — London nüsxəsində ömrümün

ای جمالنک صورت رحمانی اهل جنتک
وی دوداغنک چشمهٔ حیوانی اهل جنتنک
کفر زلفنک استواسی در صراط المستقیم
عارضنک نورنده در ایمانی اهل جنتنک
سدره‌در سرو گل اندامنک رخنک اسمای حسن
لوح محفوظنکده‌در قران اهل عاشقنک
ای خطنک ام الکتابی رهنمای عالمنک
وی وصالنک روضهٔ رضوانی اهل عالمنک
دامن وصلنکده‌در دارالخلودی عاشقنک
دام زلفنک بندی در زندانی اهل جنتنک
دلبرنک عشقینده گر منع ایلسه زاهد منی
واجب اولمشدر دیمک شیطانی اهل جنتنک
چون حقیقی کیم که کشف ایلر جمالنک آیتن
شرح انفاسنده در برهانی اهل جنتنک

Ey cəmalın surəti rəhmanı əhli cənnətin,
Vey dodağın çeşmeyi heyvanı əhli cənnətin.
Küfri zülfün üstüvasıdır siratül müstəqim,
Arizin nurindədir imanı əhli cənnətin.
Sidrədir sərvi güləndamın, rüxün əsmai hüsn,
Lövhi məhfuzindədir Quranı əhli cənnətin.
Ey xətin ümmül kitabı, rəhnüması aləmin,
Vey vüsalın rövzeyi rizvanı əhli cənnətin.
Daməni vəslindədir darül xüludi aşiqin,
Dami zülfün bəndidir zindanı əhli cənnətin.
Dilbərin eşqində kər mən eyləsə zahid məni,
Vacib olmuşdur demək şeytanı əhli cənnətin.
Çün Həqiqi kim ki, kəşf eylər cəmalın ayətin,
Şərhi ənfasındadır bürhanı əhli cənnətin.

Ləmeyi nuri təcəlla aftabıdır yüzün♥,
Leylətül əsra saçın zilli hicabıdır yüzün.
Əhsəni surərt cəmalındır iki aləmdə çün,
Aləmül qeybin kəlamı intixabıdır yüzün,
Surətin inna fətəhnadır, xətin ümmül kitab,
Şol cəhətdən arifin yovmül hesabıdır yüzün.
Lövhi məhfuzində münzəldir♣ təbarək ayəti,
Qul təbarək şəninə həqdən xitabıdır yüzün.
Leylətül meraca əsrada rəfiq oldu saçın,
Qabi qövseni hilalın mahitabıdır yüzün.
Sidrədir sərvi güləndamın, rüxün əsmai hüsn,
Sureyi tənzil xətü xalın kitabıdır yüzün.
Heyətin şərhini məntinqdən bəyan eylər fəqih,
Kənzi hikmətdən kəlamın ehtisabıdır yüzün.
Rövşən oldu cümlə aləmdə vəchin pərtövi,
Çün Həqiqinin muradi♠ aftabıdır yüzün.

♥ Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.
♣ London nüsxəsində məhfuzindədir münzəl.
♠ London nüsxəsində cirağı.

لمعۀ نور تجلی آفتابی در یوزنک♥
لیله الاسری ساچنک ظل حجابی در یوزنک
احسن صورت جمالنک در ایکی عالمده چون
عالم الغیبنک کلامی انتخابی در یوزنک
صورتنک انا فتحنادر خطنک امّ الکتاب
شول جهتدن عارفنک یوم الحسابی در یوزنک
لوح محفوطنکده منزل در♣ تبارک آیتی
قل تبارک شاننه حقدن خطابی در یوزنک
لیله المعراجه اسراده رفیق اولدی ساچنک
قاب قوسینی هلالنک ماهتابی در یوزنک
سدره‌در سرو گل اندامنک رخنک اسماء حسن
سوره تنزیل خط و خالنک کتابی در یوزنک
هیاتنک شرحنی منطقدن بیان ایلر فقیه
کنز حکمتدن کلامنک احتسابی در یوزنک
روشن اولدی جملۀ عالمده وجهنک پرتوی
چون حقیقی‌ننک مرادی♠ آفتابی در یوزنک

♥ بو شعر نسیمي دیوانیندا (۳-نجو جیلد ، ص. ۲٦۱) اونا منسوب اولونوبدور.
♣ لندن نوسخه سینده «محفوظنکده در منزل»
♠ لندن نوسخه سینده «چراغي»

ای سقاهم ربهم خمری مصفاسی لبنک♠
مست عشقنک ساغر و جامنده صهباسی لبنک
علم الاسماء کلامندن هدایت گورسدر
کنز حکمتدن بیان اولدی مسماسی لبنک
شول سپاهی غمزه‌لر یغمایه ویردی کونکلمی
غارت جان و جهان قیلدی چو یغماسی لبنک
لوح محفوظنکده‌در سبع‌المثانی عاشقنک
کوثرنک جامنده در عینأ تسماسی لبنک
وحدتنک نوری میدر یا آفتاب صورتنک
حبهٔ السودامی در یا خال سوداسی لبنک
ای حقیقی جان لبه یتدی غم عشقنکده چون
لعل جلابنده‌در حقدن تمناسی لبنک

Ey səqahüm rəbbəhüm xəmri müsəfasi ləbin,
Məsti eşqin sağəru camında səhbası ləbin.
Elmi əsma kəlamindan hidayət görsədir,
Könti kənzindən bəyan oldu müsəmmasi ləbin.
Şul sipahi qəmzələr yağmaya verdi gönlümü.
Qarəti canu cahan qıldı çu yağması ləbin.
Lövhi məhfuzindədir səbi məsani aşiqin,
Kövsərin camındadır eynən təsəmması ləbin.
Vəhdətin nurumıdır ya aftabi sürətin.
Hübətul sevdamıdır ya xal sevdası ləbin.
Ey Həqiqi cah ləbə yetdi qəmi eşqində çün,
Ləli culabındadır həqdən təmənası ləbin.

♠ . باشقا نوسخه لرده بو غزل یوخدور.

Başqa nüsxələrdə bu qəzəl

داغلمش آفتاب اوسته نقاب عنبر افشاننک•
معطر قلمش آفاقی مشامی اول پریشاننک
حروف لوح محفوظنک یازلمیش آیت حق در
آننک شرحنده روشن در بیان اهل عرفاننک
خطنک امّ الکتابندن آچلدی علم ربانی
کلامی ترجمان ایتی حدیث گوهر افشاننک
یوزنک♣ در سدره و طوبی جمالنک جنت الماوی
سر کوی جنابنک♠ در مقامی حور رضواننک
گتوردی پردۀ زلفنک♦ جمالنک آفتابندن
توکندی عقلمنک صبری قراری قالمدی جاننک
حقیقی جام لعلنکدن ایرشدی بادۀ عشقه
چو آننک چشمه‌سندن در خواصی آب حیواننک

Dağılmış aftab üstə niqabi ənbər əfşanın •,
Müəttər qılmış afaqı məşamı ol pərişanın.
Hürufi lövhi məhfuzin yazılmış ayəti həqdir,
Onun şərhində rövşəndir bəyani əhli ürfanın.
Xətün ümmül kitabından açıldı elmi rəbbani,
Kəlamı tərcüman etdi hədisi kövhər əfşanın.
Yüzündür ♣ sidrəvü tuba,cəmalın cənnətul məva,
Səri kuyi cənabındır♠ məqamı hurü rizvanın.
Götürdü pərdəyi zülfün ♦ cəmalın aftabından,
Tükəndi əqlimin səbri,qərarı qalmadı canın.
Həqiqi cami ləlindən irişdi badeyi eşqə,
Çü anın çeşməsindəndir xəvası abi heyvanın.

• بو شعر نسیمي دیوانیندا (۳-نجوجیلد ، ص.۲٦٤) اونا منسوب اولونوبدور
Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

♣ لندن نوسخه سینده «بوینکدر» London nüsxəsində boyundur

♠ لندن نوسخه سینده « جنانتک » London nüsxəsində cınanındır

♦ لندن نوسخه سینده «پرده زلفینتک » London nüsxəsində pərdə zülfeynin

ای لبنک عینا تسمی سلسبیلی کونکلمونک
وی رخنک شمع هدایتدن دلیلی کونکلمونک
روز خلقتدن مصوّردر جمالنک عینمه
نار حکمتدن منوّردر خلیلی کونکلمونک
چون شهید غمزۀ یارم من آشفته دل
عشق میداننده در کان القتیلی کونکلمونک
حسرتندن وصلننک پیوسته از بهر غمت
جاری در خون جگردن آب نیلی کونکلمونک
استوار ایتدی سنی بر♣ اهل اسلام سلیم
فاعل مطلق که هم اولدی جلیلی کونکلمونک
خاک درگاهنده در کحل بصیری عینمنک
مهر رخسارنده در نور جمیلی کونکلمونک
ای حقیقی عشقلن سر رشته‌در از فضل حق
آتش و باد و هوایی♠ آب و گیلی کونکلمونک

Ey ləbin eynən təsmma səlsəbili könlümün,
Vey rüxün şəmi hidayətdən dəlili könlümün.
Ruzi xilqətdən müsəvvərdir cəmalın eynimə,
Nari hikmətdən münəvvərdir xəlili könlümün.
Çün şəhidi qəmzeyi yarəm məni aşüftə dil,
Eşq meydanındadır kanül qətili könlümün.
Həsrətindən vəslinin peyvəstə əz bəhri qəmət,
Caridir xuni cigərdən abi Nili könlümün.
Üstüvar etdi səni bər ♣ əhli islami səlim,
Faili mütləq ki, həm oldu cəlili könlümün.
Xaki dərgahındadır kəhli bəsiri eynimin,
Mehri rüxsarındadır nuri cəmili könlümün.
Ey Həqiqi, eşq ilən sərriştədir əz fəzli həq,
Atəşü badü həvayi ♠ abü gili könlümün.

♣ لندن نوسخه سینده «بیر» London nüsxəsində bir
♠ لندن نوسخه سینده «هوانک» London nüsxəsində həvadən

گلگل که نور دیدهٔ جمالنکده در سننک
دور قمرده فتنه هلالنکده در سننک
آغزنک چو میم زلف و قاشنک نون و دالمش
کونکلم همیشه اول میم و دالنکده در سننک
ظلمات ایچنده چشمهٔ♣ حیوانمش لبنک
خضرنک حیاتی آب زلالنکده در سننک
آفاقی دوتی عشوهٔ حسننک♠ ملاحتی
اول فتنه‌دن که مردم آلنکده در سننک
تا روز حشر نور هدایت در ای صنم
مصباح لم یزل که جمالنکده در سننک
خطنک حسابنی بیلن اهل خبیره صور
اول آیتی که نقطه‌سی خالنکده در سننک
ایستر حقیقی وصلنکی حقدن بکام دل
آننک مرادی کام وصالنکده در سننک

Gəl gəl ki, nuri didə cəmalındadır sənin,
Dövri qəmərdə fitnə hilalındadır sənin.
Ağzın çü mim, zülfü qaşın nunü dal imiş,
Könlüm həmişə ol mimü dalındadır sənin.
Zülmat içində çeşmeyi♣ heyvan imiş ləbin,
Xızrın həyatı abi zülalındadır sənin.
Afaqı tutdu işvəyi hüsnün♠ məlahəti,
Ol fitnədən ki, mərdümi alındadır sənin.
Ta ruzi həşr nuri hidayətdir, ey sənəm,
Misbahı ləmyəzəl ki, cəmalındadır sənin.
Xəttin hesabını bilən əlhi xəbirə sor,
Ol ayəti ki, nöqtəsi xalındadır sənin.
İstər Həqiqi vəslini həqdən bekami dil,
Onun muradı kami vüsalındadır sənin.

♣ لندن نوسخه سینده «چشممه» — London nüsxəsində çeşmimə
♠ لندن نوسخه سینده « عشوه و عیننک» — London nüsxəsində işvəvü eynin

به تیرغمزه چو قلدنک سینه آماجنک اننک♣
دیلرسه جانمی گل ویرگل احتیاجنک اننک
دلیل شمع رخی اولدی هر کیمه هادی
ازل سراجله یاندردی حق سراجنک اننک
یولنده صدق‌ایله هر کیم بیشرمز اتمگنی
الندن آلدی فلک رزق و نان و ساجنک اننک
جهانی کفریله ایمانه چکدی زلف و رخی
گوتوردی روم ایله چین و ختی خراجنک اننک
طواف کعبه‌یی کوینکدن ایستن عابد
دیلر که بوسه کند دامن حجابنک♠ اننک
غمنده چونکه کونکل اولدی دردلن خسته
طبیب عشقه دیگل کیم قیله علاجنک اننک
حقیقی خاک درنکدن باشنکا تاج ایتدی
فلکده عرشه ملایک یتردی تاجنک اننک

Be tiri qəmzə çü qıldın sinə amacın onun♣ ,
Dilərsə canımı, gəl, vergil ehtiyacın onun.
Dəlili şəmi rüxü oldu hər kimə hadi,
Əzəl səracla yandırdı həq səracın onun.
Yolunda sidq ilə hər kim bişirməz ətməyini,
Əlindən aldı fələk rizqü nanü saçın onun.
Cahanı küfr ilə imanə çəkdi zülfü rüxü,
Gətirdi Rum ilə Çinü Xəta xəracın onun.
Təvafi Kəbeyi kuyindən istəyən abid,
Dilər ki, busə konəd daməni hücabın♠ onun.
Qəmində çünki könül oldu dərdilən xəstə,
Təbibi eşqə degil kim, qıla əlacın onun.
Həqiqi xaki dərindən başına tac etdi,
Fələkdə ərşə məlayik yetirdi tacın onun.

♣ بو شعر تهران نوسخه سینده یوخدور
♠ لندن نوسخه سینده «حجاجنک»

Bu şer Tehran nüsxəsində yoxdur
London nüsxəsində hücacın

شها غمنکده چو دوشدی بیان عشقه کونکل
ایرشدی مرتبه لامکان عشقه کونکل
جفاسنه منی محو ایلدی وفا قیلمز
نه تدبیر ایلیه بو دستان♣ عشقه کونکل
بیر اولدی مشرب توحید عشق لم یزلی
کناره قلمدی دوشدی میان عشقه کونکل
چو کاف و نون ایله کشف اولدی عالم ارواح
محیطه دوشدی باخر• کن فکان عشقه کونکل
گوتوردی پرده رخندن زمانه اول یارنک
قول اولدی تا به ابد بو زبان♠ عشقه کونکل
حیات لم یزلی بولدی جان وصالنکدن♦
یتوردی منزلینی جاودان عشقه کونکل
حقیقی هئیاتی شرح ایلدی جمالنکده
گتوردی منطقی گلدی بیان عشقه کونکل

Şəha, gəmində çü düşdü bəyani eşqə könül,
İrişdi mərtəbeyi laməkani eşqə könül.
Cəfasına məni məhv eylədi, vəfa qılmaz,
Nə tədbir eyləyə bu dəstani ♣ eşqə könül.
Bir oldu məşrəbi tovhidi eşqi ləmyəzəli,
Kənarə qılmadı düşdü miyani eşqə könül.
Çü kafü nun ilə kəşf oldu aləmi ərvah,
Mühitə düşdü baxar kün fəkan eşqə könül.
Götürdü pərdə rüxündən zəmanə ol yarın,
Qul oldu ta be əbəd bu zəbani♠ eşqə könül.
Həyati ləmyəzəli buldu can vüsalından ♦,
Yetirdi mənzilini cavidani eşqə könül.
Həqiqi heyəti şərh eylədi cəmalında,
Götürdü məntiqi gəldi bəyani eşqə könül.

♣ لندن نوسخه سینده «دلستان» — London nüsxəsində dilistani
• لندن نوسخه سینده «بو عجز» — London nüsxəsində bu iczi
♠ لندن نوسخه سینده «زمان» — London nüsxəsində zəmanə
♦ لندن نوسخه سینده «وصالنکده» — London nüsxəsində vüsalında

جام لبنکده چشمهٔ حیوان دیلر کونکل
وصلنک باغنده روضهٔ رضوان دیلر کونکل
دام بلای زلفه نچوک اولمیه اسیر
چون عارضنکده چاه زنخدان دیلر کونکل
درمانی درد ایچنده طلب ایلر اهل دل
بو درد بی نهایته درمان دیلر کونکل
جان ذره وار رقصه گیرر در سماع قول
رخسارنک اوزره مهر درخشان دیلر کونکل
چون هادی زمانه سن اولدنک بو عرصه‌ده
خاک درنکده ملک سلیمان دیلر کونکل
گل‌گل که عینمه شب معراجمش ساچنک
اول استواده صورت♣ رحمن دیلر کونکل
جانن حقیقی قلدی فدا چون جنابنکا
کون و مکانی وصلنکا قربان دیلر کونکل
ای اولین و آخرین♠ وی رهنمای عشق
از لطف بی‌کران تو احسان دیلر کونکل

Cami ləbində çeşmeyi heyvan dilər könül,
Vəslin bağında rövzeyi rizvan dilər könül.
Dami bəlayi zülfə nəçük olmaya əsir,
Çün arinzində çahı zənəxdan dilər könül.
Dərmani dərd içində tələb eylər əhli dil,
Bu dərdi binəhayətə dərman dilər könül.
Can zərrəvar rəqsə girər dər səmai qol,
Rüxsarin üzrə mehri dirəxşan dilər könül.
Çün hadiyi zəmanə sən oldun bu ərsədə,
Xaki dərində mülki Süleyman dilər könül.
Gəl gəl ki, eynimə şəbi merac imiş saçın,
Ol üstuvadə surəti ♣ rəhman dilər könül.
Canın Həqiqi qıldı fəda çün cənabına,
Kövnü məkan vəslinə qurban dilər könül,
Ey əvvəlinü axərin ♠, vey rəhnəmayi eşq,
Əz lütfi bikərani to ehsan dilər könül.

♣ لندن نوسخه سینده «سورة» London nüsxəsində süreyi
♠ لندن نوسخه سینده «آخر و» London nüsxəsində axırüvü

غرۀ♣ عشق اولن کونکل ملتفت جهان دگول
عشقه مقید اولمین طالب لامکان دگل
خلقت خلق عالمنک امری چوکاف و نون‌ایمش
کیم که بو رمزی آنکلمز قابل کن فکان دگل
حکمتننک نشانه‌سی اولدی جهان بو عرصه‌ده
فاعل عشقنک ای کونکل حکمتی بی نشان دگل
سر الست و ربکم قالوابلی ده قول ایمش
کیم که بو قولی بیلمدی خلقتی جاودان دگل
زرق و ریاسی زاهدنک قابل حضرت اولمدی
ظن و گمان ایچنده‌در شبهه‌سی بی‌گمان دگل
گرچه سیمرغ لامکان سنده‌در ای بشر بو گون
نفسنه عارف اولمسه قابل آشیان دگل
عشقی یولنده دلبرنک باشنکی قوی حقیقیا
کیم که بو یولدی باشنی قویمدی جانفشان دگل

Ğəreyi ♣ eşq olan könül mültəfiti cahan deyil,
Eşqə müqqəyəd olmayan talıbı laməkan deyil,
Xilqəti xəlqi aləmin əmri çü kafü nun imiş,
Kim ki, bu rəmzi anlamaz qabili kün fəkan deyil.
Hikmətinin nişanəsi oldu cahan bu ərsədə,
Faili eşqin, ey könül, hikməti binişan deyil.
Sirri əsləstü rəbbiküm qalü bəladə qovl imiş,
Kim ki, bu qovli bilmədi, xilqəti cavidan deyil.
Zərqü riyasi zahidin qabili həzrət olmadı,
Zənnü küman içindədir, şübhəsi biküman deyil.
Gərçi simurqi laməkan səndəndir, ey bəşər, bu gün,
Nəfsinə arif olmasa qabili aşiyan deyil.
Eşqi yolunda dilbərin başını qoy, Həqiqiya,
Kim ki, bu yolda başını qoymadı, canfəşan deyil.

♣ لندن نوسخه سینده « عزه»

London nüsxəsində izzəti

چو سنبلدن اننک پیچ و تاب دوشدی کونکل
توطشدی آتش عشقنده تابه دوشدی کونکل
گورنده آیت رخسارینک اول پری زادنک
حروف وجهلن امّ الکتاب دوشدی کونکل♣
نه وصل ایمش که آننک حسرت و فراقنده
گهی تعشقه گه اضطرابه دوشدی کونکل
گوزمدن آبمی باغرم قانی روان ایلدی
بدست دامن دلبر خضابه دوشدی کونکل
چو اسدی دانک یلی عنبرفشان ساچندن اننک
نسیم مشک‌ایله پس مشک نابه دوشدی کونکل
عتاب و نازایله یاخدی حقیقنی یاری
او اهل نازایله ناز و عتابه دوشدی کونکل
بیر اولدی مشرب توحید عشق لم یزلی
چو واحد ابد ایله خطابه دوشدی کونکل

Çün sünbüldən onun piçü tabə düşdü könül,
Tutuşdu atəşi eşqində tabə düşdü könül.
Görəndə ayəti rüxsarını ol pərizadın,
Hürüfi vəchilən ümmül kitabə düşdü könül ♣.
Nə vəsl imiş ki, onun həsrətü fəraqında,
Gəhi təəşşüqə, gəh iztirabə düşdü könül.
Gözümdən abimi bağrım qanı rəvan eylədi,
Be dəsti daməni dilbər xizabə düşdü könül.
Çü əsdi dan yeli ənbər fəşan saçından onun,
Nəsimi misk ilə pəs mişki nabə düşdü könül.
İtabü naz ilə yaxdı Həqiqini yarı,
O əhli naz ilə nazü tabə düşdü könül.
Bir oldu məşrəbi tövhidi eşqi ləmyəzəli,
Çü vahidi əbəd ilə xitabə düşdü könül.

♣ لندن نوسخه سینده بوبیت یوخدور London nüsxəsində bu beyt yoxdur

سرو اولدی شاه سدرهٔ رضواننکا طفیل
ماء معین چشمهٔ حیواننکا طفیل
تا قلدی مشک نافه ساچنک بوینه نثار
مهتاب اولدی شمع شبستاننکا طفیل
عالمده شاه حسن سنی قلدی چون آله
خوبان اولدی صورت رحماننکا طفیل
ریحان و یاسمن و گلستان و ارغوان
گلزار ایچنده غنچهٔ خنداننکا طفیل
آب حیاته جام لبنکدن ایرشدی خضر
ظلمات اولدی زلف پریشاننکا طفیل
هر سالکنک که مسکنی کویندر ای قمر
قلدی جهانی مهر درخشاننکا طفیل
چون خسرو حقیقی سن اولدنک زمانیه
آفاق اولدی حکم سلیماننکا طفیل

Sərv oldu şahı sidrə rizvanına tüfeyl,
Mai müin çeşmeyi heyvanına tüfeyl.
Ta qıldı miski nafə saçın buyinə nisar,
Məhtab oldu şəmi şəbistanına tüfeyl.
Aləmdə şah hüsn səni qıldı çün ilah,
Xuban oldu surəti rəhmanına tüfeyl.
Reyhanü yasəmənü gülüstanü ərğəvan,
Gülzar içində ğünçeyi xəndanına tüfeyl.
Abi həyata camı ləbindən irişdi Xızr,
Zülmat oldu zülfi pərişanına tüfeyl.
Hər salikin ki, məskəni kuyindədir, ey qəmər,
Qıldı cahanı mehri dirəxşanına tüfeyl.
Çün xosrovi Həqiqi sən oldun zəmanəyə,
Afaq oldu hökmi Süleymanına tüfeyl.

عشقنک یولنده من منکا تقصیر بیلمزم
عشقنکدن اوزگه جانمه تاثیر بیلمزم
تقدیر لم یزل منی قول ایلدی سنکا
تقدیر ایچنده شمّه تغییر بیلمزم
ای نکتهٔ حقیقت عشقه مرید اولن
گل‌گل که سندن اوزگه داخی پیر بیلمزم
تزویر و زرق زاهد کج رودن اولدی فاش
من رند عاشقم غم تزویر بیلمزم
تا گورمشم جمال رخ بی مثالنکی
تکبیر قلمشم دیمه تکبیر بیلمزم
یاخدی حقیقنی غم عشقنک فراق ایله
وصلنکدن آیرو چاره و تدبیر بیلمزم

Eşqin yolunda mən mənə təqsir bilməzəm,
Eşqindən özgə canıma təsir bilməzəm.
Təqdiri ləmyəzəl məni qul eylədi sənə,
Təqdir içində şəmmeyi təğyir bilməzəm.
Ey nükteyi həqiqəti eşqə mürid olan,
Gəl gəl ki, səndən özgə dəxi pir bilməzəm.
Təzviru zərq zahidi kəcrodən oldu faş,
Mən rindi aşiqəm gəmi təzvir bilməzəm.
Ta görmüşəm cəmalı rüxi bimisalini,
Təkbir qılmışam demə, təkbir bilməzəm.
Yaxdı Həqiqini ğəmi eşqin fəraq ilə,
Vəslindən ayrı çarəvü tədbir bilməzəm.

من دل شکسته‌دن بو گون او♣ یاره‌در سلام
تا روز حشر اول بت عیاره‌در سلام
عشقه وفا و جوره تحمل فراقه صبر
اول اهل عشقه یار وفاداره‌در سلام
دارالخلودایمش منکا اول حضرت و جناب
دارالخلوده حضرت دلداره‌در سلام
اولدی بهار اچلدی گلستان و مرغزار
گلزار ایچنده اول رخ و گلناره‌در سلام
من رند لاابالی و او ♣ مست باده‌کش
میخانه‌لرده خمر ایله خماره‌در سلام
یارندن آیرو یاندی حقیقی فراق ایله
کوی وصاله اول بت عیاره‌در سلام

Məni dilşikəstədən bu gün o ♣ yarədir salam,
Ta ruzi həşr ol büti əyyarədir salam,
Eşqə vəfavü cüvrə təhəmmül, fəraqə səbr,
Ol əhli eşqə, yari vəfadarədir salam.
Darülxülüd imiş mənə ol həzrətü cənab,
Darülxülüdə, həzrəti dildarədir salam.
Oldu bahar, açıldı gülüsatanü mərqzar,
Gülzar içində ol rüxü gülnarədir salam.
Mən rindi laübalivü o ♣ məsti badəkeş,
Meyxanələrdə xəmr ilə xümmarədir salam.
Yarından ayrı yandı Həqiqi fəraq ilə,
Küyi vüsalə ,ol büti əyyarədir salam.

♣ لندن نوسخه سینده «اول»

London nüsxəsində ol

Gəl gəl ki, səndən ayrı daxı yar bilmənəm,
Bigülşəni vüsali to gülzar bilmənəm.
Vermən bu çərxi kəcrovi ğəddarə könlümü,
Ol təcərüdəm♣ ki, aləmi ğəddar bilmənəm.
Eşqin qədimü mehri rüxün layəzal imiş,
Mən mundan♠ özgə nükteyi əsrar bilmənəm.
Xəmri ləbindən əsirmişəm, ya ze xumari mey,
Xəmri ləbin kimi dəxi xümmar bilmənəm.
Mənsurvar gərçi məni darə çəksələr,
Darüşəfa derəm mən, anı, dar bilmənəm.
Gər goymuşam libasımı meyxanədə girov,
Sərməsti badəyəm, sərü dəstar bilmənəm.
Şəmi rüxündə canımı pərvanə qılmışam,
Ol narə düşmüşəm, dəxi mən nar bilmənəm.
Peyvəstə qaşların kimi mehrabə baxmanam,
Məstanə gözlərin kimi əyyar bilmənəm.
Şərhi ləbin çü nitqə gətirdi Həqiqini ,
Mən mundan♦ özgə nitqi dürərbar bilmənəm.

♣ London nüsxəsində təcridəm
♠ London nüsxəsində bundan
♦ London nüsxəsində bundan

گل گل که سندن آیرو داخی یار بیلمنم
بی گلشن وصال تو گلزار بیلمنم
ویرمن بو چرخ کجرو غداره کونکلمی
اول تجردم♣ که عالم غدار بیلمنم
عشقنک قدیم و مهر رخنک لایزال‌ایمش
من موندن♠ اوزگه نکتهٔ اسرار بیلمنم
خمر لبنکدن اسریمشم یا ز خمار می
خمر لبنک کمی داخی خمار بیلمنم
منصوروار گرچه منی داره چکسلر
دار الشفا دیرم من آنی دار بیلمنم
گر قویمشم لباسمی میخانده گرو
سرمست باده ام سر و دستار بیلمنم
شمع رخنده جانمی پروانه قلمشم
اول ناره دوشمشم داخی من نار بیلمنم
پیوسته قاشلرنک کمی محرابه باخمنم
مستانه گوزلرنک کمی عیار بیلمنم
شرح لبنک چو نطقه گتوردی حقیقنی
من موندن♦ اوزگه نطق درر بار بیلمنم

♣ لندن نوسخه سینده «تجریدم»
♠ لندن نوسخه سینده «بوندن»
♦ لندن نوسخه سینده « بوندن»

Ta nuri didə ol rüxi gülnarı bilmişəm,
Misbahi ləmyəzəl mən o didari bilmişəm.
Kövnü məkani vermişəm onun vüsalına,
Bazari eşq içində bu bazari bilmişəm.
Təfsir qılmışam xətü xalın kitabını,
Ol arifəm ki, nükteyi əsrari bilmişəm.
Ğərq olmuşam ğəmində fərağin cəfasına,
Çün vəsli ləmyəzəl, mən o gülzarı bilmişəm.
Ey gövhərin həqiqəti nitqindən aşikar,
Şükr eylərəm ki, nitqi göhərbarı bilmişəm.
Canü cahanı vəslinə şükranə qılmağa,
Naseh mənə sən olma, mən ol karı bilmişəm.
Ta zülfi piçü tab ilə sevdaya düşmüşəm,
Dami bəladə türreyi tərrarı bilmişəm.
Ey surətin təcellisi ənvarı könlümün,
Xurşidi ləmyəzəl, mən o rüxsarı bilmişəm.
Yar oldu çün Həqiqiyə yarın ğəmi bu gün,
Yarın ğəmində dərd ilə həm yarı bilmişəm.

تا نور دیده اول رخ گلناری بیلمشم
مصباح لم یزل من او دیداری بیلمشم
کون و مکانی ویرمشم اننک وصالنه
بازار عشق ایچنده بو بازاری بیلمشم
تفسیر قلمشم خط و خالنک کتابنی
اول عارفم که نکتهٔ اسراری بیلمشم
غرق اولمشم غمنکده فراقنک جفاسنه
چون وصل لم یزل من او گلزاری بیلمشم
ای گوهرنک حقیقتی نطقنکدن آشکار
شکر ایلرم که نطق گهرباری بیلمشم
جان و جهانی وصلنکا شکرانه قلمغه
ناصح منکا سن اولمه من اول کاری بیلمشم
تا زلف پیچ و تاب‌ایله سودایه دوشمشم
دام بلاده طرهٔ طراری بیلمشم
ای صورتنک تجلیسی انواری کونکلمنک
خورشید لم یزل من او رخساری بیلمشم
یار اولدی چون حقیقیه یارنک غمی بو گون
یارنک غمنده درد ایله هم یاری بیلمشم

Yüzün kitabına ta ayəti ilah dedim,
Cənabi həzrətini canıma pənah dedim.
Mücərrəd eylədi eşqin məni zəmanədə çün,
Nə fikri dünyavü üqba, nə izzü cah dedim.
Ayağına yüzümü qoydum♣ əz səri ixlas,
Məni gədavü səni padişahü şah dedim.
Düşəndə gülşəni vəchindən ayrı bülbüli can,
Saçın kimi mən onun bəxtini siyah dedim.
Sən oldun əvvəlü axırda çün mənə hadi,
İki cahanda səni halıma güvah dedim.
Təcəlli qıldı cəmalında vahibi surət,
Bu mənidən sənə mən məzhəri ilah dedim.
Götürdü pərdə yüzündən hicab zülfeynin,
Ğulami hüsni rüxün oldu mehrü mah dedim.
Tutuşdu çərxü fələk birlə asimanü zəmin,
O dəm ki, fiqəti eşqin ğəmindən ah dedim.
Həqiqiyəm ki, bu dövrü mədar içində səni,
Səriri səltənət üstündə padişah dedim.

♣ London nüsxəsində saldım.

یوزنک کتابنه تا آیت اله دیدم
جناب حضرتنکی جانمه پناه دیدم
مجرد ایلدی عشقنک منی زمانه‌ده چون
نه فکر دنیی و عقبی نه عز و جاه دیدم
ایاغنکا یوزمی قویدم* از سر اخلاص
منی گدا و سنی پادشاه و شاه دیدم
دوشنده گلشن وجهنکدن آیرو بلبل جان
ساچنک کمی من آننک بختنی سیاه دیدم
سن اولدنک اول و آخرده چون منکا هادی
ایکی جهانده سنی حالمه گواه دیدم
تجلّی قلدی جمالنکده واهب صورت
بو معنی دن سنکا من مظهر آله دیدم
گوتردی پرده یوزنکدن حجاب زلفنک
غلام حسن رخنک اولدی مهر و ماه دیدم
توطشدی چرخ و فلک بیرله آسمان و زمین
او دم که فرقت عشقنک غمیندن اه دیدم
حقیقیم که بو دور و مدار ایچنده سنی
سریر سلطنت اوستنده پادشاه دیدم

---

* لندن نوسخه سینده «سالدیم»

Çəməndə sərvi qədintək çinar görməmişəm,
Rüxün kimi səməni gülüzar görməmişəm.
Əzəl günündə sənin eşqin ilə ta be əbəd,
Mənim kimi dəxi bir biqərar görməmişəm.
Fəraqü dərdü ğəmindən nə fikrim ola mənim,
Çü sən təki sənəmi ğəmgüsar görməmişəm.
Kənarə qılmamışam eşq ilə ze ruzi əzəl,
Miyani eşqə düşəndən kənar görməmişəm.
Cəmali hüsnünə ayinədir zəmiri münir,
Cəmalın ayinəsində ğubar görməmişəm.
Saçın səlasili dami bəlayə saldı məni,
Bu dami hicri bəladən güzar görməmişəm.
Saçın kimi Xütəni mişkbara baxmamışam,
Rüxün kimi çəmənü mərğzar görməmişəm.
Apardı səbrü qərarımı ol qara gözlər,
Özümdə mən dəxi səbrü qərar görməmişəm.
Həqiqiyəm ki, bu dövrü mədar içində bu gün,
Bu hüsn ilə sənəmi ruzigar görməmişəm.

چمنده سرو قدنک تک چنار گورممشم
رخنک کمی سمن گلعذار گورممشم
ازل گوننده سننک عشقنک ایله تا بابد
منم کیمی داخی بیر بیقرار گورممشم
فراق درد و غمنکدن نه فکرم اوله منم
چو سن تکی صنم غمگسار گورممشم
کناره قلمشم عشق ایله ز روز ازل
میان عشقه دوشندن کنار گورممشم
جمال حسننکا آینه‌در ضمیر منیر
جمالنک آینه‌سنده غبار گورممشم
ساچنک سلاسلی دام بلایه صالدی منی
بو دام هجر بلادن گذار گورممشم
ساچنک کمی ختن مشکبار باخممشم
رخنک کمی چمن مرغزار گورممشم
اپاردی صبر و قرارمنی اول قرا گوزلر
اوزمده من داخی صبر و قرار گورممشم
حقیقیم که بو دور و مدار ایچنده بوگون
بو حسن ایله صنم روزگار گورممشم

سحرده سنبل زلفنکدن اسدی باد نسیم
حیات لم یزلی طاپدی استخوان رمیم
وصال جنتنکا واصل اولمدی زاهد
انایت دن انکا مسکن اولدی نار جحیم
حروف آیتی صد بار قلمشم تکرار
ساچنکله قاشنکا تشبیه اولنده نون ایله جیم
بو وجهلن که سنی خلقت ایلمش خالق
نه احتیاج اوله بو حسن و صورته تعظیم
حیات لم یزله واصل اولمدی ابدی
یولنده جاننی هرکیم که قلمدی تسلیم
فرس کنارۀ فیلدن گچر رخه قارشو
پیاده سورمگی فرزینه شاه ایدر تعلیم
نثار قلمغه عشقنک یولنده جان و جهان
طریقت اهلنه احتیاج اولمیه تکلیم
حقیقیه سنی محبوب قلدی خالق خلق
او دم که خلقت عالمنی ایلدی تقسیم

Səhərdə sünbüli zülfündən əsdi badi nəsim,
Həyati ləmyəzəli tapdı üstüxani rəmim.
Vüsali cənnətinə vasil olmadi zahid,
İnayətindən ona məskən oldu nari cəhim.
Hürufi ayəti səd bar qılmışam təkrar,
Saçınla qaşına təşbih olanda nun ilə cim.
Bu vəchilən ki, səni xilqət eyləmiş xaliq,
Nə ehtiyac ola bu hüsnü surətə təzim.
Həyati ləmyəzələ vasil olmadı əbədi,
Yolunda caını hər kim ki, qılmadı təslim.
Fərəs kənarəyə fildən keçər ruxa qarşı,
Piyada sürməyi ferzinə şah edər təlim.
Nisar qılmağa eşqin yolunda canü cahan,
Təriqət əhlinə ehtiyac olmaya təklim.
Həqiqiyə səni məhbub qıldı xaliqi xəlq,
O dəm ki, xilqət aləmni eylədi təqsim.

تا ازلدن دوشدی اول یاریله بازارم منم
فرقتندن عرشه چخدی نالهٔ زارم منم
راز عشقنک جانمنک ایچنده ساخلردم ولی
عاقبت فاش اولدی گیزلو گنج اسرارم منم
دلبرنک یولنده قربان اولمغه ای متقی
اولمگل ناصح که وار و اونده اقرارم منم
اول♠ مکرم پاکیزه گوهر که یوخدر قیمتی
کیم درر عالمده اول یار وفادارم منم
روضهٔ رضوان معطر اولدی از بوی لبش
تا گل خنداننی گورستدی گلزارم منم
سندن ایرو اولمسون یارب بو چرخ روزگار
گل که سنسن دنیی و عقبی ده دلدارم منم
چون حقیقی گوردی اول معشوقه‌ننک رخسارنی
دولت و اقباله یتدی بخت بیدارم منم

Ta əzəldən düşdü ol yar ilə bazarım mənim,
Firqətindən ərşə çıxdı naleyi zarım mənim.
Razi eşqin canımın içində saxlardım vəli,
Aaqibət faş oldu gizli kənci əsrarım mənim.
Dilbərin yolunda qurban olmağa, ey müttəqi,
Olmagil naseh ki, vardir onda iqrarım mənim.
Ol ♠ mükərrəm pakizə gövhər ki, yoxdur qiyməti,
Kimdurur aləmdə ol yari vəfadarım mənim.
Rövzeyi rizvan müəttər oldu əz buyi ləbəş,
Ta güli xəndanını görsətdi gülzarım mənim.
Səndən ayrı olmasın, yarəb, bu çərxi ruzigar,
Gəl ki, sənsən dünyavü üqbadə dildarım mənim.
Çün Həqiqi gördü ol məşuqənin rüxsarini ,
Dövlətü iqbalə yetdi bəxti bidarım mənim.

London nüsxəsində şol

♠ لندن نوسخه سیندهر «شول»

Əzəldə çün səni bir yari məhliqa demişəm,
Hezar canü dili eşqinə fəda demişəm.
Gözünlə mərdümini fitneyi zəmanə bilib,
Saçın səlasilinə həlqeyi bəla demişəm.
Bu canə mehri rüxün dilpəzir olanda sənin,
Onun şüainə vəşşəmşü vəzzüha demişəm.
Pənah qılmışam ol asitani dövlətə mən,
Xudast şahidi haləm ki, biriya demişəm.
Hidayət endi♠ sənin şəninə ze fəzli ilah,
Bu mənidən sənə mən xətmi ənbiya demişəm.
Vüsali eşqi rüxün gənc imiş nəhayətsiz,
Viranə könlümü ol gəncə aşina demişəm.
Həyati ləmyəzəli bulmuşam vüsalından♣,
Ləbində çeşmeyi heyvanə canfəza demişəm.
Səni yeganə məqsudi kainat bilib,
Vücüdi zatına həm sayeyi xuda demişəm.
Həqiqivar ğəmində bimari hicr olana,
Hədisi ləli şəkərbarını şəfa demişəm.

♠ London nüsxəsində etdi.
♣ London nüsxəsində vüsalında.

ازلده چون سنی بیر یارِمَه لقا دیمشم
هزار جان و دلی عشقنکا فدا دیمشم
گوزنکله مردمنی فتنهٔ زمانه بیلوب
ساچنک سلاسلنه حلقه بلا دیمشم
بو جانه مهر رخنک دلپذیر اولنده سننک
اننک شعاعنه والشمس والضحی دیمشم
پناه اگر قلمشم اول آستان دولته من
خداست شاهد حالم که بی ریا دیمشم
هدایت ایندی♠ سننک شاننکا ز فضل آله
بو معنی دن سنکا من ختم انبیاء دیمشم
وصال عشق رخنک گنجمش نهایت سیز
ویرانه کونکلمی اول گنجه آشنا دیمشم
حیات لم یزلی بولمشم وصالنکدن♣
لبنکده چشمهٔ حیوانه جانفزا دیمشم
سنی یگانهٔ مقصود کاینات بیلوب
وجود ذاتنکه هم سایهٔ خدا دیمشم
حقیقی وار غمنکده بیمار هجر اولنه
حدیث لعل شکربارنکی شفا دیمشم

♠ لندن نوسخه سینده «ایندي»
♣ لندن نوسخه سینده «وصالمکده»

Dilbəra, eşqin yolunda naleyi zar etmişəm•,
Cənnəti vəslindən ayrı tərki gülzar etmişəm.
Mundan ayruğ♣ mən dəxi cövrə təhmmül qılmazam,
Gərçi mən səd cövr ilən ol yarə iqrar etmişəm.
Küfrü iman şərhini ta bilmişəm elmül yəqin,
Olmuşam imanə yoldaş, küfrə inkar etmişəm.
Olmasın ruzi vüsali cənnəti vəslin mənə,
Dünyavü üqbadə səndən özgə gər yar etmişəm.
Daneyi xalın xəyalından məni aşüftə dil,
Mürği cani dami zülfündən♠ giriftar etmişəm.
Dəviyi zikri ənəlhəq qılmışam Mənsurvar,
Bər səri darı məhəbbət gör nə güftar etmişəm.
Sahibi Kəşşafə məntiqdən məani sormuşam,
Elmi heyətdən bəyanü şərhi təkrar etmişəm.
Görmüşəm rüxsarını rövşən zəmiri çeşm ilə,
Naziri hüsn olmuşam bəs kəsbi didar etmişəm.
Qılmışam canü cəhan şükranə yarin vəslinə,
Zi ticarət kim, məlik mülkundə bazar etmişəm.
Nafizül cavid vəhdət oldu ruhi qüdsiyan,
Mən bu zati xilqətin nəfsində zinhar etmişəm.
Çün Həqiqi, bilmişəm sirri kəlamüllahi mən,
Həmdilillah ki♦, bu elmi kəşfi əsrar etmişəm.

• Nəsimi divanının Bakı nəşrində ilk on beyit ona aid olunubdur.
♣ London nüsxəsində ayrux
♠ London nüsxəsində zülfündə
♦ London nüsxəsində kim

دلبرا عشقنک یولنده نالهٔ زار ایتمشم•
جنت وصلنکدن آیرو ترک گلزار ایتمشم
موندن آیروغ♣ من داخی جوره تحمل قلمزم
گرچه من صد جورایلن اول یاره اقرار ایتمشم
کفر و ایمان شرحنی تا بیلمشم علم الیقین
اولمشم ایمانه یولداش کفره انکار ایتمشم
اولمسون روزی وصال جنت وصلنک منکا
دنیی و عقبی ده سندن اوزگه گر یار ایتمشم
دانهٔ خالنک خیالندن من آشفته دل
مرغ جانی دام زلفنکدن♠ گرفتار ایتمشم
دعوی ذکر انا الحق قلمشم منصوروار
بر سر دار محبت گور نه گفتار ایتمشم
صاحب کشّافه منطقدن معانی صورمشم
علم هئیاتدن بیان و شرح تکرار ایتمشم
گورمشم رخسارنکی روشن ضمیر چشم ایله
ناظر حسن اولمشم بس کسب دیدار ایتمشم
قلمشم جان و جهان شکرانه یارنک وصلنه
زی تجارت کیم ملک ملکنده بازار ایتمشم
نافذ الجاوید وحدت اولدی روح قدسیان
من بو ذات خلقتنک نفسنده زنهار ایتمشم
چون حقیقی بیلمشم سر کمال اللهی من
حمدالله که♦ بوعلمی کشف اسرار ایتمشم

• بو شعرین ۱۰ بیتی نسیمی دیوانیندا (۳-نجو جیلد ،.ص.۷۸) اونا منسوب اولونوبدور.
♣ لندن نوسخه سینده «آیروخ»
♠ لندن نوسخه سینده «زلفنکده»
♦ لندن نوسخه سینده «کیم»

دنیی و عقبی ده من یار اول نگاری بیلمشم
کونکلمنک مقصودی هم اول گلعذاری بیلمشم
ایچمشم جام♣ لبندن لایزالنک خمرنی
مست جاویدم شراب بی خماری بیلمشم
جنت الماوی نگارنک مرغزار وصلی در
مرغ زارم کیم وصال مرغزاری بیلمشم
لوح محفوظنکده‌در حشرنک حسابندن شمار
حاسب عشق اولمشم من اول شماری بیلمشم
تا مرید اولدم سر کوینده من اول دلبرنک
پیر عشقم که طریق روزگاری بیلمشم
خاک درگاهنده در کحل بصیرت عینمه
اولمشم بینای حق نور اول غباری بیلمشم
چون حقیقی صالمشم باش اول نگارنک پاینه
حمدلله که جناب شهریاری بیلمشم

Dünyavü üqbadə mən yar ol nigarı bilmişəm,
Könlümün məqsudi həm ol gülüzarı bilmişəm.
İçmişəm cami ♣ ləbindən layəzalın xəmrini,
Məsti cavidəm, şərabi bixumari bilmişəm.
Cənnətül məva nigarın mərğizari vəslidir,
Mürği zarəm kim, vüsali mərğizari bilmişəm.
Lövhi məhfuzindədir həşrin hesabindan şumar,
Hasibi eşq olmuşam, mən ol şumarı bilmişəm.
Ta mürid oldum səri kuyində mən ol dilbərin,
Piri eşqəm ki, təriqi ruzigarı bilmişəm.
Xaki dərgahındadır kəhli bəsirət eynimə,
Olmuşam binayi həq, nur ol ğubarı bilmişəm.
Çün, Həqiqi, salmışam baş ol nigarın payinə,
Həmdilillah ki, cənabi şəhriyarı bilmişəm.

♣ لندن نوسخه سینده «یارنک»

London nüsxəsində yarın

او رخنک شمعینه چون جانمی پروانه دیدم♣
یاخدی یاندردی منی آتش هجرانه دیدم
نئچه زاهدلری پا بند بلا قیلدی ساچی
نئچه آشفته‌لری چکدی او زندانه دیدم
یوزونک آیتینین اولی چون فاتحه دیر
یاز اونک حرفینی سرنامه قرآنه دیدم
قیلمیشام قامتینی سیدرهٔ رضوانه مثال
عاشقم جان ایله اول سیدرهٔ رضوانه دیدم
قدم خاک دریندن یوزومی ائتمه‌ن ایراق
زهی دولت که من او رازیمی سلطانه دیدم
عشوه غمزه‌لری غارت دین ائیله‌ر ایمان
که من او عینه نئچون کافر تورکانه دیدم
ای حقیقی بو ملاحت که رخ یاره‌دیر
یاخدی حسرت غمیلن باغریمی بریانه دیدم

O rüxün şəminə çün canımı pərvanə dedim ♣,
Yaxdı yandırdı məni atəşi hicranə dedim.
Neçə zahidləri pabəndi bəla qıldı saçı,
Neçə aşüftələri çəkdi o zindanə dedim.
Yüzünün ayətinin əvvəli çün fatihədir,
Yaz onun hərfini sərnameyi Quranə dedim.
Qılmışam qamətini sidreyi rizvanə misal,
Aşiqəm can ilə ol sidreyi rizvanə dedim.
Qədəmi xaki dərindən yüzümü etmən iraq,
Zehi dövlət ki, mən o razımı sultanə dedim.
İşveyi ğəmzələri ğarəti din eylər iman,
Ki, mən o eynə neçün kafəri Türkanə dedim.
Ey Həqiqi, bu məlahət ki, rüxi yaridədir,
Yaxdı həsrət ğəmilən bağrımı büryanə dedim.

♣ تهران نوسخه سینده بو شعر یوخدور — Bu şer Tehran nüsxəsində yoxdur

Zehi can ki, bu ciyər qanına boyanə dedim ♣,
Afərin ol tənə ki, eşq oduna yanə dedim.
Kim ki, can qılmadı ol dilbəri əyyarə nişan ♠,
Yaxdı həsrət ğəmilə bağrımı büryanə dedim.
Nəfsi şəhvət pərəstin felinə aldanma könül,
Ki, ziyan eylər anın illəti insanə dedim.
Zöhdu təqva xəbərin abidi rəbbniyə sor,
Oxu ol ayəti kim həq dedi men kanə,dedim.
Fələkin hişmətü əndişəsinin tərkini qıl,
Özünü salma bu ğəddar ilə üsyanə dedim.
Xəlvətü yar dedim badeyi gülrəngi lətif,
Hər nə ♦ ki, yarə dedim, mən anı rindanə dedim.
Qətreyi yaquti canpərvərinin cürəsini,
Əzəli eşq şərabından içən canə dedim.
Qıldı biganə məni vəslinə həmsayeyi hicr,
Bu səbəbdən mən ona bidilü biganə dedim.
Çün onun xalü rüxi qoydu mənim canıma dağ,
Zehi dövlət kim, onun dağilə can yanə dedim.
Ahü fəryadını bu aşiqi aşüftə dilin,
Qaməti sidre, ləbi çeşmeyi heyvanə dedim.

♣ Tehran nüsxəsində bu şer yoxdur, burada Irevan nüsxəsi esasinda qeyd olunubdur.
♠ London nüsxəsində nisar
♦ London nüsxəsində hər çe

زهی جان که بو جگر قاننکا بویانه دیدم ♣
آفرین اول تنه که عشق اودنکا یانه دیدم
کیم که جان قیلمدی اول دلبر عیاره نشان♦
یاخدی حسرت غمیله باغرمی بریانه دیدم
نفس شهوت پرستین فعلنه آلدانمه کونکل
که زیان ایلر آننک علتی انسانه دیدم
زهد و تقوا خبرنک عابد ربانیه صور
اوخو اول آیتی کیم حق دئدی من کان دیدم
فلکنک حشمت و اندیشه‌سننک ترکنی قیل
اوزنی سالمه بو غدار ایله عصیانه دیدم
خلوت و یار دیدیم بادی گلرنگ لطیف
هرنه♠ که یاره دیدیم من آنی رندانه دیدم
قطرهٔ یاقوت جان پرورننک جرعه‌سنکی
ازلی عشق شرابندن ایچن جانه دیدم
قیلدی بیگانه منی وصلنه همسایه هجر
بو سببدن من اونه بیدل و بیگانه دیدم
چون اننک خال و رخی قویدی منم جانمه داغ
زهی دولت کیم اونون داغیله جان یانه دیدم
آه و فریادنی بو عاشق آشفته دلنک
قامتی سیدره لبی چشمه حیوانه دیدم

♣ تهران نوسخه سینده بو شعر یوخدور. ایروان نسخه سي اساسیندا بورادا قئید اولونوبدور.
♦ لندن نوسخه سینده «نثار»
♠ لندن نوسخه سینده « هرچه»

زلفنکدن آیرو دام بلایه بلا دیمن
اول دامه من منم کمی بیر مبتلا دیمن
زاهد بغیر زهد چو بیلمز طریق عشق
یوخدر صفاسی من آنکا اهل صفا دیمن
ای خسرو زمانه‌ده حسن ایله خوبلرنک
شاه جهانی حضرتنکا بیر گدا دیمن
صبر ایتمین وفاده نگارنک جفاسنه
اول بیوفایه بیل که من اهل وفا دیمن
ای دردمنک دواسی لبنک عین کوثری
وصلنکدن آیرو جنته دارلشفا دیمن
محفوظ لم‌یزل خط و خالنک در عاشقه
عارف بیلور که من بو سوزمده خطا دیمن
چکدی حقیقنی سر زلفنک کمندنه
دام بلایه صالدی و دام بلا دیمن

Zülfündən ayrı damı bəlayə bəla demən,
Ol damə mən mənim kimi bir mübtəla demən.
Zahid beğeyri zühd çü bilməz təriqi eşq,
Yoxdur səfasi mən anə əhli səfa demən.
Ey xosrovi zəmanədə hüsnilə xublərin,
Şahı cahanı həzrətinə bir gəda demən.
Səbr etməyən vəfadə nigarın cəfasına,
Ol bivəfayə bil ki,mən əhli vəfa demən.
Ey dərdimin davasi ləbin eyni kövsəri,
Vəslindən ayrı cənnətə darülşəfa demən.
Məhfüzi ləmyəzəl xətü xalındır aşiqə ,
Arif bilir ki, mən bu sözümdə xəta demən.
Çəkdi Həqiqini səri zülfün kəməndinə ,
Dami bəlayə saldıvü dami bəla demən.

او حسن ایله خط و خاله تحسین
اول مصحف لایزاله تحسین
اول آب حیات جانفزایه
اول چشمهٔ ذوالجلاله تحسین
عارف دگل اول که قلدی دایم
بو دنیی و ملک و ماله تحسین
آل ایلدی فتنه قلدی عیننک
اول فتنه‌لو عین و آله تحسین
اول قامت سدره الجنانه
اول نون ایله میم و داله تحسین
شول قرصهٔ آفتاب ایچنده
کیم قلمیه اول هلاله تحسین
هر کیم که حقیقی اولدی قلدی
اول زلف ایله خط و خاله تحسین

O hüsn ilə xətü xalə təhsin,
Ol müshəfi layəzalə təhsin.
Ol abi həyatı canfəzayə,
Ol çeşmeyi zülcəlalə təhsin.
Arif deyil ol ki, qıldı daim,
Bu dünyavü mülkü malə təhsin.
Al eylədi fitnə qıldı eynin,
Ol fitnəli eynü alə təhsin.
Ol qaməti sidrətül cinanə,
Ol nun ilə mimü dalə təhsin.
Şol qürseyi aftab içində,
Kim qılmaya ol hilalə təsin?
Hər kim ki, Həqiqi oldu, qıldı,
Ol zülf ilə xəttü xalə təhsin.

جمالنک شمعنه هر شب دوشر مهتاب روزندن
چون آننک آفتابندن دوشبدر تاب روزندن
معنبر زلف پرچیننک گلور باد صبا بیرله
بحلق دردمندانت صالور قلاب روزندن
غم و دردنکدن ای دلبر اگر آه ایلسم در دَم
ز اشگ دیدهٔ مردم آخر سیلاب روزندن
ساچنک ظلنده رخسارنک که نور جاودان اولدی
بو حسرت دَن صالور چتر فلک اطناب روزندن
حقیقی آستاننکدن تمنا چون وصال ایتدی
تجلی حقیقتدن آچلدی باب روزندن

Cəmalın şəminə hər şəb düşər məhtab rovzəndən,
Çün onun aftabından düşübdür tab rovzəndən.
Müənbər zülfi pürçinin gəlir badi səba birlə,
Behəlqi dərdməndanət salur qullab rovzəndən.
Ğəmü dərdindən,ey dilbər, əgər ah eyləsəm dər dəm,
Ze əşki dideyi mərdüm axar seylab rovzəndən.
Saçın zillində rüxsarın ki, nuri cavdan oldu,
Bu həsrətdən salur çətri fələk itnab rovzəndən.
Həqiqi astanından təmənna çün vüsal etdi,
Təcəllaye həqiqətdən açıldı bab rovzəndən.

گل گل که سومشم سنی جانانه‌لرده من♣
جان اوینرم یولنده بو دیوانه‌لرده من
ویرانه کونکلمی غم عشق ایتدی چون مکان
بس گنج بولمشم دل ویرانه‌لرده من
هر تشته‌ننک که جانی مصفا لبنک دگل
ایچمن حیات آبنک او پیمانه‌لرده من
شیرین غمنده جانمی تسلیم قیلمشم
خسرو حکایتنک دیمن افسانه‌لرده من
چون خانقاه و مدرسه و زاهدست و شیخ
حقدن مراد ایسترم اول خانه‌لرده من
بیگانه کیمدرر کیم انکا آشنا دییم
یا اولام آشنا دل بیگانه‌لرده من
یاخدی حقیقی جاننی شمع رخنکده چون
یاندم بو آه و سوزایله پروانه‌لرده من

Gəl gəl ki, sevmişəm səni cananələrdə mən ♣,
Can oynaram yolunda bu divanələrdə mən.
Viranə könlümü gəmi eşq etdi çün məkan,
Bəs gənc bulmuşam dili viranələrdə mən.
Hər teşnənin ki, cani müsəffa ləbin deyil,
İçmən həyat abın o peymanələrdə mən.
Şirin ğəmində canımı təslim qılmışam,
Xosrov hekayətin demən əfsanələrdə mən.
Çün xaneqahü mədrəsəvü zahidəstü şeyx,
Həqdən murad istərəm ol xanələrdə mən.
Biganə kimdürür kim ona aşina deyəm,
Ya olam aşina dili biganələrdə mən.
Yaxdı Həqiqi canını şəmi rüxündə çün,
Yandım bu ahü suz ilə pərvanələrdə mən.

♣ تهران نوسخه سینده بو شعر یوخدور — Bu şer Tehran nüsxəsində yoxdur

خسرو خوبان بو گون سن یاری دیرلر عالمه
حسن یوسف سن رخی گلناری دیرلر عالمه
چون ایکی عالمده سنسن مردم عینمده نور
عاشقنک مقصودنی♣ اول دیداری دیرلر عالمه
خضر عشقنک چشمهٔ حیوانینک ماهیتن
لبلرنک یاریدن آخن یاری♠ دیرلر عالمه
گرچه توکدی قانمی دورنده عشقنک♦ فتنه‌سی
کافر خونریز اول مکاری دیرلر عالمه
من دل آشفته‌ننک پیوسته آه و ناله‌سین
ز آرزوی سن بت عیاری دیرلر عالمه
چون حقیقی دولت بیدار بولدی یاریلن
عارف و آزاده او بیداری دیرلر عالمه

Xosrovi xuban bu gün sən yari derlər aləmə,
Hüsni yüsif sən rüxi gülnarı derlər aləmə.
Çün iki aləmdə sənsən mərdümi eynimdə nur,
Aşiqin məqsudini ♣ ol didarı derlər aləmə.
Xızri eşqin çeşmeyi heyvanının mahiyyətin,
Ləblərin yarından axan yarı ♠ derlər aləmə.
Gərçi tökdü qanımı dövründə eşqin ♦ fitnəsi,
Kafəri xunriz ol məkkarı derlər aləmə.
Mən dili aşüftənin peyvəstə ahu naləsin,
Zarezuyi sən büti əyyarı derlər aləmə.
Çün Həqiqi dövləti bidar buldu yar ilən,
Arifü azadə o bidarı derlər aləmə.

♣ لندن نوسخه سینده «مقصودینک» — London nüsxəsində məqsudin
♠ لندن نوسخه سینده «باري» — London nüsxəsində barı
♦ لندن نوسخه سینده «عینک» — London nüsxəsində eynin

دوشدی دل غریب من فرقت هجر نارینه
تا چکه جور فرقتین وصلت اوله نگارینه
غمزده قلدی جانمی غمزه‌سی ننک اشارتی
زلفی کمند صیدایلن چکدی منی شکارینه
قدر وصالی بیلمدی یاندی غم و فراق ایلن
جان ایله وصلت اولمین دلبر غمگسارینه
جان و جهانی ترک ایدیب استمشم وصالنی
بلبل حسرت اولمشم جنت گلعذارینه
روز ازلده کونکلمی ویرمیشم اول نگاره من
یوزمی صالمشم آننک خاک ره غبارینه
تا منی ایلدی غمی مهر رخنده محتشم
محتشم اولمیه آننک دوشمین انتظارینه
ناظر قدرت اولمشم تا گورم اول جمالی من
منتظرم بجان و دل شول صنمنک گذارینه
چونکه حقیقی دلبرنک ایچدی لبنده باده‌سین
مست الست اولب دوشر گوزلری ننک خمارینه

Düşdü dili ğəribi mən firqəti hicr narına,
Ta çəkə cövrü firqətin vüslət ola nigarına.
Ğəmzədə qıldı canımı ğəmzəsinin işarəti,
Zülfi kəməndi seydilən çəkdi məni şikarına.
Qədri vüsalı bilmədi, yandı ğəmü fəraqilən,
Can ilə vüslət olmayan dilbəri ğəmgüsarına.
Canü cahanı tərk edib istəmişəm vüsalını,
Bülbüli həsrət olmuşam cənnəti gülüzarına.
Ruzi əzəldə könlümü vermişəm ol nigara mən,
Yüzümü salmışam onun xakı rəhi ğubarına.
Ta məni eylədi ğəmi mehri rüxündə möhtəşəm,
Möhtəşəm olmaya onun düşməyə intizarına.
Naziri qüdrət olmuşam ta görəm ol cəmalı mən,
Müntəzirəm becanü dil şol sənəmin güzarına.
Çünki Həqiqi dilbərin içdi ləbində badəsin,
Məsti ələst olub düşər gözlərinin xumarına.

Düşmə zəmanə fikrinin dərdi sərü xəyalına,
Olma həris dünyanın gəncinə, mülkü malına.
Cənnəti vəsli dilbəri gəl tələb et illahidən,
Cənnətə vasil olmayan irməz onun vüsalına.
Xülq ilə vü cəmal ilə məndən apardı mənligi,
Afərin ol cəmilənin xülqüna vü cəmalına.
Əhsənin hüsni surətə səcdə gətir, ibadət et,
Ta biləsən bu surətin hüsnü nədir, cəmalı nə.
Ağzınavü miyanına hər necə kim baxım dedim,
Zərrəcə irmədi mənim əqlim onun xəyalına.
Saçlarının kəməndilə♣ çəkdi apadrı könlümü,
Canı müqəyyəd eylədi dami bəladə xalına.
Ləmeyi hüsni surəti tənə bər afitab edər,
Qüdrət əli çəkər qələm qaşlarının hilanına.
Xilqətinin turabına arif isən sücudə gəl,
Ta yetəsən bu xilqətin mərifətü kəmalına.
Lütfü cəmali vəslini gəl tələb et Həqiqiya,
Şaibə qılmagıl onun lütfünəvü cəmalına.
Canü cahanı tərk edib eşq ilə gəl bu ərsəyə,
Düşmə bu çərxi kəcrovun hirsinəvü məlalına.

♣ London nüsxəsində ilən

دوشمه زمانه فکری ننک دردسر و خیالنه
اولمه حریص دنیی ننک گنجینه ملک و مالنه
جنت وصل دلبری گل طلب ایت آله‌دن
جنته واصل اولمین ارمز آننک وصالنه
خلق ایله و جمال ایله مندن اپاردی منلیگی
آفرین اول جمیله ننک خلقینه و جمالنه
احسن حسن صورته سجده گتور عبادت ایت
تا بیله‌سن بو صورتنک حسنی ندر جمالنه
آغزینه و میانینه هر نجه کیم باخم دیدم
ذرهّ جه ایرمدی منم عقلم آننک خیالنه
ساچلری ننک کمند ایله* چکدی اپاردی کونکلمی
جانی مقید ایلدی دام بلاده خالنه
لمعه حسن صورتی طعنه بر آفتاب ایدر
قدرت الی چکر قلم قاشلری ننک هلالنه
خلقتی ننک ترابنه عارف ایسن سجوده گل
تا یته‌سن بو خلقتنک معرفت و کمالنه
لطف و جمال وصلنی گل طلب ایت حقیقییا
شائبه قلمگل آننک لطفینه و جمالنه
جان و جهانی ترک ایدوب عشق ایله گل بو عرصیه
دوشمه بو چرخ کج رونک حرصنه و ملالنه

---

* لندن نوسخه سینده «ایلن»

Qıldı münir aləmi şahidi mən cəmal ilə,
Müshəfi rəbb imiş rüxi ayətü xəttü xal ilə.
Çeşm ilə zülfü xalınının dərdü ğəmü fəraqını,
Gəl mənə sor ki, canımı yaxmışam ol xəyal ilə.
Camı ləbində cürəsi badeyi eşq imiş məgər,
Məsti ələst edər bizi kövsəri zülcəlal ilə.
Hüsnünə çün zəmanədə kimsə bərabər olmadı,
Tutdu cahanı sərbesər hüsn ilə ♣ vü cəmal ilə.
Ey məni dağü həsrətə yandırıban həlak edən,
Gəl nəzər eylə halıma, qoyma məni bu hal ilə.
Teşnə ləbəm deyən könül kövsəri canfəzasına,
Eyni həyata vəsl ola səlsəbili zülal ilə.
İşvəvü nazilən məni gərçi yaxar cəfasına,
Rəngimi laləgün edər ləbləri xəmri al ilə.
Al ilən ol qara gözün ğəmzəsi ♠ dəldi bağrımı,
Dövri zəmanə fitnəsi yaxdı məni bu al ilə.
Eşqi rüxündə dilbərin ol irişür murada kim,
Canü cahanı varlığın tərk edə mülkü mal ilə.
Verdi Həqiqi könlünü şahidi laməkana çün,
Şövkəti cavidan dilər , rəhməti layəzal ilə.

♣ London nüsxəsində hüsnləvü

♠ London nüsxəsində ğəmzəsilən

قلدی منیر عالمی شاهد من جمال ایله
مصحف رب ایمش رخی آیت و خط و خال ایله
چشم ایله زلف و خالینک درد و غم و فراقنی
گل منکا صور که جانمی یاخمشم اول خیال ایله
جام لبنده جرعه‌سی باده عشقمش مگر
مست الست ایدر بزی کوثر ذوالجلال ایله
حسننه چون زمانده کمسه برابر اولمدی
دوطدی جهانی سربسر حسن‌ایله♣ و جمال ایله
ای منی داغ و حسرته یاندوربن هلاک ایدن
گل نظر ایله حالمه قویمه منی بو حال‌ایله
تشنه لبم دین کونکل کوثر جان فزاسنه
عین حیاته وصل اوله سلسبیل زلال ایله
عشوه و ناز ایلن منی گرچه یاخر جفاسنه
رنگمی لاله‌گون ایدر لبلری خمری آل‌ایله
آلیلن اول قرا گوزنک غمزه‌سی♠ دلدی باغرمی
دور زمانه فتنه‌سی یاخدی منی بو آل ایله
عشق رخنده دلبرنک اول اریشور مراده کیم
جان جهانی وارلغن ترک ایده ملک و مال ایله
ویردی حقیقی کونکلنی شاهد لامکانه چون
شوکت جاودان دیلر رحمت لایزال ایله

♣ لندن نوسخه سینده «حسنله»
♠ لندن نوسخه سینده «غمزه سلن»

Dilbəra, ənfasi ləlin mənbəyi ♣ candır yenə,
Tələti hüsni rüxün mehri dirəxşandır yenə.
Zikrü təsbihin niyazı oldu zatində zühur,
Xilqətin şənində münzəl şerhi Qurandır yenə.
Üstüvayı zülfini bərhəm ki, qıldı dan yeli,
Xatiri cəmiyyətin halı pərişandır yenə.
Həsrətin dərdi məni yaxdı fəraqın yarına♠,
HəmdililLah kim, vüsalın dərdə dərmandır yenə.
Ey xətü xalın kəlamüllah, ləlin səlsəbil,
Arizin dövründə zülfün ənbər əfşandır yenə.
Aləmi ərvahə nitqin rəhbər oldu ♦ ta əbəd,
Nəfxeyi ruhülqüdüsdən gör nə bürhandır yenə.
Küfrü imanın səvadı zülfü rüxsarındadır,
Zülfü rüxsarın səvadı küfrü imandır yenə.
Rəhmətin kuyində çalındı bəşarətdən sürud,
Əhli ürfanın kəlamı şükri rəhmandır yenə.
Çeşmeyi heyvanını xızr• içdi oldu cavdan,
Zülməti zülfündə ləlin abi heyvandır yenə.
Vəhdətin əhvalını ərz etdi vahid kesrətə,
Arifi həqsən xəbir ol gör nə dövrandır yenə.
Rindü sərməstin məqamı guşeyi meyxanədır,
Əhli təqvanın kəlamı zikri sübhandır yenə.
Ey Həqiqi, sacid ol Adəmdə həqqin vəchinə,
Olmayan sacid bu vəchə zəhli şeytandır yenə.

♣ London nüsxəsində məniyi
♠ London nüsxəsində narına
♦ London nüsxəsində nitqin ta əbəd
• London nüsxəsində ki,Xızr içdi

دلبرا انفاس لعلنک منبع♣ جان در ینه
طلعت حسن رخنک مهر درخشان در ینه
ذکر و تسبیحنک نیازی اولدی ذاتنکده ظهور
خلقتنک شاننده مُنزل شرح قرآن در ینه
استوای زلفنکی بر هم که قلدی دانک یلی
خاطر جمعیتنک حالی پریشان در ینه
حسرتنک دردی منی یاخدی فراقنک یارینه♠
حمدالله که وصالنک درد درمان در ینه
ای خط و خالنک کلام الله لعلنک سلسبیل
عارضنک دورنده زلفنک عنبرافشان در ینه
عالم ارواحه نطقنک رهبر اولدی♦ تا ابد
نفخه روح‌القدس دن گور نه برهان در ینه
کفر و ایماننک سوادی زلف و رخسارنکده در
زلف و رخسارنک سوادی کفر و ایمان در ینه
رحمتنک کوینده چالندی بشارت دن سرود
اهل عرفاننک کلامی شکر رحمان در ینه
چشمه حیواننکی خضر ایچدی اولدی جاودان•
ظلمت زلفنکده لعلنک آب حیوان در ینه
وحدتنک احوالنی عرض ایتدی واحد کثرته
عارف حق سن خبیر اول گور نه دوران در ینه
رند سرمستنک مقامی گوشه میخانه‌در
اهل تقوی ننک کلامی ذکر سبحان در ینه
ای حقیقی ساجد اول آدمده حقنک وجهنه
اولمین ساجد بو وجهه ز اهل شیطان در ینه

♣ لندن نوسخه سینده «معني»
♠ لندن نوسخه سینده «نارینه»
♦ لندن نوسخه سینده «رهبر اولدي نطقنک»
• لندن نسخه سینده: چشمه حیواننکي که خضر ایچدي اولدي جاودان

طالب یارم ازلدن یاره مشتاقم ینه
جنتنک کوینده اول دلداره مشتاقم ینه
گرچه دیدارنده یتدی جان و دل مقصودنه
حمدلله که من اول دیداره مشتاقم ینه
دنیی و عقبی حرام اولدی منکا بی وصل یار
یار ایلن یارم ازلدن یاره مشتاقم ینه
عشقی ننک اسرارنی فاش ایتمشم عالمده من
گل بو سری گور کیم اول اسراره مشتاقم ینه
قلمشم شهناز ایلن عشاق شرحن در عراق
بو مقامتدن♣ من اول ادواره مشتاقم ینه
جنت‌آباد سر کویندن آیرو دلبرنک
بلبل آشفته ام گلزاره مشتاقم ینه
چون حقیقی دعوی منصور اگر قلسم نوله
ناصر منصوره حیران داره مشتاقم ینه

Talibi yarəm əzəldən, yara müştaqam yenə,
Cənnətin küyində ol dildara müştaqam yenə.
Gərçi didarında yetdi canü dil məqsuduna,
Həmdilillah ki, mən ol didara müştaqam yenə.
Dünyavü üqba həram oldu mənə bivəsli yar,
Yar ilən yarəm əzəldən, yara müştaqam yenə.
Eşqinin əsrarını faş etmişəm aləmdə mən,
Gəl bu sirri gör kim, ol əsrara müştaqam yenə.
Qılmışam Şəhnaz ilən Üşşaq şərhin dər Əraq,
Bu məqamatdan ♣ mən ol ədvara müştaqam yenə.
Çənnətabadi səri kuyindən ayrı dilbərin,
Bülbüli aşüftəyəm, gülzara müştaqam yenə.
Çün Həqiqi dəviyi Mənsur əyər qılsam nola,
Nasiri mənsura heyran, dara müştaqam yenə.

♣ لندن نوسخه سینده «مقامنکدن» London nüsxəsində məqamından

چو رقصه گیردی بو گون ماه گلعذار ینه
توکندی صبر و کونکل قالمدی قرار ینه
گذارکاهنه یوز قویدوم اول پری زادنک
مگر ز روی کرم ایلیه گذار ینه
غبار پاینی♣ کحل بصیر قلدی کونکل
وجود آینه صاف اولدی از غبار ینه
غمینده ناله و فریاد قلدی بلبل جان
آچلدی گلشن وصلنکده مرغزار ینه
محبت عشقه اوزین ظاهر ایلدی فاعل
گوتردی پرده اسراری شهریار♠ ینه
شجرده انی انا الله واصل اولدی بشر
سعادت ابدی بولدی خاکسار ینه
حقیقی غرق محیط اولدی ای فقیه بو گون
بسمع جان یتورر در شاهوار ینه

Çu rəqsə girdi bu gün mahı gülüzar yenə,
Tükəndi səbri könül, qalmadı qərar yenə.
Güzargahına yüz qoydum ol pərizadın,
Məgər ze ruyi kərəm eyləyə güzar yenə.
Ğubar payini ♣ kəhli bəsir qıldı könül,
Vücudi ayinə saf oldu əz ğubar yenə.
Ğəmində nalevü fəryad qıldı bülbüli can,
Açıldı gülşəni vəslində mərğizar yenə.
Məhəbbət eşqə özün zahir eylədi fail,
Götürdü pərdeyi əsrari şəhriyar♠ yenə.
Şəcərdə inni ənəllahə vasil oldu bəşər,
Səadəti əbədi buldu xaksar yenə.
Həqiqi ğərqi mühit oldu, ey fəqih, bu gün,
Be səmi can yetirir dürri şahvar yenə.

♣ لندن نوسخه سینده «پاي» — London nüsxəsində payi
♠ لندن نوسخه سینده «شهسوار» — London nüsxəsində şahsuvar

یارنک گرگ که مهر رخی دلپذیر اوله♠
تا حسن و خلق ایچنده جهانه امیر اوله
هر کیم که قلمیه نظر اول حسن و صورته
یوخدر بصیرت آنده گر اهل بصیر اوله
حسنیله چون نظیر بولونمز جمالنه
عالمده اول یگانه مگر بی نظیر اوله
بی چاره عشق♣ نیلیه تدبیر و چاره‌سین
معشوقه شاه عالم و عاشق فقیر اوله
توحید ایچنده نکته اسراری بیلمشم
صاحب نظر گرگ که بو حاله خبیر اوله
منصور عشق اولنده حقیقی ز فضل حق
آننک معینی آیت نعم النصیر اوله

Yarın gərəg ki, mehri rüxi dilpəzir ola ♠,
Ta hüsnü xülq içində cahanə əmir ola.
Hər kim ki, qılmaya nəzər ol hüsnü surətə,
Yoxdur bəsirət onda gər əhli bəsir ola.
Hüsnilə çün nəzir bulumaz cəmalına,
Aləmdə ol yeganə məgər binəzir ola.
Biçarə, eşq ♣ neyləyə tədbirü çarəsin,
Məşuqə şahi aləmü aşiq fəqir ola.
Tovhid içində nukteyi əsrarı bilmişəm,
Sahib nəzər gərəg ki, bu halə xəbir ola.
Mənsuri eşq olanda Həqiqi ze fəzli həq,
Anın müini ayət nemən nəsir ola.

♠ نسیمي دیوانیندا(۳-نجو جیلد،ص.۳۰۳)اونامنسوب اولونوبدور
Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

♣ لندن نوسخه سینده «عشقه» London nüsxəsində eşqə

هر عاشقنک که ناله و دردی ز جان اوله
جانان یولنده عاقبت اول جانفشان اوله
یارنک غمنده ترک جهان اتمین کونکل
اول جان دکل که خلقت انکا جاودان اوله
بی‌منّت فراق وصالن طلب قلن
واجب در اول فقیره که♣ اول ترک جان اوله
درد و فراق و محنت و اندوه و هجر و غم
یارنک یولنده جمله سی بیر گلستان♠ اوله
هر کیم که باشنی صاله در آستان دوست
تاج♦ سریر سلطنت اول آستان اوله
اسرار عشق ایچنده حقیقی تو دم مزن
هر کمسه‌ننک مراتبی از خود عیان اوله

Hər aşiqin ki,nalәvü dәrdi ze can ola,
Canan yolunda aqibәt ol canfәşan ola.
Yarın ğәmindә tәrki cahan etmәyәn könül,
Ol can deyil ki, xilqәt ona cavdan ola.
Biminnәti fәraq vüsalın tәlәb qılan,
Vacibdir ol fәqirә ki ♣, ol tәrki can ola.
Dәrdü fәraqü möhnәtü әnduhü hicrü ğәm,
Yarın yolunda cümlәsi bir gülüstan ♠ola.
Hәr kim ki, başını sala dәr asitani dust,
Taci ♦ sәriri sәltәnәt ol asitan ola.
Әsrari eşq içindә Hәqiqi, to dәm mәzәn,
Hәr kimsәnin mәratibi әz xud әyan ola.

♣ لندن نوسخه سینده «کیم» London nüsxәsindә kim
♠ لندن نوسخه سینده «گل ستان» London nüsxәsindә gülsitan
♦ لندن نوسخه سینده «تخت» London nüsxәsindә tәxt

تا چکدی شاه سنبل زلفین گلالیه
آهیله دوشدی بلبل آشفته نالیه
صورت ده گوردی کاتب قدرت جمالنکی
وصف کمال حسنکی یازدی رسالیه
یاندوردی عشق اودی منی تارنک♣ جفاسنه
داغ فراق قلبمی بنکزتی لالیه♠
اول جانه که شراب وصالنک نصیب اوله
حور بهشته طعن ایده آب زلالیه
گر خسته پای کور که غنی سن گدا تکی
لطف ایلگل لبنکدن ایریشدور نوالیه
اسروتی شوقلن منی ذکر لب و رخنک
تا سلسبیل لعلنی توکدی پیالیه
آغلتی هجر گلشن وصلنک حقیقنی
خوناب دل بولاشدی چمن ازره ژالیه

Ta çəkdi şah sünbüli zülfün gülaləyə,
Ah ilə düşdü bülbüli aşüftə naləyə.
Surətdə gördü katibi qüdrət cəmalını,
Vəsfi kəmali hüsnünü yazdı risaləyə.
Yandırdı eşq odu məni tarın ♣ cəfasına,
Dağı fəraq qəlbimi bənzətdi laləyə ♠
Ol cana ki, şərabi vüsalın nəsib ola,
Huri behiştə tən edə, abi zülaləyə.
Gər xəstə payü kör ki, ğənisən geda təki,
Lütf eylə gəl ləbindən irişdir nəvaləyə.
Əsrütdi şövq ilən məni zikri ləbü rüxün,
Ta səlsəbili ləlini tökdü piyaləyə.
Ağlatdı hicr gülşəni vəslin Həqiqini
Xunabi dil bulaşdı cəmən üzrə jaləyə.

♣ لندن نوسخه سینده «یارنک» London nüsxəsində yarın
♠ لندن نوسخه سینده « غالیه» London nüsxəsində ğaləyə

ای منی دام ساچنک چکدی سر دارینه
جانمی یاخدی غمنک آتش رخسارینه
مسکنی اعرافمش آیینه‌سی صاف ایمش
کیم که قول اولدی بو گون سن بت عیارینه
ای ازلنک روضه‌سی وصل رخنک عاشقه
بلبل مست اولمین ارمدی گلزارینه
سنبل پرتابی ننک دامنه دوشدی کونکل
جانمی قلدی اسیر چشم دل افکارینه
اول بت عیاره‌ننک درد و غم و حسرتی
باغرمی قان ایلدی یاخدی منی نارینه
ایچدی حقیقی ازل خمرینی از جام عشق
تا کیم ایرشدی لبنک باده‌ی گلنارینه

Ey məni dami saçın çəkdi səri darına,
Canımı yaxdı ğəmin atəşi rüxsarına.
Məskəni əraf imiş, ayinəsi saf imiş,
Kim ki, qul oldu bu gün sən büti əyyarına.
Ey əzəlin rövzəsi vəsli rüxün aşiqə,
Bülbüli məst olmayan irmədi gülzarına.
Sünbüli pürtabinin damına düşdü könül,
Canımı qıldı əsir, çeşmi diləfkarına.
Ol büti əyyarənin dərdü ğəmü həsrəti,
Bağrımı qan eylədi, yaxdı məni narına.
İçdi Həqiqi əzəl xəmrini əz cami eşq,
Ta kim, irişdi ləbin badeyi gülnarına.

یارب نه نور ایمش که منی یاخدی نارنه♣
یارب نه ذاتمش که منی چکدی دارنه
صبح ازلده قلدی معطر دماغمی
تا اسدی دانک یلی ساچیننک مشکبارنه
کحل بصیر دیده قیلم خاک پاینی
گر بیر گزر ایرشسم آننک کوهسارنه
خالی و چشم و غمزه‌سی آشفته کونکلمی
چکدی کمند زلفنه صالدی شکارنه
باغرم قانن گوزمدن آخدی غم رخی
سیمین الینی قلدی آننکله نگارنه
دورنده لعلننک میی اسروتی تا ابد
شول باده‌دن که کیمسه ایرشمز خمارنه
باغرمنی عشوه بیرله قلور یاره غمزه‌سی
یارب نه عشوه‌در که قلور غمزه یارنه
یارندن آیرو یاندی حقیقی فراق ایله
گلگل تفرج ایله آننک آه و زارنه

Yarəb, nə nə nur imiş ki, məni yaxdı narına ♣,
Yarəb, nə zat imiş ki, məni çəkdi darına.
Sübhi əzəldə qıldı müəttər dimağımı,
Ta əsdi dan yeli saçının mişkbarına.
Kəhli bəsiri didə qılım xakı payını,
Gər bir gəzər irişsəm onun kuhsarına.
Xalıyyü çeşmü ğəmzəsi aşüftə könlümü,
Çəkdi kəməndi zülfünə saldı şikarına,
Bağrım qanın gözümdən axıtdı gəmi rüxi,
Simin əlini qıldı anınla nigarına.
Dövründə ləlinin meyi əsrütti ta əbəd,
Şol badədən ki, kimsə irişməz xumarına.
Bağrımnı işvə birlə qılır yara ğəmzəsi,
Yarəb,nə işvədir ki, qılır ğəmzə yarına.
Yarından ayrı yandı Həqiqi fəraq ilə,
Gəlgil təfərrüc eylə onun ahü zarına.

♣ تهران نوسخه سینده یوخدور — Bu şer Tehran nüsxəsində yoxdur

هرجان که عاشق اولمدی جانانه یتمدی
سودای عشقه زلف پریشانه یتمدی
آصف مثال قدر سلیمانی بیلمین
اولدی گدای حضرت سلطانه یتمدی
عشقنک یولنده کیم که قدم قویمیه♣ بصدق
کام وصاله ارمیه درمانه یتمدی
قدر وصال لعلنکی هر جان که بیلمدی
آب حیات چشمهٔ حیوانه یتمدی
هرکیم حقیقی حالنی بیلمز بکوی دوست
دارالخلوده روضهٔ رضوانه یتمدی

Hər can ki, aşiq olmadı cananə yetmədi,
Sevdayi eşqə, zülfi pərişanə yetmədi.
Asəf misal qədri Süleymani bilməyən,
Oldu gəday həzrəti sultanə yetmədi.
Eşqin yolunda kim ki, qədəm qoymaya ♣ besidq,
Kamü vüsalə irmədi , dərmanə yetmədi.
Qədri vüsali ləlini hər can ki, bilmədi,
Abi həyati çeşmeyi heyvanə yetmədi.
Hər kim Həqiqi halını bilməz bekuyi dust,
Darül xüludə, rövzeyi rizvanə yetmədi.

♣ لندن نوسخه سینده «قویمدي» London nüsxəsində qoymadı

Hər kim♥ ki, suzi eşq ilə bir yanə düşmədi,
Vəslin ğəmində atəşi hicranə düşmədi.
Qıldı məni saçın kimi aşüftə ruzigar,
Badı səbada zülfunə ta şanə düşmədi.
Ey həsrətü fəraq ilə bağrımı qan edən,
Dərdin məni əritdi vü dərmanə düşmədi♣.
Gəl-gəl ki, Xızrə çeşmeyi heyvan imiş ləbin,
Hər bixəbər bu çeşmeyi heyvanə düşmədi.
Bir ləhzə keçmədi ki, ğəmindən fəraq ilə,
Xüni cigər bu dideyi giryanə düşmədi.
Ol zülfü xalə canını təslim edən könül,
Dayım♠ bəlayə , çahi zənəxdanə düşmədi.
Peymanə doldu vədeyi vəslində♦, ey sənəm,
Xəmri ləbindən aşiqə peymanə• düşmədi.
Hər bixəbər ki, bilmə qədri vüsalını,
Darül xüludə rövzeyi rizvanə düşmədi.
Bir suz ilə tütüşdü Həqiqi bu şəmə kim,
Pərvazi eşq ilən ona pərvanə düşmədi.

♥ London nüsxəsində dil
♣ London nüsxəsinde bu beyt yoxdur.
♠ London nüsxəsində damı
♦ London nüsxəsində vəslindən
• London nüsxəsində Darülxülüdə,rövzeyi rizvanə düşmədi

هر کیم♥ که سوز عشق ایله بریانه دوشمدی
وصلنک غمنده آتش هجرانه دوشمدی
قلدی منی ساچنک کمی آشفته روزگار
باد صباده زلفنکا تا شانه دوشمدی
ای حسرت و فراق‌ایله باغرمنی قان ایدن
دردنک منی اریتدی و درمانه دوشمدی♣
گل گل که خضره چشمهٔ حیوانمش لبنک
هر بیخبر بو چشمهٔ حیوانه دوشمدی
بیر لحظه کچمدی که غمنکدن فراق ایله
خون جگر بو دیدهٔ گریانه دوشمدی
اول زلف و خاله جاننی تسلیم ایدن کونکل
دایم♠ بلایه چاه زنخدانه دوشمدی
پیمانه دولدی وعدهٔ وصلنکده♦ ای صنم
خمر لبنکدن عاشقه پیمانه دوشمدی•
هر بیخبر که بیلمدی قدر وصالنکی
دارلخلوده روضهٔ رضوانه دوشمدی
بیر سوز ایله توطشدی حقیقی بو شمعه کیم
پرواز عشق ایلن آنکا پروانه دوشمدی

♥ لندن نوسخه سینده «دل»
♣ بو بیت لندن نوسخه سینده یوخدور.
♠ لندن نوسخه سینده «دام»
♦ لندن نوسخه سینده «وصلنکدن»
• لندن نوسخه سینده «دار الخلوده روضه رضوانه دوشمدي»

Hər kim ki, görsə şəmi cəmalın çirağını,
An`estü nar ilən qoya qəlbində dağını.
Çəkdi kəməndi dami bəlayə məni saçın,
Ta saldı aftab üzünə pərri zağını.
Ey nükteyi həqiqəti eşqə mürid olan,
Piri təriqə sor rəhi eşqin sorağını.
Yarın vüsali vəsli çü darül xülud imiş,
Yarəb, nəsibə qıl sənə♣ ol vəsl bağını.
Xəmri ələstdən olmaya sərməsti cavdan,
Xəmri ♦ ləbindən içməyən eşqin ayağını.
Vəchində nur • zülməti ta gördü əhli eşq,
Verməz iki cahana siyahilən ayağını.
Yarın Həqiqi cənnəti vəslin tələb qılır,
Nari cəhimə saldı çü əhli duzağını.
Hər kim irişdi nükteyi♠ zülfün nəsiminə,
Badi səbada qıldı müəttər dimağını.

♣ London nüsxəsində mənə
♦ London nüsxəsində cam
• London nüsxəsində nur o zülməti
♠London nüsxəsində nükhəti

هر کیم که گورسه شمع جمالنک چراغنی
آنستُ و نار ایلن قویه قلبنده داغنی
چکدی کمند دام بلایه منی ساچنک
تا صالدی آفتاب اوزنه پر زاغنی
ای نکتهٔ حقیقت عشقه مرید اولن
پیر طریقه صور ره عشقنک صوراغنی
یارنک وصالی وصل چو دارالخلودایمش
یارب نصیبه قیل سنکا♣ اول وصل باغنی
خمر السندن اولمایه سرمست جاودان
خمر♦ لبنکدن ایچمین عشقنک ایاغنی
وجهنکده نور •ظلمتی تا گوردی اهل عشق
ویرمز ایکی جهانه سیاهیلن آغنی
یارنک حقیقی جنت وصلن طلب قلور
نار جحیمه صالدی چو اهل دوزاغنی
هر کیم ایرشدی نکتهٔ♠ زلفنک نسیمنه
باد صباده قلدی معطر دماغنی

♣ لندن نوسخه سینده «منکا»
♦ لندن نوسخه سینده «جام»
• لندن نوسخه سینده «نور و ظلمتي»
♠ لندن نوسخه سینده «نکهت»

بوینکی هر کیم که گوردی سدر الاعلی دیدی
وصلنکا♣ هر کیم که باخدی جنه الماوا دیدی
دام زلفنکده گرفتار اولدی عشاق ازل
سنبلک هر تاره‌سین سرمایهٔ سودا دیدی
خضر لعلینکدن نصیب اولدی حیات جاودان
چشمهٔ حیواننکا سرچشمهٔ احیا دیدی
تا شب معراجه اسراده رفیق اولدی ساچنک
قاب قوسیننک بیانن شرح او ادنی دیدی
کاتب قدرت قلم چکدی جمالنک لوحنه
اول خط و خالنک حروفین علم‌الاسما دیدی
جان و دل♠ دوشدی گرفتار اولدی زلفنک دامنه
دانهٔ خال سیاهنک حبه السودا دیدی
صورتنک شاننده اظهار اولدی اطراف النهار
عارضنک دورنده زلفنک لیله الاسرا دیدی
چون حقیقی گوردی رخسارنک حروف آیتن
آفرین صد آفرین بر صنع ما اوحی دیدی

Boyunu hər kim ki, gördü sidrətül əla dedi,
Vəslinə ♣ hər kim ki, baxdı, cənnətül məva dedi.
Dami zülfündə giriftar oldu üşşaqi əzəl,
Sünbülün hər tarəsin sərmayeyi sevda dedi.
Xızra ləlindən nəsib oldu həyati cavdan,
Çeşmeyi heyvanına sərçeşmeyi əhya dedi.
Ta şəbi meraca əsrada rəfiq oldu saçın,
Qabi qovseynin bəyanın şərhi o ədna dedi.
Katibi qüdrət qələm çəkdi cəmalın lövhinə,
Ol xətü xalın hürufin əlləmül əsma dedi.
Canü ♠ dil düşdü giriftar oldu zülfün damına,
Daneyi xali siyahın hübbətüs-sevda dedi.
Surətin şənində izhar oldu ətrafün-nəhar,
Arizin dövründə zülfün leylətül əsra dedi.
Çün Həqiqi gördü rüxsarın hürufi ayətin,
Afərin , səd afərin bər süni ma oha dedi.

♣ لندن نوسخه سینده «وجهنکا» London nüsxəsində vəchinə
♠ لندن نوسخه سینده «مرغ دل» London nüsxəsində morğe dil

ای کمال حسن ایچنده لایزالنک قدرتی
صورتنک شاننده منزل در کمالنک قدرتی
ماه نو محراب قاشنک در جبیننک قبله‌سی
روشن چشم جهان در اول هلالنک قدرتی♣
ای ساچنک عنبر خطنک ریحان و خالنک نقطه‌سی
وی کلام الله ایچنده خط و خالنک قدرتی
لبلرنک دورنده ظاهر اولدی ذکر سلسبیل♠
چشمهٔ لعلنکده‌در آب زلالنک قدرتی
واصل اولموشدر ازلدن تا ابد بر جان و دل
گه جمال لطف و احسان گه جلالنک قدرتی
ای که مرغ جاودانی آشیانت وحدتست
شول جهتدن سنده در بو پر و بالنک قدرتی
خلق و الطاف لطافت بیرله احسان و کرم
سن میسن یا سنده‌در بو مونجه حالنک قدرتی
وصلنکی حقدن دیلر جان حقیقی تا ابد
اولمسون یارب نصیبش جز وصالنک قدرتی

Ey kəmalı hüsn içində layəzalın qüdrəti,
Surətin şənində münzəldir kəmalın qüdrəti.
Mahı no mehrab, qaşındır cəbinin qibləsi,
Rövşəni çeşmi cahandır ol hilalın qüdrəti ♣.
Ey saçın ənbər , xətin reyhanü xalın nüqtəsi,
Vey kəlamüllah içində xətü xalın qüdrəti.
Ləblərin dövründə zahir oldu zikri səlsəbil ♠,
Çeşmeyi ləlindədir abi zülalın qüdrəti.
Vasil olmuşdur əzəldən ta əbəd bər canü dil,
Gəh cəmalı lütfü ehsan, gəh cəlalın qüdrəti.
Ey ki, mürği cavdani aşiyanət vəhdətəst,
Şol cəhətdən səndədir bu pərrü balın qüdrəti.
Xülqü əltafü lətafət birlə ehsanü kərəm,
Sənmisən, ya səndədir bu munca halın qüdrəti.
Vəslini həqdən dilər cani Həqiqi ta əbəd,
Olmasın yarəb nəsibəş cüz vüsalın qüdrəti.

♣ لندن نسخه سینده ۷-نجي سطرده گلیر London nüsxəsində yeddinci sətirdə gəlir

♠ لندن نوسخه سینده «سلسبیلو» London nüsxəsində səlsəbilü

Fitrəti rüxsarını həq surəti rəhman dedi,
Löhi məhfuzun hürufin ayəti Quran dedi.
Qalə mən yohyil izam oldu ləbindən aşikar,
Şaribül xəmr ol dodağı çeşmeyi heyvan dedi.
Əhsəni surət cəmalındır dedi ruhül qüdüs,
Sərvi gül əndamını həm sidrevü rizvan dedi.
Üstüvayi zülfünü bər həm ki, qıldı dan yeli,
Şol pərişanın məşami nükhətin reyhan dedi.
Çün hədiyyül mütəqin oldu dəlinin aləmə,
Nükteyi lareybə fih şənindədir, bürhan dedi.
Damunun narında giryan eylədi aşiqlərin♣,
Cənnətin küyindəsən məşüqeyi pünhan dedi♠.
Ayəti inna fətəhnadən açıldı eşqə bab,
Üstüvayi ərşi rəhmandan munu♦ subhan dedi.
Çün Həqiqi gördü ol məşuqənin rüxsarını,
Huriyi rizvanmıdır, ya surəti insan dedi.

♣ London nüsxəsində aşiqləri
♠ Bu beyt Tehran nüsxəsində yoxdur
♦ London nüsxəsində bunu

فطرت رخسارنکی حق صورت رحمان دیدی
لوح محفوظنک حروفین آیت قرآن دیدی
قال من یحی‌العظام اولدی لبنکدن آشکار
شارب الخمر اول دوداغی چشمهٔ حیوان دیدی
احسن صورت جمالنک در دیدی روح القدس
سرو گل اندامنکی هم سدره و رضوان دیدی
استوای زلفنکی برهم که قلدی دانک یلی
شول پریشاننک مشام نکهتن ریحان دیدی
چون هدی المتقین اولدی دلیلنک عالمه
نکتهٔ لاریب فیه شاننده در برهان دیدی
دامونک نارنده گریان ایلدی عاشقلرنک♠
جنتنک کویندسن معشوقهٔ پنهان دیدی♣
آیت انا فتحنادن آچلدی عشقه باب
استوای عرش رحماندن مونی♦ سبحان دیدی
چون حقیقی گوردی اول معشوقه‌ننک رخسارنی
حوری رضوان میدیر یا صورت انسان دیدی

♠ لندن نوسخه سینده «عاشقلري»
♣ تهران نوسخه سینده بو بیت یوخدور (ایروان و لندن نسخه‌لرینده بو بیت وار).
♦ لندن نوسخه سینده «بوني»

ساچله مهر رخی صبح و شاممش ازلی
لبنده کوثری یحی العظاممش ازلی
یوزنده عیدنی♣ هر کیم گورر اولور قربان
مگر که عارضی ماه صیاممش ازلی
صفات لعلنی گر مختصر قلم نه عجب
حدیث دوست چو خیر الکلاممش ازلی
کمال حسن و ملاحتده صورت و معنی
انکا مسلم و هم مستداممش ازلی
رخی چو قبله و محرابمش قاشی یارنک
عبادت اهلنه عینی اماممش ازلی♠
ساچنده دام بلایه صالور منی خالی
ساچی و خالی عجب دانۀ داممش ازلی
حقیقی جنت وصلنک دیلر ز فضل معین
جناب حضرتنکا چون غلاممش ازلی

Saçıyla mehri rüxi sübhü şam imiş əzəli,
Ləbində kövsəri yohyil izam imiş əzəli.
Yüzündə eydini ♣ hər kim görür olur qurban,
Məgər ki, arizi mahi siyam imiş əzəli.
Sifati ləlini gər müxtəsər qılam nə əcəb,
Hədisi dust cü xeyrül kəlam imiş əzəli.
Kəmali hüsnü məlahətdə surətü məni,
Ona müsəlləmü həm müstədam imiş əzəli.
Rüxi çü qibləvü mehrab imiş qaşı yarın ♠,
İbadət əhlinə eyni imam imiş əzəli.
Saçında dami bəlayə salır məni xalı,
Saçıyyü xalı əcəb danəyi dam imiş əzəli.
Həqiqi cənnəti vəslin dilər ze fəzli müin,
Cənabi həzrətinə çün ğulam imiş əzəli.

♣ لندن نوسخه سینده « عینکي» London nüsxəsində eynini
♠ لندن نوسخه سینده «سونرا گلیر» London nüsxəsində sonarkı sətirdə gəlir

لبنک که نفخه‌سی خیرالکلاممش ابدی
آننک بیانی چو در نظاممش ابدی
جنابنکا یوزنی کیم که صالدی از سر صدق
ایکی جهانده آنکا احترامممش ابدی
چو اهل سجدیه محراب اولدی قوسیننک
اقامت اهلنه عیننک اماممش ابدی
جمالنک آیت ام الکتاب وحدتمش
ساچنکله مهر رخنک صبح و شاممش ابدی
لبنک که کوثری خم خانهٔ حقیقت ایمش
اول اهل شاربه شرب مداممش ابدی
یولنکده صدق ایله هر کیم که جان فشانه گلور
وجود ذاتی آننک مستداممش ابدی
ازلده چون سنی مقصود کن فکان دیدی حق
حقیقی خاک درنکده غلاممش ابدی

Ləbin ki, nəfxəsi xeyrül kəlam imiş əbədi,
Onun bəyanı çü dürri nizam imiş əbədi.
Cənabına yüzünü kim ki, saldı əz səri sidq,
İki cahanda ona ehtiram imiş əbədi.
Çü əhli səcdəyə mehrab oldu qovseynin,
Iqamət əhlinə eynin imam imiş əbədi.
Cəmalın ayəti ümmül kitabi vəhdətimiş,
Saçınla mehri rüxün sübhü şam imiş əbədi.
Ləbin ki, kövsəri xumxaneyi həqiqət imiş,
Ol əhli şaribə şürbi müdam imiş əbədi.
Yolunda sidq ilə hər kim ki, canfəşanə gəlir,
Vücudi zati onun müstədam imiş əbədi.
Əzəldə çün səni məqsudi kün fəkan dedi həq,
Həqiqi xaki dərində ğulam imiş əbədi.

قاشنک چو نون و لبنک لام و بی و میم اولدی
حروف لوح رخنک آیت عظیم اولدی
ایریشدی جنت وصلنک جنابنه کونکلم
رقیب دوشدی بو حسرتدن و مقیم اولدی
ایاغنکا یوزنی کیم که صالدی از سر صدق
سریر سلطنت اوستنده محتشیم اولدی
شجرده انی انا الله سویلدی خالق
موسای عشق اننک شرحینه کلیم اولدی
وصال جنّتنکا واصل اولمدی منکر
مگر کیم اول بشرنک قسمتی جحیم اولدی
لبنکده چشمهٔ حیوانه چون ایرشدی کونکل
حیات لم یزلی طاپدی و سلیم اولدی
جناب حضرتنکا واصل اولدی اهل طریق
آننک معینی مگر مالک القدیم اولدی
ویرانه کونکلمی معمور قلدی عشق رخنک
عمارت ابدی آنده مستقیم اولدی
حقیقی وصلنکا جان ویردی خونبها دیلمز
بهانه قلمدی عشقنکده محتریم اولدی

Qaşın çü nunü ləbin lamü biyü mim oldu,
Hürufi lövhi rüxün ayəti əzim oldu.
İrişdi cənnəti vəslin cənabına könlüm,
Rəqib düşdü bu həsrətdənü müqim oldu.
Ayağına yüzünü kim ki, saldı əz səri sidq,
Səriri səltənət üstündə möhtəşim oldu.
Şəcərdə inni ənəllah söylədi xaliq,
Musayi eşq onun şərhinə kəlim oldu.
Vüsali cənnətinə vasil olmadı münkir,
Məgər kim ol bəşərin qisməti cəhim oldu.
Ləbində çeşmeyi heyvana çün irişdi könül,
Həyati ləmyəzəli tapdıvü səlim oldu.
Cənabi həzrətinə vasil oldu əhli təriq,
Onun müini məgər malikül qədim oldu.
Viranə könlümü məmur qıldı eşqi rüxün,
İmarəti əbədi onda müstəqim oldu.
Həqiqi vəslinə can verdi,xunbəha diləməz,
Bəhanə qılmadı eşqində, möhtərim oldu.

یولنکده جاننی ترک ایلین نیدر باشنی
کیم اوله منع ایده عشقنکده رند و اوباشی
هزار سجدۀ شکر ایلرم من درویش
حقیقت اهلنه محراب اولنده اول قاشی
غبار پاینکا جاروب اولدی غمزۀ چشم
ساچنک سلاسلی منع ایلینده فراشی
وصال جنتنکا واصل اولمدی زاهد
مگر که بیلمدی قدر وصال اول ناشی♣
نثار قلدی سننک♠ مقدم شریفنکده
بسان در گرانمایه گوزلرم یاشی
زعشق رونق مجلس ایرشدی اصحابه
گورنده طالب میخانه رند قلاشی
حقیقی کام ایله بولدی وصالنکی حقدن
رقیب چالدی بو حسرتده♦ باشنه داشی

Yolunda canxını tərk eyləyən nedər başını,
Kim ola mən edə eşqində rindü obaşı.
Həzar səcdəyi şükranə eylərəm məni dərviş,
Həqiqət əhlinə mehrab olanda ol qaşı.
Ğubari payinə carob oldu ğəmzeyi çeşm,
Saçın səlasili mən eyləyəndə fərraşı.
Vüsali cənntinə vasil olmadı zahid,
Məgər ki, bilmədi qədri vüsali ol naşı ♣.
Nisar qıldı sənin ♠ məqdəmi şərifində,
Besani dürri giranmayə gözlərim yaşı.
Ze eşqi rövnəqi məclis irişdi əshabə,
Görəndə talibi meyxanə rindi qəllaşı.
Həqiqi kam ilə buldu vüsalını həqdən,
Rəqib çaldı bu həsrətdə ♦ başına daşı.

♣ لندن نوسخه سینده «اوباشي» — London nüsxəsində obaşı
♠ لندن نوسخه سینده «سننک شها» — London nüsxəsində sənin şəha
♦ لندن نوسخه سینده «حسرته» — London nüsxəsində həsrətə

اگر تو عارفی ای دل خبیره ویر خبری
مناسب ایلمه اهل خبیره بی خبری
گتوردی پرده رخندن زمانه اول یارنک
منوّر ایلدی شمع جمال ایلن بصری
ایاغنه یوزنی کیم که صالدی از سر صدق
قبول خدمت عشق اولدی عیب ایلن هنری
کمان لم یزلی قوردی قاب قوسینی
خدنگ غمزه‌سی پیکان ایلن دَلر جگری
بصیرت اهلی نظر قلمدی♣ وجهنکا دیدی کیم
جهانده گورمدی کیمسه بو وجهلن بشری
شکر لبنک♠ حدیثنده بیانه گلدی زبان
مکرر ایلدی اول در فشان مختصری
فراغت اولدی ز اندوه و محنت عالم
حقیقیه نظر حق که قلدی بو نظری

Əgər to arifi ey dil, xəbirə ver xəbəri,
Münasib eyləmə əhli xəbirə bixəbəri.
Götürdü pərdə rüxündən zəmanə ol yarın,
Münəvvər eylədi şəmi cəmal ilən bəsəri.
Ayağına yüzünü kim ki, saldı əz səri sidq,
Qəbuli xidməti eşq oldu eyb ilən hünəri.
Kəmani ləmyəzəli qurdu qabi qovseyni,
Xədəngi ğəmzəsi peykan ilən dələr cigəri.
Bəsirət əhli nəzər qılmadı ♣ vəchinə dedi kim,
Cahanda görmədi kimsə bu vəch ilən bəşəri.
Şəkər ləbin♠ hədisində bəyanə gəldi zəban,
Mükərrər eylədi ol dürfəşan müxtəsəri.
Fərağət oldu ze ənduhü möhnəti aləm,
Həqiqiyə nəzəri həq ki, qıldı bu nəzəri.

♣ لندن نوسخه سینده «قلدي» — London nüsxəsində qıldı
♠ لندن نوسخه سینده «لبنکي» — London nüsxəsində ləbini

جمالی اول صنمنک صنع پر کمال اولدی
لبنکده خمری آننک چشمهٔ زلال اولدی
عجب دگلمی که اول ماهتاب نیرنک
جمالی بدره مناسب قاشی هلال اولدی
هر آنک بیلمدی یوم الحساب قدرین اننک
زبانینک دیلی التنه♣ زبانی لال اولدی
یازنده کاتب سبع المثانی آیت حسن♠
حروف نقطه جمالنده خط و خال اولدی
حقیقی عشق ایله محو اولدی ذات لم یزله
آننک حقیقتی چون ذات لم یزل اولدی

Cəmalı ol sənəmin süni pür kəmal oldu,
Ləbində xəmri onun çeşmeyi zülal oldu.
Əcəb degilmi ki, ol mahtabi niyyərinin,
Cəmalı bədrə münasib, qaşı hilal oldu.
Hər an ke bilmədi yovmül hesab qədrin,onun,
Zəbanının dili altına ♣ zəbanı lal oldu.
Yazanda kateb♠ səbül məsanı ayəti hüsn,
Hürufü nöqtə cəmalında xəttü xal oldu.
Həqiqi eşq ilə məhv oldu zati ləmyəzələ,
Onun həqiqəti çün zati layəzal oldu.

♣ لندن نوسخه سینده « التنده» London nüsxəsində altında

♠ لندن نوسخه سینده«یازنده آیت.کاتب حسن» London nüsxəsində yazanda ayəti katebi hüs,

جمالنک روضهٔ رضوان دگلمی♣
دوداغنک چشمهٔ حیوان دگلمی
سقاهم ربهم خمری لبنکدن
بیان آیت و برهان دگلمی
رخ و زلفنک بیاضیله سوادی
بیری کفر و بیری ایمان دگلمی
سننک مستانه عیننک ساغرندن
جهان سرگشته و گریان دگلمی
شها عشقنک یولنده جانی قربان
بویورسنک قلمغی آسان دگلمی
دل سرگشته ای سلطان عالم
سننکچون تا ابد حیران دگلمی
حقیقی کشف اسرار ایتی مطلق
آنی فهم ایتمین نادان دگلمی

Cəmalın rövzeyi rizvan deyilmi? ♣
Dodağın çeşmeyi heyvan deyilmi?
Səqahüm rəbbihüm xəmri ləbindən,
Bəyani ayətü bürhan deyilmi?
Rüxü zülfün bəyazilə səvadı,
Biri küfrü biri iman deyilmi?
Sənin məstanə eynin sağərindən,
Cahan sərgəştəvü giryan deyilmi?
Şəha, eşqin yolunda canı qurban,
Buyursan, qılmağı asan deyilmi?
Dili sərgəştə , ey sultani aləm,
Səninçün ta əbəd heyran deyilmi?
Həqiqi kəşfi əsrar etdi mütləq,
Onu fəhm etməyən nadan deyilmi?

♣ بو شعر نسیمي دیوانیندا (۳-نجو جیلد،ص.۱٤۹) اونا منسوب اولونوبدور
.Nəsimi divanının Baki nəşrində ona aid olunubdur.

عشقه گل یار اول کونکل وارحقدن ایسته یارینی♣
خسرو کون و مکان بیل اول بت عیارینی
کوثرین پیمانه‌سیدیر چون نگارین لبلری
گل اونون جامیندان ایچگیل ماء خوشگوارینی
زاهد تقوادان ایسته زهد و تسبیح و نیاز
جاهل نامحرمه فاش ائتمه‌گیل اسرارینی
جوهری غواصیده‌ن ایسته وفایی یارده‌ن
یارایلن یار اول اونوتگیل نفس ایلن اغیارینی
چون ایکی عالمده فاعل بیردیر ای صاحب نظر
گل اونون یولوندا ترک ائت عالم غدارینی
کنت کنزین نکته‌یی اسرارینی صور عابده
سالک حق اول وار اول گنجیل قیل بازارینی
کؤنلومون آیینه‌سین صاف ائیله نفسه عارف اول
سکه‌یی معنیده گؤرسه‌ت نقدینی عیارینی
ای حقیقی عشق ایلن میدانا گیر منصوروار
بوینونو چک دارا اوندان ایسته پای دارینی

Eşqə gəl, yar ol , könül, var həqdən istə yarını ♣,
Xosrovi kövnü məkan bil ol büti əyyarını.
Kövsərin peymanəsidir çün nigarın ləbləri,
Gəl onun camından içgil mai xoşgüvarını.
Zahidi təqvadan istə zöhdü təsbihü niyaz,
Cahili naməhrəmə faş etməgil əsrarını.
Cövhəri qəvvasdən istə, vəfayi yaridən,
Yar ilən yar ol, unutgil nəfs ilən əqyarını.
Çün iki aləmdə fail birdir , ey sahib nəzər,
Gəl onun yolunda tərk et aləmi ğəddarını.
Künti kənzin nükteyi əsrarını sor abidə,
Saliki həqq ol , var ol gəncil qıl bazarını.
Könlümün ayinəsin saf eylə, nəfsə arif ol,
Sikkeyi mənidə görsət nəqdini, əyyarini.
Ey Həqiqi , eşq ilən meydanə gir Mənsurvar,
Boynunu çək dara ondan istə payi darını.

♣ تهران نوسخه سینده یوخدور. Bu şer Tehran nüsxəsində yoxdur.

رباعیات

دۆرتلوکلر

۱

ای ایکی عالمده حسننک آفتاب
مصحف وجهنکده‌در ام الکتاب
دوشدی جانه آتش هجرنکده تاب
شوق عشقنک باغرمی قلدی کباب

Ey iki aləmdə hüsnün afitab,
Müshəfi vəchindədir ümmül kitab.
Düşdü canə atəşi hicrində tab,
Şövqi eşqin bağrimi qıldı kəbab.

۲

ای ملک ملکنده وجهنک آفتاب♠
وی بوینک سدره خطنک ام الکتاب
جانمی یاخدی غم هجرنکده تاب
شوق عشقنک باغرمی قلدی کباب

Ey mələk mülkündə vəchin afitab♠,
Vey boyun sidrə,xətin ümmül kitab.
Canımı yaxdı ğəmi hicrində tab,
Şövqi eşqin bağrımı qıldı kəbab.

۳

ای رخنک اسماء مقصودات غیب
وی صفاتنک ذات موجودات غیب
شاهد و مشهود مثلنک ذات عیب
واجب اولموشدر منکا♣ اثبات غیب

Ey rüxün əsmai məqsudati ğeyb,
Vey sifatın zati mövcüdati ğeyb.
Şahidü məşhud mislin zati eyb,
Vacib olmuşdur mənə ♣ isbati ğeyb.

♠ بو روباعي نسيمي ديوانيند ا(۳-نجوجيلد، ص.۱٦۲) اونا منسوب اولونوبدور
.Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

♣ لندن نوسخه سينده «سنکا» London nüsxəsində sənə

۴

ویر کونکل اول گلعذاره تا ابد
قوی باشنکی پای داره تا ابد
دنیی و عقبی حرام اولسون حرام
اولمین حیران نگاره تا ابد

Ver könül ol gül uzarə ta əbəd,
Qoy başını payi darə ta əbəd.
Dünyavü üqba həram olsun həram,
Olmayan heyran nigarə ta əbəd.

۵

دوشمننک دفعنه چاره جنگ اولور
غیر اولن ارلک یولنده لنگ اولور
یار ایلن گرچکلننک همرنگ اولور
جاهلنک عقلی بو فهمه دنگ اولور

Düşmənin dəfinə çarə cəng olur,
Ğeyr olan ərlik yolunda ləng olur.
Yar ilən gerçəklənən həmrəng olur,
Cahilin əqli bu fəhmə dəng olur.

۶

شمع رخسارنکا جان پروانه‌در♣
دل وصالنک گنجنه پروانه‌در
اهل عشقنک میلی چون سن خانه‌در
اوندن اوتری کونکلی♠ حسرتخانه‌در

Şəmi rüxsarına can pərvanədir ♣,
Dil vüsalın gəncinə pərvanədir.
Əhli eşqin meyli çün sən xanədir,
Ondan ötrü gönlü həsrətxanədir.

♣ تهران نوسخه سینده یوخدور
♠ لندن نوسخه سینده «کونکلوم»

Bu rubai Tehran nüsxəsində yoxdur
London nüsxəsində könlüm

۷

وحدتنک نوری یوزنک مهتابی در
لیله الاسری ساچنک اطنابی در
کوثرنک خمری لبنک قندابی در
مست عشق اول بادەننک غرقابی در

Vəhdətin nuru yüzün məhtabıdır,
Leylətül əsra saçın itnabıdır.
Kövsərin xəmri ləbin qəndabıdır,
Məsti eşq ol badənin ğərqabıdır.

۸

سر حکمت کنت کنزنک رازی در
عارف وحدت اننک دمسازی در
عشق بازی به ز شطرنج بازی در
نفسنی قطع ایلن لر غازی در

Sirri hikmət küntu kənzin razıdır,
Arifi vəhdət onun dəmsazıdır.
Eşq bazi beh ze şətrənc bazıdır,
Nəfsini qət eyləyənlər ğazıdır.

۹

ای وصالنک روضۂ رضوانمز
وی دوداغنک چشمۂ حیوانمز
چون ایکی عالمده سنسن جانمز
کفر زلفنک شرحی در ایمانمز

Ey vüsalın rövzeyi rizvanımız,
Vey dodağın çeşmeyi heyvanımız,
Çün iki aləmdə sənsən canımız,
Küfri zülfün şərhidir imanımız.

۱۰

اول و آخرده چون بیر ذات ایمش
واحدیت شاننه اثبات ایمش
مصحف خط رخی آیات ایمش
غیر وجهش جملگی اموات ایمش

Əvvəlü axırdə çün bir zat imiş,
Vahidiyət şəninə isbat imiş,
Müshəfi xətti rüxi ayat imiş,
Ğeyri vəchəş cümləgi əmvat imiş.

۱۱

یار دلبر اول بت عیار ایمش
طره‌سی عنبر رخی گلنار ایمش
عاشقنک رسمی غمنده راز♣ایمش
باغ وصل روضه‌ی گلزار ایمش

Yari dilbər ol büti əyyar imiş,
Türrəsi ənbər, rüxi gülnar imiş.
Aşiqin rəsmi ğəmində raz♣ imiş,
Bağı vəsli rövzeyi gülzar imiş.

۱۲

نکتهٔ توحید کنز الله ایمش
وحدتنک کوینده واحد شاه ایمش
عشقه اکراه ایلن گمراه ایمش
مومننک قلبی آنکا آگاه ایمش

Nükteyi tovhid kənzüllah imiş,
Vəhdətin küyində vahid şah imiş.
Eşqə ikrah eyləyən gümrah imiş,
Müminin qəlbi ona agah imiş.

♣ لندن نوسخه سینده «زار»

London nüsxəsində zar

۱۳

کوثرنک آبی لبنک عیننده صاف♠
وجهنکا اهل سجود ایلر طواف
زرق و تزویر اولدی معنیده خلاف
مومنه حقدن ایرشدی لاتخاف

Kövsərin abi ləbin eynində saf ♠,
Vəchinə əhli sücüd eylər təvaf.
Zerqü təzvir oldu mənidə xilaf,
Müminə həqdən irişdi latəxaf.

۱۴

وحدتنک مهتابی تابی در یوزنک
ظلمتنک کشف حجابی در یوزنک
اهل توحیدنک کتابی در یوزنک
عارفنک یوم الحسابی در یوزنک

Vəhdətin məhtabi tabıdır yüzün,
Zülmətin kəşfi hicabıdır yüzün.
Əhli tovhidin kitabıdır yüzün,
Arifin yovmül hesabıdır yüzün.

۱۵

ای یوزنک مهتابی تابی کونکلمنک
ای جمالنک آفتابی کونکلمنک
ای خطنک ام الکتابی کونکلمنک
صورتنک یوم الحسابی کونکلمنک

Ey yüzün məhtabı tabı könlümün,
Ey cəmalın aftabı könlümün,
Ey xətin ümmül kitabı könlümün,
Surətin yovmül hesabı könlümün.

♠ بو روباعي نسيمي ديوانيندا (۳-نجو ج.ص.۱۷۷) اونا منسوب اولونوبدور
.Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

۱۶

ای لبنک ماء طهوری کونکلمنک
وی ساچنک♣ ظلنده نوری کونکلمنک
عشقنکا یوخدر قصوری کونکلمنک
شول جهتدن در حضوری کونکلمنک

Ey ləbin mai təhuri könlümün,
Vey saçın ♣ zillində nuri könlümün.
Eşqinə yoxdur qüsuri könlümün,
Şol cəhətdəndir hüzuri könlümün.

۱۷

ای یوزنک بیت الحرامی کونکلمنک
غمزۀ عیننک امامی کونکلمنک
کوثرین یحی‌العظامی کونکلمنک
لبلرین صهبا و جامی کونکلمنک

Ey yüzün beytül hərami könlümün,
Ğəmzeyi eynin imamı könlümün.
Kövsərin yohyil izamı könlümün,
Ləblərin səhbavü camı könlümün.

۱۸

ای جمالنک آفتاب لایزال
وی یوزنک دور قمر قاشنک هلال
چشمه‌ی لعلنکه‌در آب زلال
آیت حقدر رخنک ده خط و خال

Ey cəmalın aftabi layəzal,
Vey yüzün dövri qəmər, qaşın hilal.
Çeşmeyi ləlindədir abi zülal,
Ayəti həqdir rüxündə xəttü xal.

♣ لندن نوسخه سینده «ساچي» London nüsxəsində saçı

۱۹

ای مکرم صورت و حسن و جمال♣
دولتنک دورنده بولدی جان وصال
روضهٔ رضوان وحور العین سننک
چکدی حسننک حسرتنکدن انفعال

Ey mükərrəm surətü hüsnü cəmal♣,
Dövlətin dövründə buldu can vüsal.
Rövzeyi rizvanü hurül eyn sənin,
Çəkdi hüsnün həsrətindən infial.

۲۰

ای وصالنک جنت آباد کونکل
ای سر کوینکده بُنیاد کونکل
مهر عشقنک اولدی استاد کونکل
عالمی دوتدی فرح شاد♠ کونکل

Ey vüsalın cənnətabadi könül,
Ey səri kuyində bünyadi könül.
Mehri eşqin oldu ustadi könül,
Aləmi tutdu fərəh şad♣ könül.

۲۱

عالم غداره اغیار اول کونکل♣
یار ایلن یار وفادار اول کونکل
جانی قربان ایله بردار اول کونکل
وحدتنک کوینکده پندار اول کونکل

Aləmi ğəddarə əğyar ol, könül♣,
Yar ilən yari vəfadar ol, könül.
Canı qurban eylə bər dar ol, könül,
Vəhdətin küyində pindar ol, könül.

♣ تهران نوسخه سینده یوخدور. Tehran nüsxəsində yoxdur
♠ لندن نوسخه سینده «شادي» London nüsxəsində şadi
♣ تهران نوسخه سینده یوخدور. Tehran nüsxəsində yoxdur

۲۲

ای حدیثنک نکتهٔ خیر الکلام
شوق لعلنکدن جهانی دوتدی جام
عارضنک دورنده‌در بیت الحرام
قاشلرنک محرابنه عینک امام

Ey hədisin nükteyi xeyrül kəlam,
Şövqi ləlindən cahanı tütdü cam.
Arizin dövründədir beytül həram,
Qaşların mehrabına eynin imam.

۲۳

ای خطنک مجموعهٔ خیر الکلام
عارضنک دورنده‌در ماه صیام
ای دوداغنک کوثری یحی العظام
کعبه حقدر جمالنک والسلم

Ey xətin məcmueyi xeyrül kəlam,
Arizin dövründədir mahi siyam.
Ey dodağın kövsəri yohyil izam,
Kəbeyi həqdir cəmalın vəssəlam.

۲۴

تا که من عزم دلارام ایلدم
ترک فکر صبر و آرام ایلدم
بیوفا سودالری عام ایلدم
اوزمی عالمده نیک نام ایلدم

Ta ki, mən əzmi dilaram eylədim,
Tərki fikri səbrü aram eylədim.
Bivəfa sövdaları xam eylədim,
Özümü aləmdə niknam eylədim.

۲۵

دلبرنک لعلنکی خندان ایسترم
لبلرندن آب حیوان ایسترم
چون ایکی عالمده بیر جان ایسترم
جانمی یولنده قربان ایسترم

Dilbərin ləlini xəndan istərəm,
Ləblərindən abi heyvan istərəm.
Çün iki aləmdə bir can istərəm,
Canımı yolunda qurban istərəm.

۲۶

ای حدیثنک مظهر کون و مکان
والضحی واللیل والشمس و دخان
ای صفاتنکدن کلام حق بیان
لوح محفوظنکده کشف اولدی عیان

Ey hədisin məzhəri kovnü məkan,
Vəzzuha, vəlleyl, vəşşəmsü düxan.
Ey sifatından kəlami hə bəyan,
Lövhi məhfuzində kəşf oldu əyan.

۲۷

عشق اودیله دوشمشم بریانه من
من خچن بو عشق اودندن یانه من
یانمزم عشقنک اودندن تا ابد
گر بو حسرت آتشندن یانه من

Eşq odilə düşmüşəm bir yanə mən,
Mən haçan bu eşq odundan yanə mən.
Yanmazam eşqin odundan ta əbəd,
Gər bu həsrət atəşindən yanə mən.

۲۸

مسند اقبال و دولت بولمشم
تا سرکوینکده قویدم یوز یره
شرح اوصاف جمالک♣ سویلسم
گورسدر بیر دمده معنی یوز یره

Məsnədi iqbalü dövlət bulmuşam,
Ta səri kuyində qoydun yüz yerə.
Şərhi ovsafi cəmalın ♣ söyləsəm,
Görsədər bir dəmdə məna yüz yerə.

۲۹

خسروا چوخ ظلم و بیداد ایلمه♣
عاشقی مانند فرهاد ایلمه
عزم هجران جور بنیاد ایلمه
مدعیننک کونکلی شاد ایلمه

Xosrova, çox zülmü bidad eyləmə ♣,
Aşiqi manəndi Fərhad eyləmə.
Əzmi hicran, cövr bünyad eyləmə,
Müddəinin könlünü şad eyləmə.

۳۰

عاشقنک رازنی گل فاش ایلمه♠
قصد جان رند و اوباش ایلمه
دلبرا سن باغرمی داش ایلمه
قانلو یاشمدن منی یاش ایلمه

Aşiqin razını gəl faş eyləmə ♠,
Qəsdi canı rinü obaş eyləmə.
Dilbəra sən bağrımı daş eyləmə,
Qanlı yaşımdan məni yaş eyləmə.

♣ لندن نوسخه سینده «جمالي» — London nüsxəsində cəmalı
♣ تهران نوسخه سینده «یوخدور» — Tehran nüsxəsində yoxdur
♠ باشقا نوسخه لرده یوخدور — Başqa nüsxələrdə yoxdur

۳۱

باغرومی دلدنک سن♦ ای جان پاره‌سی
سنده‌در بو زخم و دردنک چاره‌سی
چون ارشدی درد عشقنک• پاره‌سی
طاقتیم یوخدر دخی یالواره‌سی

Bağrımı dəldin, sən ♦, ey can parəsi,
Səndədir bu zəxmü dərdin çarəsi.
Çün irişdi dərdi eşqin • parəsi,
Taqətim yoxdur dəxi yalvarəsi.

۳۲

ای خط و خالنکده حالنک فتنه‌سی
قاب قوسیننک هلالنک فتنه‌سی
نرگس مستنکده آلنک فتنه‌سی
عالمی دوتدی جمالنک فتنه‌سی

Ey xətu xalında halın fitnəsi,
Qab qövseynin hilalın fitnəsi.
Nərgisi məstində alın fitnəsi,
Aləmi tutdu camalın firnəsi.

۳۳

ای ساچنک ظل آلهنک سایه‌سی
وی حدیثنک عالمنک سرمایه‌سی
پیر عشقنک چون سن اولدنک دایه‌سی
سنده‌در عرفان عشقنک وایه‌سی

Ey saçın zil allahın sayəsi,
Vey hədisin aləmin sərmayəsi.
Pir eşqin çün sən oldun dayəsi,
Səndədir irfani eşqin vayəsi.

♦ لندن نوسخه سینده «گل» London nüsxəsində gəl

• لندن نوسخه سینده «اسدي جان حسرت» London nüsxəsində əsdi canı həsrət

۳۴

ای گین عشقنک قبا و درعنی
اصلنی بیلمز نه بیلسون فرعنی
دلبرنک یولنده ای دل ثابت اول
گل بیان ایله بو عشقنک شرحنی

Ey geyən eşqin qəbavu dərini,
Əslini bilməz nə bilsin fərini.
Dilbərin yolunda ey dil sabit ol,
Gəl bəyan eylə bu eşqin şərhini.

۳۵

کیمکه بیلمز♣ اوز حقیننک ذاتنی♠
صورمگل آندن آننک اثباتنی
اوینمز شطرنج عشقنک آتنی
گورمین بو رقعه‌ننک شهماتنی

Kim ki, bilməz ♣ öz həqinin zatını♠,
Sormagıl ondan onun isbatını.
Oynamaz şətrənci eşqin atını,
Görməyən bu röqənin şahmatını.

♣ لندن نوسخه سینده «بیلمر» London nüsxəsində bilmir

♠ بو روباعي نسیمي دیوانیندا (۳-ن جوجیلد، ص.۱۹۶) اونا منسوب اولونوبدور.

♠Nəsimi divanının Bakı nəşrində ona aid olunubdur.

أسکیلشمیش سؤزلر:

آری(arı) : تمیز

آرینماق(arınmaq) : تمیز اولماق (بو فعلدن یارانمیش آریتلاماق بوگون ایشلکدیر)

آل (al): حیله

آل (al): قیرمزی

آیروغ (ayruq): اوزاق ، کنار

آیری(ayrı)// **آیرو** : باشقا

اتمک (ətmək): چؤرک

ارمک (ərmək): یئتیشمک ، نائل اولماق

أسرومک (əsrük): سارالماق ، ناخوش اولماق

ایریشمک (irişmək): چاتماق

اول (ol): او عوضلییین أسکی فورماسی

باغیر (bağır): اوره ک ، کونول

بولماق (bulmaq): تاپماق

توطشماق (tuşmaq): دوچار اولماق ، آلیشماق

توکنمک (tükənmək): قورتارماق

داخی (daxı): داها

دامو (damu): جنهم

دوزاغ (duzaq): تله ،پوسگو

سویلمک (söyləmək): دئمک

صوصاماق (susmaq) : سوسوز اولماق ، تشنه اولماق

قات (qat): یان (بو سؤز موعاصیر دیلیمیزده باشقا معناده ایشله نیلیر. مثلن: مالی اؤچ قات باهاسینا ساتیر.)

قیلماق (qılmaq): ائتمک ، ائله مک (بو فعل بوگون یالنیز « ناماز قیلماق» مرکب فعلینده ایشله نیلیر)

نه چوک (nəçük): نئجه

نیشه (nişə): بو سؤز نئجه سؤزون قدیم شکلیدیر.

یاخماق (yaxmaq): یاندیرماق

FİRUZAN PUBLİCATİON
Mirza Djahanshah Haghighi
Divan of poems (Farsi-Turki)
Tehran University Central Library Manuscript
First Print 2001
Compiled and researched by Firuz Refahi Alamdarİ
lSBN 964-92994-2-4

Mirzə Cahanşah Həqiqi

Farsca-Türkcə
Divan

Tehran Universitetin Mərkəzi Kitabxanasında Olan Nüsxəsi Əsasında

Hazırlayan
Firuz Refahi Ələmdari

Firuzan